www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu   Gündəlik qəzet  24 sentyabr 2014-cü il  Çərşənbə  № 238 (5947)  Qiyməti 40 qəpik

Xəbər

## Göyçayda bələdiyyə sədrinin intiharının şok detalları

yazısı səh.3-də

Gündəm

### Amerikanın təhlükəli Qarabağ ssenarisi



Vaşinqton son vaxtlar xeyli dərəcədə "sözəbaxmaz və müstəqil" olan Türkiyəyə yerini göstərməyin, eyni zamanda Ermənistanı Rusiya orbitindən çıxarmağın yollarını arayır, bəs Azərbaycan?...

yazısı səh.11-də

### Müsavatın 36 funksioneri Qubad İbadoğluna dəstək bəyanatı yaydı

yazısı səh.9-da

### Söyün Sadıqovun Bakıdakı biznesi - şok xəbər

yazısı səh.2-də

### "Avesta" Konserni Küveytlə əlaqələri genişləndirir

yazısı səh.3-də

### Müxalifət AŞ PA prezidentinin səfərindən heç nə gözləmir

yazısı səh.4-də

### Cənub Qaz Dəhlizi Azərbaycan hakimiyyətinin əhəmiyyətini artırır

yazısı səh.12-də

### Sabiq rəisin öldürdüyü iddia olunan qadın "Qurd qapı"sında basdırılıb

yazısı səh.10-da

### İşdən qovulan direktor söydüyü müəllimə 2500 manat ödəyəcək

yazısı səh.2-də

### Dələduzluqda suçlanan hakimin cinayət işində şok isimlər

yazısı səh.10-da

### Yazıçı Əleviyyə Babayeva vəfat etdi

yazısı səh.11-də

### Ordumuz iki əsgər itirdi

yazısı səh.2-də

### Quş qripi yenidən qayıdır

yazısı səh.15-də

### Deputatın qardaşının qatil oğluna ömürlük cəza verdilər

yazısı səh.14-də

# "Taliban"ın azərbaycanlı "əmiri" tutuldu

## MTN-DƏN ŞOK İŞİD ƏMƏLİYYATI - TƏFSİLAT VƏ YENİ XƏBƏRLƏR

Həbs edilənlər sırasında "Təhriki Taliban" və "Seyfullah" kimi müxtəlif silahlı qruplaşmaların tərkibində döyüşənlər də var; atası 15 yaşlı oğlunu Suriyaya necə göndərib; hüquq-mühafizə orqanlarına tapşırılıb ki, Avropa Oyunlarınadək radikal dini qruplarla yaxınlığı olanların "əl-ayağı" yığışdırılsın

yazısı səh.5-də




# Mülkünü AXCP-yə vermiş şəxs Əli Kərimlini ittiham etdi

Azər Əsgərov: "Onun ayaqqabısının bir tayı götürülsəydi, dünyanı dağıdardı"; "Çox şey öyrənmişəm, açıqlayanda AXCP çalxalanacaq"; "Onlara görə mülküm əlimdən çıxıb, amma dəstək yoxdur, artıq Almaniya səfirliyinə sığınacam"

yazısı səh.10-da



*Pənah Hüseyn Natiq Əliyevin cavabını verdi:*

### "Bu, bir nazir üçün səviyyəsizlikdir"

yazısı səh.4-də



*Siyavuş Novruzov:*

### "Yeni başqan YAP-la əməkdaşlıq etmək istəyəcəksə, buyursun"

yazısı səh.6-da



### Arif Hacılı Qubad İbadoğlu ilə anlaşıb...

yazısı səh. 8 və 9-da

24 sentyabr 2014

YENİ MÜSAVAT
N 238 (5947) 24 sentyabr 2014



## İlham Əliyev AŞ PA nümayəndə heyətini qəbul edib

**Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 23-də Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) sədri Ann Brasörün başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

APA-nın məlumatına görə, görüşdə Azərbaycanla AŞ PA arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Milli Məclisdəki 4 boş yerə seçki keçiriləcəkmi?

**YAP icra katibinin müavini Mübariz Qurbanlının Dini Qurumlarla İşlər üzrə Dövlət Komitəsinin sədri təyin edilməsindən sonra Milli Məclisdə boş qalan deputat yerlərinin sayı faktiki olaraq 4-ə çatıb.**

Mərkəzi Seçki Komissiyasının sədr müavini Natiq Məmmədov aktual.az-a açıqlamasında Milli Məclisin kollegial orqan olduğunu bildirib. O qeyd edib ki, boşalan yerlər kvoruma xələl gətirmirsə, prinsipcə, orqanın fəaliyyəti mümkündürsə və davam edirsə, bu, narahatlıq doğurmamalıdır: "Buna görə də o vaxt səlahiyyətlidir ki, seçilməli olan üzvlərinin bəlli sayda hissəsi seçilmiş olsun. Onda artıq o məclisin kollegial orqan kimi fəaliyyət göstərməsi üçün əsas yaradır. Boşalan yerlər isə o kvoruma xələl gətirmirsə, prinsipcə, orqanın fəaliyyəti mümkündürsə və davam edirsə, bu, narahatlıq doğurmamalıdır. Elə ona görə də, yəni boşalan yerlərə seçki keçirilməyin zəruriliyi bir çox şərtlərə və səlahiyyətlərə bağlıdır. Onu da qeyd edim ki, MSK seçkilərin həyata keçirilməsi təşkilatçılığını öz üzərinə götürür, amma seçkilərin təyini MSK-ya aid deyil".

Xatırladaq ki, Mübariz Qurbanlıdan əvvəl baş nazirin müavini təyin edilən Əli Əhmədov, mandatdan imtina etmiş Gülər Əhmədova və avtomobil qəzası nəticəsində dünyasını dəyişmiş Hikmət Atayevin də parlamentdəki kürsüləri boş qalıb.

Məlumat üçün qeyd edək ki, Seçki Məcəlləsinin 176-cı maddəsinə görə, deputat mandatının boş qalmasından sonra bir ay müddətində müvafiq birmandatlı seçki dairəsi üzrə əlavə seçkilər təyin edilməlidir. Konstitusiyanın 87-ci maddəsində isə qeyd olunur ki, parlamentin səlahiyyət müddətinin bitməsinə 120 gündən az müddət qalarsa, hər hansı səbəbdən deputatsız qalan dairələrdə seçkilər keçirilmir.

Bəs 2010-cu il noyabrın 7-də Milli Məclisin IV çağırış deputatı seçildikdən sonra fəaliyyət müddətinin sonuna qədər parlamentdə təmsil oluna bilməyən eks-deputatların boş qalan yerlərinə növbəti seçkilər keçiriləcəkmi?

Milli Məclisin mətbuat katibi Akif Nəsirov "Yeni Müsavat"a deyib ki, boş yerlərin taleyi ilə bağlı onda hər hansı bir məlumat yoxdur.

❑ **Cavid TURAN**

## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz,
biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

## "Elm" tədris mərkəzi

**MAGIC LANGUAGES**

➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Söyün Sadıqovun Bakıdakı biznesi - şok xəbər

## "AzerRos"un təsisçisinin qardaşının rəhbərlik etdiyi quşçuluq fabrikinin ortağı nazirin qardaşıdır

**Ötən sayımızda nəqliyyat naziri Ziya Məmmədovun ailə şirkəti "Garant Holdinq"in Ucarda "Mərcan" markası altında satılan toyuq fermasına sahib olması haqda yazmışdıq. Qeyd etmişdik ki, fermanın tikintisində və nazirin bu sahədəki biznesinin istiqamətləndirilməsində Z.Məmmədovun yaxın dostu, baş nazirin sabiq 1-ci müavini Abbas Abbasovun bilik və bacarığından istifadə edildiyi haqda ehtimallar var. Belə ki, A.Abbasov Azərbaycanda vəzifə tutmazdan əvvəl, Sovetlər Birliyi dönəmində Özbəkistan Quşçuluq Komitəsinə rəhbərlik edib.**



Dünən redaksiyamıza A.Abbasovun da təmsil olunduğu "Milyarderlər İttifaqı"nın digər üzvü, "AzerRos" Rusiya Azərbaycanlıları Milli-Mədəni Muxtariyyətinin təsisçisi, Rusiya prezidenti yanında Millətlər Şurasının üzvü, azərbaycanlı oliqarx Söyün Sadıqovun da Bakıda iri broyler fabrikinə sahib olması haqda məlumat daxil olub. Həmin məlumatda bildirilir ki, Xocahəsən kəndi yaxınlığında yerləşən bu müəssisə inkubator sexlərində damazlıq yumurtalardan cücələrin çıxarılması, yetişdirilməsi və satışı ilə məşğul olur. Bu fabrik ildə 100 minə yaxın quş istehsal edir. "Şəfalı" broyler adı ilə tanınan bu fermanı isə Söyün Sadıqovun qardaşı Murad Sadıqov idarə edir. Bu şəxsin Bakıda iri torpaq sahələri də var.

Mənbənin bildirdiyinə görə, Murad Sadıxovun ortağı nəqliyyat Naziri Ziya Məmmədovun qardaşlarından biridir. İndiyədək Z.Məmmədovun Azərbaycan hakimiyyətinə qarşı açıq şəkildə çıxmış, ölkəmizdə siyasi hakimiyyəti ələ keçirməyə çalışan "Milyarderlər İttifaqı" və bu təşkilatın aparıcı üzvləri ilə dostluq, həmçinin biznes əlaqələrinin olmasına dair mediada məlumatlar dolaşıb. Bu da növbəti xəbərlərdən biri.

Çox istərdik ki, Ziya Məmmədov şəxsən özü bu iddialara cavab versin. Təəssüf ki, Azərbaycanda jurnalistlər məmurlarla, xüsusilə də oliqarxlaşmış nazirlərlə hər hansı mövzuya dair dəqiqləşdirmə apara, mövqelərini, fikirlərini öyrənə bilmirlər.

Amma buna baxmayaraq, bu xəbərə Z.Məmmədovun özünün və yaxud Söyün Sadıqovun qardaşı ilə biznes ortağı olan qardaşının mövqeyini dərc etməyə hazırıq.

❑ **E.HÜSEYNOV**



## Pərviz Həşimlinin həyat yoldaşı ictimaiyyətə müraciət etdi

**"Bizim Yol" qəzetinin əməkdaşı, hüquq müdafiəçisi Pərviz Həşimlinin həyat yoldaşı İlahə Rüstəmova mətbuat vasitəsilə hüquq-mühafizə orqanlarına müraciət edib. Müraciətini "Yeni Müsavat"a da yollayan İ.Rüstəmova bildirir ki, MTN hələ də onun 6 yaşlı qızına əzab yaşadır:**

"Buna isə bütün dövlət orqanları göz yumur. Biz hələ də Pərvizlə şüşə arxasından görüşürük. Baxmayaraq ki, başqa siyasi məhbusların ailələrinə açıq görüş verilir. Bir tək bizdən başqa. Belə düşünürük ki, MTN hələ də bizə əzab yaşatmaq niyyətindədir. 6 yaşlı körpəmi atasından ayırmaqları bəs deyilmiş kimi, hələ üstəlik, onları həftədə bir dəfə, bir-birini qucaqlayıb öpməyə həsrət qoyurlar. Bu da qızımızın psixologiyasını daha da pozur və onun dərslərini oxumasına çox pis təsir edir".

**İ.Rüstəmova dedi ki, o, hələ də qızını dərmanlar vasitəsilə sakitləşdirir. Müsahibimiz bu səbəbdən də təkrarən hər kəsdən məktəbli qızının nəzərə alınmasını xahiş edib:** "Xahiş edirəm ki, bizim bu hüququmuzun pozulmasına göz yummasınlar. Bu günə kimi isə kimlərə müraciət eləmişəmsə, təkrarən müraciət edirəm. Bizim bu problemimizin aradan qaldırılması üçün Çingiz Qənizadəyə, Əliməmməd Nuriyevə, Mədət Quliyevə, təcridxananın rəisinə və ombudsman Elmira Süleymanoya kimi ərizə ilə müraciət etmişəm. Ərizələrimin çatmasına baxmayaraq, bizə köməklik göstərən, bu problemin aradan qaldırılmasına kömək edən olmayıb. Ümid edirəm ki, bu müraciətimi qəbul edib, bizə köməklik edərlər və 6 yaşlı körpənin atasını qucaqlamasına şərait yaradarlar".

❑ **Sevinc TELMANQIZI**



## Ordumuz 2 əsgərini itirdi

**Sentyabrın 23-də saat 14.30 radələrində erməni silahlı bölmələri atəşkəs rejimini növbəti dəfə pozaraq mövqelərimizi atəşə tutublar. Musavat.com-un Müdafiə Nazirliyinin saytına istinadla məlumatına görə, döyüş mövqeyində təhlükəsizlik qaydalarını pozduğundan Silahlı Qüvvələrimizin 1995-ci il təvəllüdlü, Ağstafa rayonundan hərbi xidmətə çağırılmış əsgəri Şəbiyev Kəramət Şəmkir oğlu düşmən tərəfindən atılan snayper atəşindən həlak olub.**

Hadisə ilə bağlı cinayət işi başlanıb. Hərbi Prokurorluq tərəfindən faktla əlaqədar araşdırma aparılır.

Həmçinin dünən saat 13.20 radələrində Silahlı Qüvvələrimizin 1996-cı il təvəllüdlü, Yevlax rayonundan hərbi xidmətə çağırılmış əsgəri Sadıqov Pərviz Vidadi oğlu infeksion-toksiki şok, hemorragik vaskulit, visseral forma, ildırım sürətli gedişli diaqnozu ilə Silahlı Qüvvələrin Baş Kliniki Hospitalına daxil olub.

Həkimlərin səyinə baxmayaraq, onun həyatını xilas etmək mümkün olmayıb və xəstə saat 15.35 radələrində vəfat edib.

Hadisə ilə bağlı cinayət işi başlanıb. Hərbi Prokurorluq tərəfindən faktla əlaqədar araşdırma aparılır.

Müdafiə Nazirliyinin rəhbərliyi dünyasını dəyişmiş əsgərlərimizin valideynlərinə və doğmalarına dərin hüznlə başsağlığı verir və səbr diləyir.

## İşdən qovulan direktor söydüyü müəllimə 2500 manat ödəyəcək

**Xətai Rayon Məhkəməsində hakim Fuad Məmmədovun sədrliyi ilə Bakı şəhəri, Xətai rayonu, 171 saylı məktəbin müəlliməsi Mədinə Tağıyevanın həmin təhsil müəssisəsinin keçmiş direktoru İradə Murquzovaya qarşı iddiasına baxılır. Sentyabrın 23-də keçirilən məhkəmə prosesi zamanı milli.az saytının əməkdaşı Anar Məmmədov da ifadə verib.**

Xatırladaq ki, iddiaçı tərəfinin vəkili Teymur Rzayev bildirib ki, milli.az saytının əməkdaşı Anar Məmmədov 171 saylı məktəbin keçmiş direktoru İradə Murquzova ilə məlum olaylarla bağlı telefonla müsahibə götürüb: "İ.Murquzova müsahibəsində məktəbin müəlliməsi Mədinə Tağıyevanın ünvanına sərt təhqir və böhtanla dolu fikirlər səsləndirib. Bununla bağlı Mədinə Tağıyeva İ. Murquzova tərəfindən təhqir olunduğu üçün 100 min manat təzminat və ona qarşı səsləndirilən təhqir və böhtanların təkzibini istəyib. Məhkəmə iclasında İradə Murquzova iştirak etməyib. Onun vəkili İlqar Abbasov çıxış edərək qarşı tərəfin İ.Murquzovaya qarşı qaldırdığı iddianı rədd edib. İ.Abbasov hüquqlarını müdafiə etdiyi İ.Murquzovanın milli.az saytına verdiyi müsahibədə müəllimə M.Tağıyevanı təhqir etmədiyini və yazılanlıarın yalan olduğunu bildirib".

**A.Məmmədov isə "Yeni Müsavat"a açıqlamasında məhkəmə prosesi barədə məlumat verdi. Dedi ki, İ.Murquzova ona müsahibəsində öz məktəbində işləyən müəllimə Mədinə Tağıyeva barəsinde nalayiq sözlər işlədib:** "Xətai Rayon Məhkəməsində bir neçə ay idi, proses gedirdi. İradə Muqruzovanın vəkilləri iddiaçıya İradənin heç bir təhqir işlətmədiyini, mənim yalan yazdığımı deyirmiş. Nəhayət, dünən məhkəmədən bildiriş aldım və bu gün məhkəmədə şahid kimi dindirildim. Sübutumu ortaya qoydum. İradə Murquzova ilə söhbətimin səs yazısını məhkəməyə təqdim etdim, eyni zamanda məhkəmə zalında dinlənildi".

**Jurnalist bildirdi ki, qarşı tərəf səs yazısını dinləyəndən sonra məhkəmədən onun sübut kimi qəbul olunmamasını xahiş edib:** "Əsaslandırdı ki, guya mən Murquzovanın səsini yazarkən xəbərdarlıq etməmişəm, halbuki özümü jurnalist kimi təqdim etmişdim. Jurnalistin özünü təqdim etməsi əsas sayılmırsa, başa düşmürəm özümüzü niyə jurnalist kimi təqdim edirik hər bir şəxsə və ya müsahibə? Daha sonra isə vəkil səs yazısının İradə Murquzovaya aid olmasından şübhələndiyini deyərək ekspertiza təyin olunmasını xahiş etdi. Sonda məhkəmə müşavirəyə getdi və qərarını verdi: İradə Murquzova milli.az saytında M.Tağızadədən üzr istəsin və ona 2500 manat təzminat ödəsin".

❑ **Sevinc TELMANQIZI**



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Həbs orderi israfçılığı

(Bu yazımı şərlənərək həbs edilmiş siyasi məhbus Anar Məmmədliyə həsr edirəm)

**Bütün dünya ölkəmizdəki seçki saxtakarlığından, siyasi məhbusların çoxluğundan, korrupsiyadan və sairdən bərk narahatdır. Gündə bir toplantı keçirib vəziyyəti müzakirə edirlər, tədbir görməyə çalışırlar. Azərbaycan iqtidarı da ölkənin bir nömrəli problemi kimi yas yerlərindəki ehsan süfrəsinin menyusunu görür. Əsl komediyadır. Deyirlər ki, yas zamanı ehsan verilərkən israfçılığa yol verilir. Məgər həmin ərzağı yas yiyəsinə, dövlət, özü də müftə verir, deyəsən ki, camaatımız hökumətin ürəyiyumşaqlığından istifadə edir. Siyavuş Novruzov Qədimalı qağamın atasına ehsan verərkən, onun xərcə düşməsindən bələmi narahatdır? Əgər sən pensiyaçı Qədimalı qağamla Çeşməgül xalanın dərdini çəkirsənsə, onların təqaüdünün artırılmasına çalış da bə! Bunun üçün böyür-başındakı büdcəni talayan yırtıcıları durdurmağa çalış. Onları israfçılıq etməyə qoyma da! Məmur övladlarının avtomobil kolleksiyalarını görəndə israfçılıq yadına düşmür. Ancaq ehsan süfrələrindəki bozbaşla plov sənə rahatlıq vermir? Şəxsən mənim özümün yas və toy mərasimlərinə münasibətim "milli adət-ənənəmiz və mentalitetimizə" qətiyyən uyğun deyil. Amma bildiyim budur ki, ehsan acların, xüsusən də yetim-yesirin qarnının doydurulması aksiyasıdır. Elə isə iqtidar niyə istəmir ki, bəzi imkansız insanlar heç olmazsa yas yerində doyunca yemək yesinlər və ölüyə də ürəkdən rəhmət diləsinlər.**

Mən sizə bir israfçılıq nümunəsi göstərim. Heydər Əliyev Sarayının kosmetik təmirinə YAP iqtidarı təxminən 60-70 milyon dollar pul xərcləyib. Bir xeyli əvvəl "Yeni Müsavat" qəzeti müdafiə sənayesi naziri Yavər Camalovun Rusiyanın Çelyabinsk şəhərindəki zavodların birindən qiyməti 250 min dollara olan dəzgahı bir neçə milyon dollara aldığını yazmışdı və sübut kimi qaimənin surətini də səhifədə yerləşdirmişdi. Cəmiyyətdə məlum olan bu cür faktların sayı-hesabı yoxdur. Amma onların heç birində Siyavuş Novruzovun cınqırı da çıxmayıb, əksinə, sinəsini sipər edib xalqın pulunu talayanlara qahmar çıxıb.

Elə Müsavat Partiyasına qurultay keçirmək üçün Əmircandakı "Mədəniyyət Evi" adlanan uçuq-sökük daxmanın ayrılması da hökumətimizin israfçılığa qarşı mübarizəsinin tərkib hissəsidir. Bu daxmanın istifadəsi üçün partiya hər saata görə vur-tut 220 manat ödəməlidir. Nə olsun ki, bu, bir gün üçün 2000 manatdan çox eləyir. Müsavat istəsəydi hakimiyyətimiz heç bir tərəddüd etmədən Sarayı da verərdi. Ancaq bu zaman hər saat üçün 2 milyon manat ödəmək lazım gələcəkdi. Bu isə bir gün üçün təxminən 20 milyon manat deməkdir. Hökumətimiz deyir ki, ay mənim müxalifətçi qardaşım, beynəlxalq ermənilərin dəyirmanına su tökənlər şəbəkəsi sizə pul ayırır ki, ölkədə sabitliyi pozasınız, iğtişaşlar törədəsiniz, siz isə israfçılıq edib onu bir gündə dəbdəbəyə xərcləyirsiniz. Belə olmaz, pullar təyinatı üzrə xərclənməlidir. Yavər Camalov, Ziya Məmmədov, Hacıbala Abutalıbov və s. kimi kristal məmurların etdiyi kimi. Bu yerdə MSK sədri Məzahir Pənahov məndən inciməsin ki, onun adını şan-şöhrətli israfçılarımızın sırasında çəkmədim. Buna ehtiyac görmədim. Çünki mandat paylayanda, iqtidara səs yazanda israfçılıq etdiyinə görə onun adı beynəlxalq dəftərlərə çoxdan düşüb.

Əslində hakimiyyətin daha bir israfçılığı Siyavuş Novruzovu çox narahat etməlidir. Bu, müxalifətçilərin həbsinə verilən orderlərdir. İqtidar bu sahədə çox israfçılıq edir. Belə getsə ölkəmizin həbs orderi ehtiyatları tükənəcək. Bəs onda analoqu olmayan inkişafın axırı nə olar? Ona görə də həbs orderlərinin sağa-sola səpmək olmaz. Elə situasiya yetişər ki, yeddi adam başı kəsmiş qatı cinayətkarı həbs etmək lazım gələr, order çatmaz. Gərək bundan sonra ölkəmizin analoqu olmayan inkişafının əsas təminatçısı və strateji xammalın tükənməsinin səbəblərinin araşdırılması üçün komissiya yaradıla, aylarla araşdırma aparıla ki, bu da çox vaxt aparar. Bizim iqtidarın əsas strategiyası həbs orderlərini qoruyub gələn nəsillərə saxlamaq olmalıdır. Belə olmasın ki, neft pullarını indidən xərcləyib qurtardığımız kimi həbs orderlərini tükədək. Bir az keçəcək indi həbsə atılmış müxalifətçilərin övladlarını da həbs etmək lazım gələcək, onda həbs orderlərini haradan alacaqsınız, Belə çıxır ki, müxalifətçilərin övladları sərbəst gəzib-dolaşacaqlar? Ona görə də order israfçılığının qarşısı təcili olaraq alınmalıdır.

**P.S.** *Deyəsən, mən də söz israfçılığına yol verdim.*

**"Avesta" Konserninin prezidenti Hacı İbrahim Nehrəmlinin rəhbərliyi ilə konsernin idarə heyəti 5-8 sentyabr tarixlərində Küveytdə işgüzar səfərdə olub. Səfərin məqsədi küveytli iş adamları ilə bir sıra səmərəli görüşlər keçirmək, "Avesta" Konserni və bu ölkənin iş adamları arasında əməkdaşlığa dair razılaşmalar əldə etmək idi.**







# "Avesta" Konserni Küveytlə əlaqələri genişləndirir





İlk öncə "Hassan Abul Holding" şirkəti ilə keyfiyyətli tikinti materiallarının daşınmasını müzakirə edən nümayəndə heyəti daha sonra "Küveyt-Azəri" birgə müəssisəsi ilə qeyd olunan şirkət arasında memorandumun imzalanması mərasimində iştirak edib.

Bir gün sonra Küveytin tanınmış "Abyat" şirkəti ilə görüş baş tutmuşdur. Şirkət rəhbərliyi öz fəaliyyət sferalarını ətraflı şəkildə Hacı İbrahim Nehrəmliyə nümayiş etdirmiş və gələcək əməkdaşlığa dair təkliflər hazırlamışdır. Həmin gün "HZ+P" şirkətinin mühəndisləri ilə tikinti texnologiyalarının daha da təkmilləşdirilməsi yönündə bir sıra müzakirələr də aparılmışdır.

Həmçinin "Avesta" Konserninin meqa layihəsi "Khazar Islands"la bağlı Küveytdə mətbuat konfransı da keçirilmişdir.

❑ **"Avesta" Konserninin mətbuat xidməti**

# Göyçayda bələdiyyə sədri intihar etdi

## Hüquq müdafiəçisi Vidadi İsgəndərli icra başçısının mərhum Mahmud Şıxməmmədova təzyiq etdiyini deyir; müstəntiqdən heyrətamiz açıqlama: "Ona ağır maddə ilə cinayət işi açılıb və bu səbəbdən də intihar edib"

**Göyçay rayon Qarabaqqal, Çayarxı və Hacalıkənd bələdiyyəsinin sədri Mahmud Şıxməmmədov sentyabrın 22-də intihar edib.**




Qaynar.info-nun yaydığı məlumata görə, bələdiyyə sədri ölümündən 1 gün əvvəl istintaqa çağırılıb. Bundan sonra bələdiyyə sədri kredit götürmək üçün bir neçə banka müraciət edib, lakin kredit götürə bilməyib. Göyçaydakı mənbənin bildirdiyinə görə, ondan külli miqdarda pulun tələb olunduğu iddia edilir. Bu məbləğin hətta 30-50 min manat civarında olduğu deyilir. Mərhumun qardaşı oğlu Rahib Şıxməmmədov isə bildirib ki, yas mərasimindədirlər və hadisə ilə bağlı ətraflı məlumat verəcəklər: "Müxtəlif versiyalar var. Dəqiq məlumatları sizə çatdıracağıq. İndi hüzür mərasimidir və başımız qarışıb".

**Məsələ ilə bağlı Göyçay Rayon Prokurorluğunun böyük müstəntiqi Emin Qurbanov bildirib ki, bir müddət öncə rayon prokurorluğu tərəfindən bələdiyyə sədrinə Cinayət Məcəlləsinin 178-ci maddəsi (dələduzluq) ilə cinayət işi başlanıb:** "İstintaq materialları toplanaraq rayon polis şöbəsinin istintaq şöbəsinə göndərilib. Cinayət işi ilə bağlı polis şöbəsi ilə əlaqə saxlamaq lazımdır. Dələduzluqla bağlı işə istintaq şöbəsi baxır. İş isə istintaq şöbəsinin müstəntiqi Saleh Muştaqovdadır. Bələdiyyə sədrinin intihar etməsinə gəlincə, hadisənin səbəbləri tərəfimizdən araşdırılır. Hələ ki Mahmud Şıxməmmədovun hansı səbəbdən intihar etməsi bəlli deyil".

**İstintaq şöbəsinin müstəntiqi Saleh Muştaqov isə qaynar.info-ya bildirib ki, bələdiyyə sədrindən pul tələb olunması ilə bağlı yayılan məlumatlar əsassızdır:** "Ona ağır maddə ilə cinayət işi açılıb və bu səbəbdən də intihar edib. İş Baş Prokurorluğun nəzarətindədir. Ondan rüşvət istənilməsi ilə bağlı iddialar əsassızdır. Onun barəsində ağır maddə ilə - Azərbaycan Respublikası CM-in 178.3.2 (külli miqdarda ziyan vurmaqla törədildikdə) maddəsi ilə cinayət işi başlanılmışdı. Cinayət işi rayon prokurorluğunda bu ayın 20-də başlanıb və polis şöbəsinə göndərilib. Onun intihar etməsi də bununla bağlıdır, çünki üstündə ağır maddə var idi".

Maraqlıdır ki, müstəntiq Saleh Muştaqov bələdiyyə sədrinin intiharına əsas səbəb kimi ona cinayət işi başlanmasını deməkdən çəkinmir. Bu əməl isə Cinayət Məcəlləsinin 125- ci - özünü öldürmə həddinə çatdırma - maddəsinə tövsif olunmalıdır. Bəs prokurorluq bu hal üzrə hansı addımları atacaq?

**Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov müvafiq sorğumuzu belə cavablandırdı:** "Faktla bağlı Göyçay Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb. İş üzrə müvafiq ekspertiza təyin edilib, ölümün səbəbləri istintaq yolu ilə araşdırılacaq".

**İntiharı hüquq müdafiəçisi Vidadi İsgəndərli də müstəqil şəkildə araşdıracaq. Bununla bağlı "Yeni Müsavat"ın suallarını cavablandıran hüquq müdafiəçisi deyib ki, artıq müəyyən məlumatlar əldə edib:** "Əldə etdiyim məlumata görə, mərhum Mahmud Şıxməmmədov intihardan əvvəl məktub yazıb. O, məktubunda icra başçısı Mansur Məmmədovun onu qanunsuz torpaq satmaqda ittiham etməsini, buna görə ondan 30 min manat rüşvət istənilməsini yazıb. Qeyd edib ki, həmin pulu icra başçısına vermədiyinə görə onunla bağlı hüquq-mühafizə orqanlarına şikayət olunub. Mən Göyçaya gedib məsələni ətraflı araşdıracağam. Bilirsiniz ki, Göyçay nəqliyyat naziri Ziya Məmmədovun kurasiyasındadır, rayonun icra başçısı Mansur Məmmədov da onun əmisi oğludur. Ona görə də Mansur Məmmədov nazir əmioğlusuna güvənib istədiyini edir".

**V.İsgəndərli araşdırmalarının nəticəsi haqda mətbuata əlavə məlumatlar verəcəyini də söylədi.**

❑ **E.MƏMMƏDƏLİYEV**


Pənah Hüseyn

# "Onu Rəsul Quliyev Elçibəydən xahiş etmişdi..."

## Pənah Hüseyn Natiq Əliyevin cavabını verdi: "Bu, bir nazir üçün səviyyəsizlikdir"

**Energetika naziri Natiq Əliyev "Azərbaycan" qəzetində yazdığı məqaləsində AXC hökuməti ilə bağlı şok açıqlama verib. O yazıb ki, ARDNŞ rəhbəri təyin olunandan sonra bütün xarici neft şirkətlərinin rəhbərlərini bir yerə toplayıb Ali Sovetdə iclas keçirib: "Səbəb ondan ibarət idi ki, həmin vaxta kimi 1992-ci ildən başlayaraq əvvəlki hakimiyyət dövründə qeyd olunan məsələ ilə bağlı BP şirkəti ilə ölkəmiz üçün əsla qəbul olunmayan, milli maraqları təmin etməyən səviyyədə danışıqlar gedirdi.**

"Azəri", "Çıraq" yataqları, "Günəşli"nin dərinlikdə yerləşən hissəsi haqqında müqavilə bağlamaq niyyətində idilər. həttа "Şahdəniz" qaz layihəsi ilə bağlı eksklüziv danışıqlar aparılması üçün BP şirkətinə səlahiyyət verilmişdi. Bunun da müqabilində Xalq Cəbhəsinin funksionerləri demokratiyanın inkişafına yardım adı altında 10 milyon ABŞ dolları həcmində bonus almışdılar. İclasda mən birmənalı şəkildə ulu öndər Heydər Əliyevin adından bəyan etdim ki, bu günə kimi olan danışıqlar bütünlüklə kəsilir! Təxminən bir-iki ay danışıqların nəticələrini təhlil etdikdən sonra yeni konsepsiya hazırlayıb danışıqlara gedəcəyik. Beləliklə də qeyd olunan müddətdə Azərbaycanın maraqlarının tam şəkildə ifadə olunduğu konsepsiya hazırlanaraq ulu öndər Heydər Əliyevə təqdim olundu. Həmin konsepsiyada xarici şirkətlərlə hansı prinsiplər əsasında işləməyin mümkünlüyü öz əksini tapdı. Bunun da əsasında 1994-cü ilin fevralın 4-də qeyd olunan məsələ ilə bağlı ulu öndər Heydər Əliyev tərəfindən sərəncam imzalandı".

**AXC iqtidarında dövlət katibi və baş nazir vəzifələrində olan Pənah Hüseyn nazir Natiq Əliyevə cavab verib. "Ümumiyyətlə, neft müqavilələrindən danışarkən AXC funksionerləri ifadəsini işlətmək bir nazir üçün səviyyəsizlikdir", - deyə P.Hüseyn musavat.com-a açıqlamasında vurğulayıb. O, nazirin dediklərini cəfəng və mənasız fikirlər hesab etdiyini deyib:** "Guya Natiq Əliyev bu iqtidarın komandasında texnokartlardan sayılır. Gör nə vəziyyətə düşüb ki, hətta birbaşa daxili siyasətə aidiyyəti olmayan bir şəxs də bu hadisə ilə əlaqədar YAP-ın bölmə müdirləri səviyyəsində cəfəng ifadələr işlədir. Böhtan xarakterli məsələlərlə özünü də, bütün Azərbaycanı da biabır edir".

**P.Hüseynin sözlərinə görə, neft müqavilələri ilə bağlı danışıqlar AXC hakimiyyətindən əvvəl başlanıb:** "Əvvəla, bu neft müqavilələrinin ətrafındakı danışıqlar hələ AXC hakimiyyətindən əvvəl başlamışdı və Ayaz Mütəllibovun dövründə ilkin danışıqlar olub. Elçibəy hakimiyyətə gəldikdən sonra yeni tender elan olundu. Məhz bir şirkətlə yox, konsorsiumun yaradılması ilə bu müqavilələr konsorsiumla imzalanmağa başladı. Sonda da beynəlxalq neft şirkətinin yaradılması başa çatdı. Yeri gəlmişkən, Elçibəy hakimiyyəti dövründə birbaşa olaraq ARDNŞ- SOCAR yaradıldı.

Yalnız prezidentə ümumi şəkildə tabe olundu, dövlətin yüz faiz nəzarət etdiyi bir şirkət olaraq yaradıldı və Azərbaycan dövləti adından danışıqlar səlahiyyəti SOCAR-a verildi. Həmin danışıqlar birbaşa, demək olar ki, heç bir siyasi hakimiyyətə daxil olan şəxslər tərəfindən yox, Azərbaycanın o dövrdəki mütəxəssisləri, ekspertləri tərəfindən aparılırdı, müqavilələr üzərində iş gedirdi. Və əlbəttə ki, mütəmadi olaraq siyasi rəhbərlik, ölkənin prezidenti bu danışıqların gedişi ilə maraqlanırdı, məlumatlandırılırdı. Artıq 1993-cü ilin yayında, iyun ayında konsorsiumla müqavilənin demək olar ki, hazırlanması başa çatmışdı və 93-cü ilin iyulun əvvəllərində həmin müqavilənin imzalanması nəzərdə tutulurdu. Müqavilədə konsorsiumun operatoru kimi artıq BP çıxış edirdi. Yeri gəlmişkən, sonrakı, 94-cü ildə imzalanan müqavilənin də operatoru qismində BP şirkəti çıxış edirdi. Deməli, vəziyyət bundan ibarət idi ki, o vaxt Rusiya şirkətləri prosesdə iştirak etmirdi; o cümlədən hələ İran tərəfi də bu müqaviləyə daxil olmamışdı. Azərbaycanın ümumi payı isə 70 faiz idi və bu, sonrakı müqavilədən təxminən 30 faiz çox idi. Amma bu müqavilə imzalanmadı, təsdiq olunmadı və müzakirələrin gedişindən xatırlayıram ki, bir sıra məsələlərdə hətta xarici neft şirkətlərindən aldığı, əldə edəcəyi mənfəət payının bir hissəsini Azərbaycanda sərf edəcəyi, Azərbaycanda dövlət sektoruna həmin pulların mənfəətindən investisiya yatırılması barədə cavab öz əksini tapmışdı. Odur ki, guya on milyon dollar əvəzinə hansısa şirkətə xüsusi səlahiyyətlərin verilməsi barədə danışmaq,- bir daha deyirəm ki, bu, ancaq formalaşmış belə bir mənəvi siyasi bir ənənədən irəli gələn məsələdir ki, bir dövləti on milyon naminə guya hansısa bir müqavilədə hansısa bir şirkətə xüsusi bir şans verilməsi barədə günahlandırasan. Bir daha deyirəm ki, bu, sadəcə olaraq, mənəviyyatsızlıqdır".

**P.Hüseyn N.Əliyevin məqaləsində göstərilən bonus məsələsinə də aydınlıq gətirib:** "Bonus məsələsinə gəldikdə isə, hökumətlərarası danışıqlarda bir qayda olaraq belə bonuslar nəzərdə tutulur. Ancaq bu, hökumətin hesabına köçürülən vəsaitlərdir. Bunun hər hansı bir şəkildə hansısa birbaşa məsələ ilə bağlanması bir daha təkrar edirəm, ancaq avam adamlar üçün nəzərdə tutulmuş ucuz təbliğatdır. Fakt ondan ibarətdir ki, məhz həmin müqavilələrin hazırlanması və imzalanması 1993-cü il qiyamının əsas səbəblərindən biri idi. Qiyamdan sonra ilk nəticə ondan ibarət oldu ki, əsas etibarı ilə Rusiyanın təzyiqi altında bu danışıqların nəticələri ləğv edildi və təxminən bu müqavilələrin imzalanması bir ildən çox ləngidildi. İndi ortalığa qoyub həmin müqavilə layihəsini, o layihə ilə sonradan imzalanmış layihələri müqayisə etsinlər. Onun hansının Azərbaycanın milli maraqlarına daha çox uyğun olub- olmadığına dair sənədli, əsaslı bir dəlil irəli sürsünlər. Yoxsa o vaxt ölkədə, bölgədə vəziyyət Azərbaycanın zərərinə dəyişmişdi, məlum hadisələr üzündən. Ona görə də məhz bu baş verən dəyişikliklər nəticəsində müqavilənin şərtləri Azərbaycanın zərərinə dəyişdirildi, payı aşağı salındı, aparıcı idarəedici məsələlərdə ARDNŞ-in şəxsində ölkə ikinci plana keçdi. Ona görə də bu, yaranmış ümumi siyasi vəziyyətə görə idi, təzyiq imkanları çoxalmışdı və bu baxımdan da bu cür geriləmələr müqavilədə olmuşdu. Mən çox ayıb olsun deyirəm Natiq Əliyevə ki, üstündən iyirmi neçə il keçəndən sonra belə səviyyəsiz bir şəkildə bu böyük hadisələri gündəmə gətirir".

**Biz sabiq baş nazirdən soruşduq ki, Natiq Əliyevi tanıyırdımı və o zaman bu persona hansı vəzifədə işləyirdi? P. Hüseyn dedi:** "Heç bu adamın həmin dövrdə hansı vəzifədə işləməsini mən xatırlamıram, şəxsən tanımamışam. Amma Rəsul Quliyev dəfələrlə prezidentdən, Əbülfəz Elçibəydən təkidlə xahiş edirdi ki, o, neftlə bağlı işlərə cəlb edilsin. Hətta Nazirlər Kabinetində 1993-cü ildə onun şöbə müdirliyinə təqdimatını vermişdi. Lakin şəxsi xarakteri, keyfiyyətləri ilə bağlı onun məsələsi nə isə düyünə düşdü. İndi də boş-boş, mənasız danışır".

❑ Röya RƏFİYEVA

# Müxalifət AŞ PA prezidentinin səfərindən heç nə gözləmir


Ann Brasör

## Düşərgə təmsilçilərinə görə, təşkilat Azərbaycandakı siyasi hadisələrə təsir etmək imkanını əldən verib...

**Avropa Şurası Parlament Assambleyasının (AŞPA) sədri Ann Brasör Azərbaycana səfər edib. Səfər çərçivəsində o, bir çox dövlət rəsmiləri, müxalifət liderləri və QHT nümayəndələri ilə görüşlər keçirib.**

**"Turan" İnformasiya Agentliyinin rəhbəri Mehman Əliyev** bu görüşlərin nəyisə dəyişəcəyinə inanmadığını bildirir: "Bu məsələlər görüşlərdən asılı deyil. Bunlar ənənəvi görüşlər və söhbətlərdir. AŞ PA ilə hökumət arasında olan razılıqlar və sövdələşmələr isə başqa bir məsələdir. Məncə, müəyyən yumşalma olacaq. Məndə olan məlumata görə, noyabr ayında qrantların elektron qeydiyyatına başlanacaq. Bununla əlaqədar hansısa yumşalma olacaq, əsasən də gələn ilin yanvar ayında müəyyən amnistiyalar gözlənilir, çünki həmin dövrdə hökumət ilin yekunlarına dair hesabat verəcək".

**YAP Siyasi Şurasının üzvü, deputat Aydın Mirzəzadə isə bu səfərin ölkəmizlə AŞ PA arasında əlaqələrin möhkəmlənməsində mühüm rol oynayacağını düşünür:** "Azərbaycanda hüquq sisteminin Avropa Şurasının tələblərinə uyğunlaşdırılması üçün xeyli işlər aparılıb. Təşkilatla Azərbaycan arasında çox sıx əlaqələr var. AŞ PA Azərbaycana dəfələrlə səfərlər həyata keçirib və bu səfər də təşkilatla ölkəmiz arasında əlaqələrin möhkəmlənməsinə, hər iki tərəf üçün maraqlı olan mövzuların müzakirəsinə şərait yaradacaq".

**Bəzi QHT rəhbərlərinin həbsinə gəlincə, deputat bildirdi ki, AŞ PA prezidentinin Azərbaycanda keçirdiyi görüşlərə heç bir məhdudiyyət qoyulmamasının özü göstərir ki, Azərbaycan demokratik ölkədir və AŞ PA nümayəndələri istədiyi şəxslərlə görüşə bilərlər:** "Azərbaycan müxalifətinin, müxalifyönlü insan hüquqları müdafiə təşkilatlarının rəhbərlərinin tənqidi çıxış etməsi də normal haldır, yəni onlar müxalif mövqedədirlər, hakimiyyətin siyasəti ilə razılaşmırlar və ölkədə şərait yaradılıb ki, öz mövqelərində qalsınlar. Bir neçə nəfərin həbsi ilə bağlı Avropa Şurasına səfərə qədər də məlumat verilmişdi və AŞ PA prezidentini maraqlandıracaq əlavə məlumatlar da veriləcək. Bu şəxslər siyasi fəaliyyətlərinə görə deyil, Azərbaycan əleyhinə casusluğa görə, fəaliyyətlərində qanunvericiliyi kobud şəkildə pozduqlarına görə saxlanılıblar".

**Neftçilərin Hüquqlarını Müdafiə Təşkilatı İctimai Birliyinin rəhbəri Mirvari Qəhrəmanlı da görüşlərdən kəskin bir dönüş gözləmir:** "Təbii ki, öncə bəyanatlar veriləcək. Sivil yolla ölkəyə xatırlatmaq istəyəcəklər ki, insan hüquqlarına hörmətlə yanaşmaq lazımdır. İkincisi, verilən bəyanatların müzakirələri keçirilə bilər və daha kəskin tələblər qoyular. Üçüncüsü isə sanksiya tətbiq edilə bilər. Mən düşünürəm ki, əgər proses daha da kəskinləşsə, vətəndaş cəmiyyətinə basqılar artsa, ölkədə insan haqlarına qarşı ədalətsizlik davam etsə, buna cavabdeh olan qurumlara yəqin ki, sanksiya tətbiq olunacaq".

**ADP sədri Sərdar Cəlaloğlunun fikrincə, AŞ PA-nın Azərbaycandakı siyasi hadisələrə təsir etmək imkanı yoxdur:** "AŞ PA bu imkanı əldən buraxıb. Azərbaycan AŞ PA qarşısında götürdüyü heç bir öhdəliyi yerinə yetirmir və birmənalı şəkildə yerinə yetirməkdən imtina edir. Bu səbəbdən mən bu səfərlərdən heç nə gözləmirəm. AŞ PA prezidentinin səfərinin demokratik proseslərə müsbət təsirindən söhbət gedə bilməz, ancaq mənfi təsiri gözlənilir".

**Politoloq Zəfər Quliyev də əvvəlki illərin təcrübəsinə əsaslanaraq deyir ki, bu səfərlərə o qədər də güvənmək lazım deyil:** "AŞ PA prezidenti Azərbaycanda ilk növbədə ölkədə insan haqları ilə bağlı problemlərlə tanış olmalı və onlara reaksiya verməlidir. Vətəndaş cəmiyyətinin, mətbuatın, müxalifətin nümayəndələri ilə görüşməli, son həbslərə münasibət bildirməlidir. Bəyanat verməli və ya dövlət rəsmiləri ilə görüşlərdə bu məsələləri qaldırmalıdır. Bütün bunlar təşkilat rəhbərinin missiyasına daxildir. Bu baxımdan səfəri tam faydasız da adlandırmaq olmaz. Azərbaycan hakimiyyəti bu beynəlxalq qurumların iş qaydasına artıq öyrəşib və təxminən bilir ki, nə zaman təhlükə ola bilər və nə zaman sıradan görüşlər keçirilir. Bu səfər də əvvəlkilərdən fərqli olmayacaq və konkret bir nəticə verməyəcək".

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 238 (5947) 24 sentyabr 2014

# “Taliban”ın azərbaycanlı “əmiri” tutuldu

**Dünyanın bir nömrəli təhlükəsi elan edilən və superdövlətlərin koalisiya yaradaraq hazırda qızğın müharibə apardıqları “İraq-Şam İslam Dövləti”-İŞİD-in Azərbaycandakı üzvləri həbs edilib.**

**MTN-in keçirdiyi şok əməliyyat nəticəsində ümumilikdə 26 nəfər həbs edilib ki, onlara təkcə silahlı birləşmələr yaratmaqda deyil, eləcə də onların fəaliyyətində iştirak etmə, silahla, partlayıcı maddələrlə, hətta hərbi texnika ilə təmin etmə kimi ağır ittihamlar verilib.**




# MTN-dən şok İŞİD əməliyyatı - təfsilat və yeni xəbərlər

## Həbs edilənlər sırasında “Təhriki Taliban” və “Seyfullah” kimi müxtəlif silahlı qruplaşmaların tərkibində döyüşənlər də var; atası 15 yaşlı oğlunu Suriyaya necə göndərib; hüquq-mühafizə orqanlarına tapşırılıb ki, Avropa Oyunlarınadək radikal dini qruplarla yaxınlığı olanların “əl-ayağı” yığışdırılsın



Öncədən qeyd edək ki, əməliyyat nəticəsində ələ keçənlər təkcə İŞİD-in deyil, “Təhriki Taliban” və “Seyfullah” kimi müxtəlif silahlı qruplaşmaların tərkibində döyüşənlərdir.

Təsadüfi deyil ki, həbs edilən dəstənin əsas üzvləri-Firdovsi Yusifov və Taleh Soltanov Pakistan İslam Respublikasının ərazisində radikal islamçı silahlı birləşmələrin tərkibində uzun müddət döyüşüblər.

Belə ki, F.Yusifov 2011-ci ilin ortalarında İran İslam Respublikasına gedərək, qanunsuz yolla Pakistanın Vəziristan vilayətinə keçib və orada “Təhriki Taliban” adlı qanunsuz silahlı birləşmənin tabeliyindəki “Tayfatul Mansura” adlı silahlı dəstənin “əmiri” təyin edilib. F.Yusifov həmin silahlı dəstənin tərkibində 2013-cü ilin avqustunadək fəaliyyət göstərib. T.Soltanov isə 2012-ci ilin sonlarında İrana gedərək, oradan qeyri-leqal yolla Pakistana keçmiş və o da “Təhriki Taliban”ın tabeliyindəki “Seyfullah” adlı silahlı dəstəyə qoşulub. T.Soltanov 2013-cü ilin avqustunadək “Seyfullah”ın tərkibində döyüşüb. O, yeni ailə həyatı qurduğu arvadını, həmçinin qayınanasını da özü ilə Pakistana aparıb.

***

F.Yusifov və T.Soltanov məhz Pakistanda tanış olublar. Onlar bir müddət sonra Pakistanı tərk edərək İŞİD-in tərkibində döyüşmək məqsədilə Suriyaya getməyə qərar veriblər. 2013-cü ilin avqustunda isə Pakistanı tərk edərkən İran ərazisində saxlanılıblar. Belə məlum olur ki, onlar 8 ay İranda həbsdə olublar və bu ilin aprel ayının 24-də Azərbaycana təhvil veriliblər. T.Soltanovun arvadı və qayınanası isə Suriya ərazisində qanunsuz silahlı birləşmələrin köməkliyi ilə bu ölkəyə keçiblər. İranda həbsdə olduğu müddətdə T.Soltanovun Suriyada övladı olub və hazırda onun ailəsi qızğın döyüşlərin getdiyi ərazilərdə qalıb.

Həbs edilən digər şəxslərə gəlincə, Vilayət Həsənli, Malik Musayev, Vasif Hacıyev, İlkin Babazadə, Mehman Balakişiyev, Ruslan Mustafayev, Namiq Məmmədov, Fərid Muradov, Tural Həsənov, Elvin Əliyev, Tariyel Mustafayev, Azər Qəmbərov, Vüsal Bayramov, Samir Həşimov, Nicat Abbasov, Hüseyn Məmmədov, Ruslan Cəfərov, Sənan Baxışov, Eldost Quliyev, Məmmədşah Məmmədəliyev, Əhməd Həsənov, Maarif Mərdanov və Elşən Qurbanlı 2013-cü ildən 2014-cü ilin müxtəlif aylarınadək Suriyadakı radikal silahlı birləşmələrin tərkibində döyüşlərdə iştirak ediblər.

MTN-in əməliyyatı zamanı həbs edilən, döyüş əməliyyatlarında birbaşa iştirakı olmayan Vüqar Dursunəliyevlə bağlı da maraqlı məqamlar ortaya çıxıb. Belə məlum olur ki, V. Dursunəliyev yetkinlik yaşına çatmayan oğlu, 1998-ci il təvəllüdlü Elvin Dursunəliyevi Suriyadakı radikal silahlı birləşmələrin tərkibində döyüşməyə həvəsləndirib. O, Elvini həmin silahlı birləşmələrin tərkibinə qoşulmaq üçün bütün nəqliyyat xərclərini ödəməklə Suriyaya göndərib. 15 yaşlı Elvin Dursunəliyev də 2013-cü ilin dekabr ayından 2014-cü ilin aprel ayınadək Suriya ərazisindəki döyüşlərdə iştirak edib.

Həbs edilən Elşən Qurbanlı qeyriləri ilə birlikdə Suriya və İraq ərazilərində qanunsuz silahlı birləşmələrə qoşulmaq məqsədilə 2014-cü ilin may ayında Türkiyəyə, oradan isə “Əbu-Bəkr” ləqəbli şəxsin vasitəsilə qanunsuz yolla Suriyaya gedib. Elşən Qurbanlı İŞİD-in özünün paytaxtı elan etdiyi Suriyanın Raqqa şəhərində radikal dini və hərbi təlimlərdə iştirak edib. Təlimlər bitdikdən sonra E.Qurbanlı öz istəyi ilə şəxsiyyəti istintaqla araşdırılan “Xattab” ləqəbli “əmir”in rəhbərlik etdiyi “Azəri camaatı” adlı qanunsuz silahlı dəstənin tərkibinə daxil olub. Bundan sonra E.Qurbanlı və digərləri İŞİD-in tərkibində 2014-cü ilin avqust ayında İraqın Anbar vilayətinin Hədisə şəhəri ətrafındakı hərbi əməliyyatlarda iştirak ediblər. Silahlı dəstə hücum planlaşdırarkən baş vermiş partlayış nəticəsində 35 nəfər ölüb, E.Qurbanlı isə yaralanaraq Suriya ərazisinə qayıdıb.

Faktla bağlı MTN-in İstintaq Baş İdarəsində Cinayət Məcəlləsinin 12.1, 279.1-ci və 170.3-cü maddələri ilə cinayət işləri başlanıb. Adları qeyd edilənlər təqsirləndirilən şəxs qismində cəlb olunaraq məhkəmənin qərarları ilə barələrində həbs-qətimkan tədbiri seçilib.

Cinayət işləri üzrə bütün halların araşdırılması, bu hüquqazidd əməllərin digər iştirakçılarının müəyyənləşdirilməsi istiqamətində istintaq-əməliyyat tədbirləri davam etdirilir.

***

Suriyada Bəşər Əsəd rejiminə qarşı müharibə başlayandan bəri yüzlərlə Azərbaycan vətəndaşının bu ölkədə “cihad” adı ilə axıdılan qanlı döyüşlərdə iştirakı təkzibedilməz faktlarla sübuta yetirilib. Azərbaycan hakimiyyəti bu təhlükəli prosesi nəzarətdə saxlasa da, ölkədən qanunsuz yollarla çıxan və döyüş bölgələrinə gedən gənclərin qarşısını kəsməkdə hələ ki mümkünsüz görünür. Qeyri-rəsmi məlumatlara görə, təkcə İŞİD-in deyil, digər radikal qruplaşmaları tərkibində indi minlərlə avropalı döyüşçü var. Suriyadakı savaş radikal-dini əhval-ruhiyyəli gənclər üçün çox “cəlbedici oldu” və Azərbaycandan da bu tora düşənlərin sayı yetərincədir. Bu cür gənclərin döyüşlərdə həlak olması bir faciədirsə, onların sırasında olanların geri qayıtması və radikal baxışlarını burada da yayması Azərbaycana birbaşa təhlükədir. Dünyanın yeni bəlası olan İŞİD-in tez-tez Azərbaycanı da təhdid edən bəyanatlar verməsi bu təhlükənin ciddiliyindən xəbər verir.

Təsadüfi deyil ki, uzun müddətdir xüsusilə paytaxt Bakıda radikal dini baxışları ilə seçilən sələfilərin ibadət mərkəzləri nəzarət altına götürülüb. Çünki İŞİD-ə qoşulan radikal dinçilər əsasən bu cərəyana mənsub olanlardır. İŞİD-in əsas qüvvələri də vəhhabilərdi.

Şübhəsiz, təhlükəsizlik tədbirlərinin artırılması İŞİD terrorçu təşkilatı rəhbərliyinin verdiyi hədələyici bəyanatlarda Azərbaycanın da hədəf göstərilməsi ilə birbaşa əlaqəlidir.

Bu yaxınlarda ABŞ-ın beyin mərkəzlərindən hesab edilən, daha çox kəşfiyyat məlumatlarına istinadən hesabatlar hazırlayan “Stratfor” İŞİD-lə bağlı təhlil yazısında silahlı qruplaşmanın tərkibində azərbaycanlıların da olduğunu xatırladaraq, bu faktorun təkcə ölkəmiz üçün deyil, Qafqaz üçün gələcəkdə ciddi təhlükəyə çevrilə biləcəyini qeyd etmişdi.

Məlumatlara görə, Azərbaycanda İŞİD üzvlərinin təhlükə yaradacaq potensialı və gücü yoxdur. Amma aidiyyəti qurumların bu məsələlərlə daha ciddi məşğul olmasını vacib edən mühüm bir məqam da var. Söhbət 2015-ci ilin 12 iyununda başlayacaq birinci Avropa Oyunlarından gedir. 16 gün-iyunun 28-dək davam edəcək yarışda Avropanın 49 ölkəsindən 7-15 min arası idmançının iştirak edəcəyi gözlənilir. Bu möhtəşəm idman yarışının təhlükəsizliyi məsələsi hakimiyyəti indidən düşündürür. Xatırladaq ki, 2012-ci il mayında Bakı şəhərində təşkil olunmuş “Eurovision-2012" mahnı müsabiqəsi ərəfəsində həm paytaxtda, həm konsert zamanı terror aktı planlaşdıran qrup ələ keçmişdi. MTN bu iş üzrə üst-üstə 40 nəfəri həbs etmişdi. Onlar bir sıra səfirliklərdə, eləcə də mahnı müsabiqəsi zamanı terror aktlarını törətmək məqsədilə İranın xüsusi xidməti tərəfindən ələ alınmaqda ittiham olunublar.

Avropa Oyunları isə miqyasına görə “Eurovision”dan bir neçə dəfə böyük tədbirdir və şübhəsiz ki, ölkəmizi istəməyən qüvvələr-onların sırasında Ermənistanın xüsusi xidmət orqanlarını da var-fəallaşa bilərlər. Əldə etdiyimiz məlumata görə, hüquq-mühafizə orqanlarına tapşırılıb ki, may ayınadək Azərbaycanda radikal dini qruplarla yaxınlığı olan, vaxtilə İraq, Pakistan və Suriyada döyüşmüş bütün şəxslərin “ələ-ayağı” tam toparlansın”. “İtkin düşmüş”, “öldürülmüş” bütün adamların siyahısı tutulub, onlarla bağlı qonşu ölkələrə sorğu göndərilib və ailələri tam nəzarətə götürülüb. Bu proses xüsusilə ölkənin şimal bölgəsində daha ciddidir. Azərbaycanı gizli yolla tərk edib bir müddət müxtəlif bölgələrdə vuruşub qayıdandan sonra “Rusiyada idim” deyənlərlə bağlı da hərtərəfli araşdırmalar aparılır.

Azərbaycan hakimiyyətinin İranla münasibətlərində buzlaların əriməsi, rəsmi Tehranın İŞİD-lə mübarizədə fəal olduğunu nəzərə aldıqda bu təhlükəli silahlı birləşməyə qarşı gələcəkdə birgə əməkdaşlığın olması da mümkündür. İranın Pakistanla sərhəddə həbs edilən radikal qruplaşmanın iki üzvünü Azərbaycana təhvil verməsi bu əməkdaşlığın mümkün olduğuna işarədir.

***

Sonda qeyd edək ki, dini məzhəbləri yaymaq, dini ayinlərin icrası adı altında, yaxud dini düşmənçilik zəminində Azərbaycanın hüdudlarından kənarda aparılan silahlı münaqişələrə cəlb etmə, yaxud bu məqsədlə döyüş təlimləri keçmə, yaxud həmin məqsədlə fəaliyyət göstərən sabit qrup yaratma və ya belə qrupa rəhbərlik etmə, eləcə də həmin qruplarda, təlimlərdə və ya silahlı münaqişələrdə iştirak etmə hüquqazidd əməllərin törədilməsinə görə qanunvericiliklə müəyyən edilmiş cəza müddətləri artırılaraq 20 il və ya ömürlük azadlıqdan məhrumetmə cəzası müəyyən edilib.

❑ Xəbər xidməti

Yeni MÜSAVAT
N 328 (5947) 24 sentyabr 2014

# "Yeni başqan YAP-la əməkdaşlıq etmək istəyəcəksə, buyursun"

## **Siyavuş Novruzov:** "Onlar ermənilərdən kifayət qədər maliyyə alan və onların kəşfiyyat orqanlarına xidmət edən insanlardır"

**"İqtidar tribunası"**

**Avropa Parlamentinin Azərbaycanla bağlı qətnaməsinin ardınca AŞ PA-nın prezidenti Ann Brassörin Bakı səfəri başlayıb. Belə bir ərəfədə Azərbaycanla Avropa strukturları arasındakı münasibətlərə yenidən baxılmasının zəruriliyi barədə iqtidar partiyasından rəylər eşidilir. YAP-ın icra katibinin müavini, deputat Siyavuş Novruzov "Yeni Müsavat"a müsahibəsində əvvəlcə AŞ PA prezidentinin keçirdiyi görüşlər və gözləntilərdən danışdı.**

***- Siyavuş bəy, AŞ PA prezidenti Bakıda xeyli görüşlər keçirdi, iqtidarla kifayət qədər təmasları oldu. Qurum rəhbərinin budəfəki səfərindən nə gözləmək olar?***

- Bəli, çoxsaylı görüşlər keçirib. Azərbaycan prezidenti cənab İlham Əliyevlə görüşüb. Milli Məclisdə siyasi partiyaların nümayəndələri ilə görüşdü, mən də iştirak edirdim. QHT sektoru ilə AŞ PA-da olan bizim nümayəndə heyəti ilə görüşüb. O cümlədən Milli Məclisin sədri Oqtay Əsədovla görüşəcək. Bu görüşlərdə əsas məsələ Avropa-Azərbaycan münasibətləridir. Bu gün doğrudan da Azərbaycan ictimaiyyəti Avropanın bəzi qurumları tərəfindən ölkəmizə qarşı tətbiq olunan ədalətsiz qərarlara öz etirazını bildirir. Bizim görüşdə də siyasi partiya nümayəndələri məsələ qaldırdılar ki, Avropa Parlamenti ilə münasibətlərə yenidən baxılmalı, "Avronest"dən, ümumiyyətlə, çıxılmalıdır.

***- Deyəsən, bunu ilk dəfə siz təklif etmişdiniz...***

- Bəli. Çünki "Avronest" yaradılmışdı ki, Avropa - Azərbaycan münasibətlərinin qarşılıqlı olaraq nizamlanması və ölkəmizin Avropaya inteqrasiya prosesində yardımçı olsun. Amma son vaxtlar biz Avropaya nə qədər inteqrasiya ediriksə, o qədər də bizə qarşı kəskin qərarlar çıxarılır. Təbii ki, bu qərarların arxasında erməni lobbisi dayanıb. Misal göstərə bilərəm. Avropa Parlamenti may ayında formalaşıb, ondan sonra tətilə çıxıb və ilk iclasındaca Azərbaycana qarşı ədalətsiz qərar qəbul edib. Bayaq da bu barədə danışırdıq. Avropanın hansısa qurumunun rəhbəri, yaxud parlamentariləri Azərbaycanın haqq işini dəstəkləməyə başlayan kimi həm Azərbaycanın daxilində olan müəyyən siyasi partiyalar və QHT sektoru başlayır ki, "kürü diplomatiyası" və erməni dəyirmanına su tökərək ermənilərə bilavasitə dəstavüz verir. Məsələn, Azərbaycanda NATO Baş Assambleyasının seminarı keçiriləndə ermənilər bizim mənbələrə, həmin leyla yunuslara istinad edərək dedilər ki, Azərbaycanın kürü diplomatiyasının fəaliyyəti Ermənistana təsir etməyə yönəlib. Yəni Azərbaycan iş aparır, amma əfsuslar olsun ki, sapı özümüzdən olan baltalar bu işi tamam başqa istiqamətə yönəldir. Dünyada lobbiçilik normal haldır, Amerikada bu, rəsmiləşmiş qaydadır.

***- Sözünüzdən belə çıxır ki, Azərbaycan kürüsünün adı çıxıb...***

- Azərbaycan kürüsünün adı çıxıb və olan deputat da geri çəkilir. Məsələn, Moldova ombudsmanı Azərbaycanın haqq işini Ermənistan paytaxtında qaldırdı, iki gün də onu ev dustağı etdilər. Azərbaycan onunla kifayət qədər iş aparmışdı və o da bizim haqq işimizi dəstəkləyirdi. Ermənilər onun başına hansı oyunları açdılar? Hər hansı bir avropalı deputat Azərbaycanın haqq işini, maraqlarını dəstəkləyirsə, həm daxildəki ermənilər, həm xaricdə oturan ermənilər hərəkətə keçir. Onların kifayət qədər kanalları var, Avropa qurumlarının hansına baxsanız, onların mühasibatlığında, katibliyində bir neçə erməninin çalışdığını görərik. Mən sizə siyahı da təqdim edə bilərəm. Onların kifayət qədər təsir etmək imkanları var.

***- Azərbaycanda kifayət qədər sərvətlərə malikdir və təsir rıçaqlarından istifadə edə bilər. Siz Avropaya vaxtaşırı səfər edirsiniz, Avropaya kürü daşınması iddiaları barədə nə deyə bilərsiniz?***

- Elə şey yoxdur. Sadəcə olaraq, görüşüb söhbətlər aparırıq. Rəhmətlik Turqut Özalın bir sözü vardı, deyirdi, Türkiyə xoşbəxtdir ki, onun nefti yoxdur. Yəni neft-qazı olsaydı, Türkiyəyə təpkilər daha çox olardı. Yəni bir tərəf razı qalanda o biri tərəf mütləq narazı qalmalıdır. Bu mənada Azərbaycanın təbii sərvətlərinə göz dikən, bu sərvətlərdən güzəştli istifadə etmək istəyən dövlətlər, təşkilatlar var. Bundan da istifadə edərək öz parlamentariləri vasitəsilə Azərbaycana təzyiq göstərirlər. Bunlar bizə bəllidir, ancaq belə hallar bizi öz yolumuzdan döndərə bilməyəcək.

***- Belə nəticəyə gəlmək olarmı ki, Avropa Parlamentinin son qətnaməsinə kürü yeməyən deputatlar səs verib?***

- Əslində biz o deputatları da araşdırdıq. Həmin 46 deputat bilavasitə erməni lobbisinin təsiri altında işləyənlərdir. Məsələn, 110 deputatdan çox "Azərbaycanın dostları" qrupu var. Avropa Parlamentində belədir ki, qərarın qəbul olunması üçün iştirakçıların sadə səs çoxluğu kifayət edir.

***- Görünən budur ki, Bakı tövsiyələrdən imtina yolunu seçib. Rusiyanın taleyi göz önündə ikən bu siyasəti təhlükəli hesab etmirsiniz ki?***

**"O sualı Sərdar Cəlaloğluna ver ki, 20 ildə 20 dəfə siyasi oriyentasiyasını dəyişən, 20 yola xidmət edən, 20 dəfə əqidəsini dəyişmiş bir adamdan Azərbaycan cəmiyyəti hansı təklifi gözləsin?"**

- Bunlar fərqli məsələlərdir. Rusiyanı bütün qurumlarda səsvermə hüququndan məhrum edirlər, mandatına toxunmayıblar. Əsas gətirirlər ki, Rusiya Ukrayna ərazisini işğal edib. Ermənistana isə bu məhdudiyyətlər yoxdur. Artıq bunların ikili standartlarla yanaşması göz önündədir. Digər tərəfdən, Ermənistanla, elə bizə qardaş olan Gürcüstanla bağlı insan hüquqlarının vəziyyətinə dair heç bir qərar yoxdur. Gürcüstanda 99 nəfər keçmiş nazirindən tutmuş baş nazirinə, prezidentinə qədər şəxs haqqında cinayət işi qaldırılıb, yaxud həbsdədir. Bütün Avropanın demokratik prezident dediyi Saakaşvili İnterpolun axtarışına verilib. Bununla bağlı bir qərar yoxdur. Amma Azərbaycanda erməni kəşfiyyatına işləyən və bu, "sübutalnı", "dokumentalnı" sübut olunan adamların hüquqları ilə bağlı Avropa Parlamenti qərar verir. Bu, nə qədər ədalətlidir? Ermənistanda prezident seçkilərində namizədlərin birini güllələdilər, ikili pasportla səs verdilər. Bunlar hamısı Avropa Şurasının gözü qarşısında oldu.

***- Azərbaycan hakimiyyəti ölkə daxilində müəyyən addımlara getsə, ermənilərin də əlində ciddi arqument qalmaz ki, ölkəmizə qarşı istifadə eləsin. Nədən bu bəhanələrə son qoyulmur?***

- Azərbaycan həmişə addım atıb. Bunlar Ələkrəm Hümmətovla bağlı da şərt qoymuşdu, getdi, Ermənistanda tədbirlər keçirtdi. Yaxud "vətənə xəyanət"ə görə məsuliyyətə cəlb olunan Rəhim Qazıyev, metro partladan şəxslərlə bağlı da şərt qoyulmuşdu, adını "siyasi məhbus" qoyurdular. Bunlar elə adamları seçir ki, Azərbaycan xalqında ikrah hissi yaradır.

***- Amma bu gün Qarabağ uğrunda döyüşmüş Tofiq Yaqublu həbsdədir...***

- Tofiq Yaqubludan sual olunurdu ki, sənin İsmayıllıda nə işin vardı? Həm onun telefon danışığı ilə sübut olundu ki, kimlərə nə göstəriş verib. Sübutsuz heç kim həbs olunmur. Eləyib. Amma gərək o həddə çatıb qanunu pozmayasan ki, cəza da almayasan. Tofiq Yaqubludan çox bu gün iqtidarı tənqid edən, söyən siyasi partiya rəhbərləri, müavinləri var. Əgər qeyri-qanuni iş görməyiblərsə, onlarla heç kəsin işi yoxdur.

***- Yəni bu payızda siyasi məhbuslarla bağlı ciddi addımlar gözlənilmir...***

- Əslində biz istəyirik ki, bu məhkəmələri açıq keçirdək. Qoy bütün mətbuat, səfirliklər gəlsinlər. Orda hansı faktların şahidi olacaqsınız, bunu görəcəksiniz. Mən detalları açmaq istəmirəm, bu, istintaqa təsir kimi qiymətləndirilə bilər. Amma qanında, canında qismən azərbaycanlı qanı olan adamı ordan hansı vəziyyətdə çıxacaq, bunun da şahidi olacaqsınız. Bunların hər biri ermənilərdən kifayət qədər maliyyə alan və onların kəşfiyyat orqanlarına xidmət edən insanlardır. Bunlar da məhkəmə vasitəsilə sübuta yetiriləcək, onların hansı əməlləri törətdiyi bəlli olacaq.

***- Əfv gözləntisi olanlara nə demək olar?***



**"Milli Məclisdən komitə sədri kimi və YAP-dan maaş alıram, kifayətdir"**

- Gərək bununla bağlı Əfv Komissiyasına müraciət olunsun. Komissiya buna baxıb təkliflərini hazırlayır. Azərbaycanda kifayət qədər əfv verilib və xeyli insan azadlığa çıxıb. Mən istərdim ki, o cavan uşaqların hər biri azadlığa çıxsın. Allah heç kəsin qapısını bağlamasın, heç kəs həbsdə olmasın. Amma hələ onların valideynləri bu gəncləri bu işə vadar edənlərin yaxasından tutub soruşmayıb ki, mənim oğlumu hansı yola gətirib salıbsan?!

***- Azərbaycan azad ölkədirsə, burda aksiyaların keçirilməsi də sərbəst olmalıdır, elə deyilmi?***

- Bunun üçün müvafiq yerlər ayrılıb, deyirlər kim aksiya keçirmək istəyirsə, gedib keçirsin. Sadəcə, aksiya keçirmək üçün sosial baza olmadığı üçün gəlib şəhərin elə bir yerində toplaşırlar ki, digərlərinin hüquqları pozulur.

***- Amma bir dəstə gənc çıxıb kitab oxumaq aksiyası keçirirsə, buna da imkan verilmir. Bu, məntiqlidirmi?***

- Müəyyən yerlərdə... Gənclər bununla əlaqədar Bakı Şəhər İcra Hakimiyyətinə müraciət etməlidir, onların təhlükəsizliyi təmin olunmalıdır.

***- Oturub kitab oxuyurlarsa, icazə nəyə gərək?***

- Oturub kitab oxusunlar. Amma kütləvi aksiyadırsa, qanunda göstərilib ki, mütləq xəbərdarlıq olunmalıdır.

***- Nəhayət, Müsavatın qurultayı ilə bağlı razılaşma əldə olundu. YAP-a dəvət gəlibmi?***

- Dəvət gəlməyib. Gəlsə, YAP rəhbərliyi tərəfindən baxılacaq, müvafiq qərar veriləcək. İndiyə qədər gətirilən arqumentlərin hamısı mənasız idi. YAP da qurultayını 780 nəfərlə Suraxanıda keçirmişdi. Yəni burda sayın mənası yoxdur. YAP-ın 640 minə yaxın üzvü var, Müsavatın üzvləri isə özlərinin dediyinə görə, 30 mindir. Yəni rayon konfransında nümayəndə iki yox, bir nəfər seçilsin. Hər kəs ayağını yorğanına görə uzatmalıdır. Ayaq yorğandan çıxanda üşüyür...

***- Müsavatın yeni başqanını təbrik etməyə hazırlaşırsınız?***

- O, Müsavatın daxili işidir. Biz buna qarışmırıq. Kim seçiləcəksə, müxalifət partiyasının nümayəndəsi kimi həmin gündən sonra Müsavat Partiyasına başqa bir adam rəhbərlik edəcək. Əgər istəsələr, biz əməkdaşlığa həmişə hazırıq. Yeni seçilmiş tərkib, yeni başqan iqtidar partiyası ilə əməkdaşlıq etmək istəyəcəksə, xub, buyursun.

***- Sərdar Cəlaloğlu "Siyavuş Novruzov, sən kimsən, toyu, ehsanı qadağan edəsən" soruşub...***

- Birincisi, Siyavuş Novruzov 15 ildir parlamentin üzvüdür. Konstitusiyanı yaxşı oxusa, görər ki, xalqın adından danışmaq səlahiyyəti Azərbaycan prezidentinə və Milli Məclisin üzvünə həvalə olunub. İkincisi, mən orda fikrimi bildirmişəm, bu da istənilən şəxsin hüququdur. O sualı Sərdar Cəlaloğluna ver ki, 20 ildə 20 dəfə siyasi oriyentasiyasını dəyişən, 20 yola xidmət edən, 20 dəfə əqidəsini dəyişmiş bir adamdan Azərbaycan cəmiyyəti hansı təklifi gözləsin?

***- Yas və toy qadağaları olacaqmı?***

- Qanunla yox. Biz deyirik ki, Azərbaycan ziyalıları, ictimaiyyəti, Milli Məclis üzvləri israfçılığa qarşı mübarizə aparsınlar. Yəni sözlə, fikirlə, ənənə ilə. Mən orda da demişəm ki, Naxçıvan modelində də qadağa yox idi. Sadəcə, hər bir insan bunu özü tətbiq etməklə ifratçılığın qarşısını aldı. Orda deyilmir ki, ehsan verme. Dindən xəbəri olan bilir ki, çayın, xurmanın özü də ehsandır. Kimsə atasına ehsan vermək istəyirsə, bir məsciddə elan verir, kimsəsizlər, yemək istəyənlər yığışıb ora gəlir, o da ehsanını verir. Amma dövlət vəzifəsi daşıyan, biznesmen olan şəxslərin qabağına gətirib nəyisə doldurmağın heç bir mənası yoxdur.

***- Həmkarınız Hadı Rəcəbli ilə deputat maaşı mövzusunda danışmışdıq. Siz necə, maaşınızdan gileyli deyilsiniz?***

- Xeyr, Milli Məclisdən komitə sədri kimi və YAP-dan maaş alıram, kifayətdir...

***- Bugünlərdə deyildi ki, Azərbaycana neftdən 100 milyarddan artıq vəsait gəlib, cəmi 38 milyardı qalıb. Bu barədə nə deyə bilərsiniz?***

- O, yalan informasiyadır. Azərbaycan qədər həm Neft Fondunun idarə olunmasında, həm neft gəlirlərinin düzgün istiqamətdə xərclənməsində şəffaf olan ölkə yoxdur. Bu vəsaitlər sosial sahəyə, məktəb, xəstəxana, parklara, yollara, istehsal müəssisələrinə, gənclərin təhsilinə yönəldilir...

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 238 (5947) 24 sentyabr 2014

# “Belə yaşamaq çətin olsa da vicdanımız təmizdir”

## Müsavatın Şəki təşkilatının sədrindən maraqlı fikirlər; **Həbibulla Manaflı:** “Arif Hacılı və Qubad İbadoğlu seçimi arasındayam”

**Şəki səfərimiz əsnasında Müsavat Partiyasının Şəki təşkilatının sədri, Azərbaycan Müəllimlər İnstitutunun Şəki filialının humanitar fənlər kafedrasının baş müəllimi Həbibulla Manaflı ilə də görüşdük. Qurultay öncəsi partiyadakı durum, namizədlərin şansları haqda H.Manaflının fikirlərini öyrəndik.**



*- Müsavatın qurultayına bir neçə gün qalır. Şəki təşkilatından neçə nəfər qurultay iştirakçısı var?*

- Şəki təşkilatından yeddi nəfər qurultay iştirakçısı seçilib. Onlar da seçki vasitəsilə müəyyən olunub. Fövqəladə bir hal baş verməsə yeddimiz də bir nəfər kimi iştirak etmək niyyətindəyik.

*- 7 nəfər qurultay üzvü arasında başqanlığa namizədlərdən kim daha çox səs üstünlüyünə sahibdir?*

- Müsavat rəhbərliyi ilə Şəki təşkilatı arasında sıx əlaqə var. Tez-tez gəlirlər. Orda baş verən proseslərə yaxından bələdik. Başqanlığa namizədlərin də böyük hissəsi buraya gəlib, söhbətlər aparmışıq. Bu yoldaşların böyük əksəriyyəti ilə 1989-cu ildən bir yerdəyik. Bu əqidə yoldaşlığı 20 ildən artıqdır ki, davam edir.

*- Belə başa düşmək olar ki, Arif Hacılı ilə Qubad İbadoğlunun sizlərdən səs alma şansları daha yüksəkdir?*

- Mən adətən demokratiyanın təməl prinsiplərinə riayət etmişəm. Heç kimə, heç vaxt təzyiq etməmişəm. Mənə də olan təzyiqləri qəbul etmirəm. Namizədlərin həyat tarixçələri, ömür yolları, Azərbaycanın istiqlalı yolunda gördükləri işlər hamısı nəzərdən keçirilib. Və hər birinin üstün cəhətləri müzakirə olunub. Beləliklə, sonda yoldaşlara müraciətimdə bildirmişəm ki, öz şüurunuza, məntiqinizə, dəyərləndirmənizə uyğun səs verin.

*- Bəs sizin namizədiniz kimdir?*

- Mən hələ qəti şəkildə seçimimi müəyyən etməmişəm. Qurultayda iştirak edərkən qurultayın gedişində edilən çıxışlara, mənəvi-psixoloji abı-havaya uyğun sonda aldığım təəssüratlar əsasında nəticə çıxaracam.

*- Amma iki seçim arasındasınız...*

- Bəli. Arif Hacılı və Qubad İbadoğlu. Arif Hacılı mənim lap çoxdan dostumdur. Mən yoldaşlara Qubad bəyin də üstün cəhətlərini, intellektini, beynəlxalq miqyasda tanınmasını, əlaqələrini demişəm. Eyni zamanda Arif Hacılı da intellektual baxımdan yüksək insandır. Həm də fədakardır.

*- Tural Abbaslının başqanlığa namizədliyini irəli sürməsini necə dəyərləndirirsiniz?*

- Tural fədakar müsavatçıdır. Mən də onu yaxından tanıyıram. Çox gözəl insandır. Mənəvi keyfiyyətləri yüksəkdir. Amma mövcud situasiyada Tural bəyin başqan seçilmə imkanları məhduddur.

*- İsa Qəmbər 22 ildir Müsavat başqanıdır. Onun bu postdan ayrılmasına necə yanaşırsınız?*

- İsa bəyi mən böyük müsavatçı hesab edirəm. O, Müsavat ideyalarının həyata keçməsi və yaşaması naminə çox böyük işlər görüb. İsa bəyi Məhəmməd Əmin Rəsulzadənin mənəvi varisi hesab edirəm. Həm də İsa bəyi mən təkcə əqidə yoldaşı kimi yox, həm də əziz, doğma qohum kimi sevirəm. Yadımdadır, İsa bəyin atası Yunis bəyin yasında da iştirak etmişəm. Anası da Şəkidəndir. Rəhmətlik Tahirə xanım Şirməmməd Hüseynovla bir sinifdə oxuyub.

*- Müxalifət partiyasının əyalət təşkilatına rəhbərlik etmək şübhəsiz ki, çətindir. Bu sizə hansı məhrumiyyətlər hesabına başa gəlib?*

- Çox çətindir. Mən çox qısa fasiləni çıxmaq şərtilə böyük çətinliklərlə üzləşmişəm. İstər mənəvi, istərsə maddi çox ağırlıqlar yaşamışam. Çox məhrumiyyətlər çəkmişik. Təxminən 17 dəfə həbs olunmuşam. 2000-ci il hadisələrində fiziki cəhətdən bizi az qala o dünyalıq etmişdilər. Neçə gün yataqdan qalxa bilməmişik.

*- Müsavata gəlməyinizin səbəbi nə olub?*

- Müsavatın Azərbaycan xalqının istiqlaliyyəti uğrunda mübarizənin önündə getməsi mənim bu partiyanı seçməyimə səbəb oldu. Xalq üçün azadlıqdan, istiqlaliyyətdən böyük nemət ola bilməz. Dünyada irili-xırdalı beş min xalq var. Bunların cəmi iki yüzünün dövləti var. Bunların sırasında biz də varıq. Bu nemeti isə xalqa Müsavat bəxş edib. İkinci qurultayda Nəsib bəy Yusifbəyli öz çıxışlarının birində tarixi ifadə işlədib: “Müstəqil Azərbaycan ideyası Müsavatındır demək, düz deyil. Bu ideya xalqındır. Amma bu ideya kül altında yatan köz kimi idi. Onu üfürüb, alovlandıran Müsavat oldu”.



MUSAVAT.COM

**“Vicdanın oyanması qəlbin əzəmətini göstərir. Ona görə də bilirəm ki, vicdanın əksinə addım atanda o, pələng kimi içəridən insanı didib-dağıdır”**

*- İki övladınız var. Onlar da Müsavatın üzvüdür?*

- Oğlum, bəli. Qızım isə yox. O, jurnalistdir. Ona görə də bitərəf olmalıdır.

**“Dünyada irili-xırdalı beş min xalq var. Bunların cəmi iki yüzünün dövləti var. Bunların sırasında biz də varıq. Bu neməti isə xalqa Müsavat bəxş edib”**

*- Özünüz həyatınızın necə keşməkeşli olduğunu bildirdiniz. Müsavatın üzvü olacağına görə oğlunuzun da bu məhrumiyyətlərlə üzləşəcəyi perspektivi sizi narahat etmir?*

- Mən onu bilirəm ki, biz düz yoldayıq. Düzdür, şəxsi mənada belə yaşamaq çətindir. Amma vicdanımız təmizdir. Vicdan bizim yol bələdçimizdir. Vicdanın oyanması qəlbin əzəmətini göstərir. Ona görə də bilirəm ki, vicdanın əksinə addım atanda o, pələng kimi içəridən insanı didib-dağıdır.

*- Universitet müəllimisiniz. İndiki gəncləri necə dəyərləndirir, xarakterizə edirsiniz?*

- İndiki gənclərin müsbət cəhətləri çoxdur. İşgüzardırlar, elmi-texniki yenilikləri mənimsəyiblər. Amma gəncliyi düzgün istiqamətə yönəltmək lazımdır. Çünki insan xeyli dərəcədə mühitin məhsuludur. Mühitə müqavimət göstərmək hissi yüz adamdan birində olur. Əksəriyyət mühitə uyğunlaşır, bu, təbii instinktdir. Ona görə də mühit təmiz olmalıdır ki, gənclik də buna uyğun yetişsin.

*- Gənclərin siyasi baxışları necədir?*

- Gənclərin mütləq əksəriyyəti bu gün özlərinin gündəlik qayğıları ilə məşğuldur. Ümumən gənclər vəziyyəti dərk edir, qiymətləndirir. Buna etirazlarını bildirirlər. Lakin aktiv fəaliyyətə gələndə çəkinirlər.

*- İclaslarınız, görüşləriniz üçün qərargahınız varmı?*

- Bəli. Burda yaxınlıqda yerləşir. Biz neçə ildir o qərargahı icarəyə götürmüşdük. Lakin indi o qərargahın binası özəlləşmə prosesinə cəlb olunaraq satılıb. Bir neçə aydır bizdən binanı tərk etmək tələb olunur. Biz də yerli hakimiyyət orqanlarından xahiş etmişik ki, orda yerləşdiyimiz 6 otağın heç olmasa ikisi qalsın. Onu da bildirim ki, tək biz yox, AXCP-nin üzvləri də orada yerləşib. Amma hələlik yekun bir qərar yoxdur.

*- Sonda sözləriniz?*

- Partiyamız üçün ən ülvi arzularımı bildirərək deyirəm ki, gün o gün olsun Müsavat ideologiyası bütün Azərbaycanda hamının qəlbində özünə möhkəm yer etsin. Beləliklə, bu ideologiya bizim yol göstərənimiz, mayakımız olsun. Sizə də fəaliyyətinizdə bol-bol uğurlar!

❑ **Fəridə ABDIYEVA, Şəki-Bakı**

# Cəmiyyətin atlantları...



**Hüseynbala SƏLİMOV**

**Adam tələsik nəticə çıxarmaq istəmir. Həmişə ümid var ki, sənin gözlədiyin, sənin sorağında olduğun proses bir gün baş verəcək... Bu baxımdan Rusiyada keçirilən sülh marşı bizə elə də təəccüblü görünmədi.**

Əgər bu olmasaydı Rusiyanın indisi və gələcəyi haqqında böyük sual işarəsi ilə danışmaq lazım gələrdi.

Yox, mən ifrat optimist nəticələrin də tərəfdarı deyiləm. Amma görəndə ki, yox, səni narahat edən məsələ başqalarını da düşündürür, bir az sakitləşirsən və daha ümidli olursan.

Bir dəfə Rusiyadan yazanda A.Makareviçin “Mənim ölkəm dəli olub” nəğməsindən sitat gətirmişdik. İndi A.Makareviç öz ölkəsində konsert verə də bilmir, rəsmi təbliğat onu satqın adlandırır...

Elə sülh marşına çıxanlara da təxminən eyni münasibət göstərilir. Ən yaxşı halda bu marşı tənhaların marşı adlandırırlar...

Adamı sıxan odur ki, indi Rusiyada liberal fikrin harada əks olunduğunu tapmaq elə də asan deyil. Liberal mətbuat demək olar ki, qalmayıb, sadəcə, bir zəif işıq hiss olunur-populyar nəşrlərdə, saytlarda bəzən liberal fikirlər də yer alır...

Amma bu, o qədər də tez-tez baş vermir. Məsələ bundadır ki, Azərbaycanda müstəqil nəşrlər hansı problemləri yaşayırlarsa, elə Rusiyada da eyni vəziyyətdir və demək olar ki, qəzetlər öz qürub dövrlərinə qədəm qoyurlar...

Adını da belə qoyublar ki, guya internet kağız mətbuatı sıxışdırır. Belə alınır ki, indi Azərbaycan və Rusiya hətta internetin yarandığı ölkələrdən daha çox “elektronlaşıb”!...

Amma prosesin süni olduğuna əlimizdə beş barmağın olduğu kimi əminik. Bu proses süni şəkildə aparılır. Mətbuata imkan vermədilər ki, öz reklam şəbəkəsini qursun. İndi də elektron mətbuatı cilovlamağa hazırlaşırlar. Amma insanların beyninə, ürəyinə tam hakim ola bilməyəcəklər...

Bəli, Rusiyada da V.Putinin reytingi rekord vurur, son vaxtlar təxminən 25 faiz artıb. Hərçənd mən Rusiyanın sosioloji sorğu xidmətlərinə inanmıram. Gəl, əlimizdə başqa bir resurs da yoxdur.

Onların sorğuları doğru olsa belə, bundan yalnız faciəli nəticələr irəli gəlir. Məsələ bundadır ki, qonşu ölkədə əsl xarizmatik hakimiyyət bərqərar olur və bu hakimiyyəti xarakterizə edən əsas cəhət odur ki, dövlət institutları öz effektivliyini itirir, ümumi fondan yalnız ayrı-ayrı şəxslər qabarır. Bu adamlar tədricən dövlət və hökumət institutlarını “əvəz” etməyə başlayırlar...

Azərbaycan üçün bu problem sovuşub. İndi hakimiyyət düşərgəsində həqiqətən də yüksək reytinqli adam tapmaq elə də asan deyil. Əvəzində isə bu ölkənin öz problemi var - korrupsiyalaşmış, nəzarətdən tamam kənar, sərt avtoritar siyasi sistem...

Bu sistemin yalnız bir yaşam forması var - cəmiyyətə qarşı permanent təzyiq. Burada yadıma İ.Stalinin “nəzəriyyəsi” düşür. O yazırdı ki, zaman keçdikcə sinfi mübarizə daha da kəskinləşəcək, ona görə də daim “təmizləmə” işləri və yaxud onların özləri demişkən, “profilaktik tədbirlər” görmək lazımdır...

Bu prosesdə çoxlu sayda günahsız insanın da zərər çəkməsi mümkün idi və İ.Stlain bunu inkar etmirdi. Ona görə də deyirdi ki, bir adamın ölümü faciə, yüz adamın ölümü isə statistikadır... Bəli, bir gün Rusiyada bu statistika düz on milyona çatdı...

Təbii ki, Azərbaycanda bu miqyasda repressiya mümkün deyil. Həm ölkə özü balacadır, həm də onu idarə edən məmurlar... Amma təqib, təzyiq var, üstəlik, o, zaman keçdikcə nəinki azalmır, əksinə artır...

Bütün belə sistemlərin bir qənimi, qorxduğu bir şey var - o da insanların fədakarlığıdır. Bəli, insanların fədakarlığı...

Bir də görürsən deyirlər ki, əşi, bəs filankəs vəkil idi, pul qazanırdı... Amma mən burada dərhal sual verərdim: məgər həmin vəkil digər vəkillər kimi pul qazana bilməzdimi? Qazanardı, özü də hamıdan çox. Amma o, bu yolu seçmədi. Çətin yolu seçdi...

İndi Rusiyada sülh marşına çıxanları, çoxluğun onlara yönələn tənəli-qınaqlı baxışlarını başa düşmək elə də çətin deyil.

Onlar da hamı kimi ola bilərdi və əllərində V.Putinin portretlərini daşımaqla daha asan dolanışıq yolu tapa bilərdilər...

Amma onlar da bunu istəmədi. Çətin yolu seçdilər. Niyə? Ona görə ki, fədakar insanlardılar. Fədakar insanlardan bəziləri qorxur, onlara fanat kimi baxır. Amma belə deyil. Onlar cəmiyyətin atlantlarıdır. Cəmiyyət onların çiyinləri üstündə dayanıb, bəli, məhz onların...

YENİ MÜSAVAT
N 238 (5947) 24 sentyabr 2014



# Biz də Mur istəyirik!

Zamin HACI
zaminhaci@mail.ru

"Xəbərdaram işindən,
Qurtarmaram dişindən!"
**(veriliş üçün deviz)**

**İqtidarda olan bir qrup adam 20 ili neftin puluyla yola verdi və çox simvolikdir ki, "Əsrin müqaviləsi" adlandırılan 1994-cü il 20 sentyabr müqaviləsinin ildönümündə təzə bir milyardlarla dollar dəyəri olan qaz müqaviləsi bağladılar.**

Əslində Azərbaycanın itirdiyi torpaqlara və şanslara görə əvvəlki müqaviləni "Əsirin müqaviləsi" adlandıra bilərik, çünki o müqaviləni bir növ, ölkəmizi diz üstdə çökdürüb məcburən imzalatmışdılar. Nəticə də, yuxarıda qeyd elədiyim kimi, itirilmiş şanslardan, perspektivi olmayan bir ölkədən ibarətdir. Ayağı tutanın xaricə qaçdığı bir yerə çevirdilər ölkəni... Ortada absurd şəkildə uzadılan bulvarlar, uzun bayraq dirəkləri, ənlik-kirşan vurulmuş binalar qalıb.

İndi imzalanan qaz müqaviləsinin qazıyla da dəxi 20 il azərbaycanlıları boğub yaşamaq olar. Ondan sonra Allah kərimdir... Nə biləsən bu torpağın altında üstündə yaşayanların evini yıxmaq üçün daha nələr var. Hətta ola bilər Kürdəmir tərəflərdən uran yataqları çıxsın, camaatımız radioaktiv şüalanıb tarixə qovuşsun. Buna bəlkə sevinmək də olar: heç olmazsa xalq bu yolla aktivləşər.

Hələlik kədərli şərhlərə ehtiyac yoxdur, yeyib-içib mümkün qədər dombalaq aşmalıyıq. Dünya praktikasından da yaxşı şeyləri götürüb pis şeyləri atmalıyıq. Misal üçün, Putin müəllimin şimalda tətbiq etdiyi yeniliklər və başqa köhnəlikləri burda bircə-bircə yaratmalıyıq. Bu günlərdə mən Rusiyadan çox ləzzətli informasiya oxudum. Orda hələ SSRİ-dən qalma bir uşaq verilişi var, adı yanılmıramsa "Spokoynoy noçi, malışi" - "Gecəniz xeyrə qalsın, balacalar" olmalıdır, donuz, dovşan, qarğa kimi heyvanlardan obrazlar qayırıblar, hərəsinə bir ad qoyublar, bu heyvanlar səfeh söhbətlər eləyib uşaqları yatızdırmağa çalışırlar.

Burda bir haşiyə çıxım ki, şəxsi təcrübəmdən bilirəm, balaca uşaqları yatızdırmağın ən düzgün yolu doğrudan da əcaib, məntiqsiz, loru dillə desək, "gic-gicə" söhbətlər etməkdir. Nağıllar əsasən belə yaranmışdır. Uşaqların beyni saf olduğu üçün bu məntiqsiz söhbətləri həzm edə bilmir, başları yorulub uyuyurlar. Bizim yapist iqtidarımız təmiz ürəkli azərbaycanlıları məhz bu üsulla yatızdırıbdır. Bir babat Cırtdan da olmayıb ki, oyaq qalsın. Hələ barmağını kəsib yaraya duz basan, yatmayan Məlikməmmədi demirəm. Hardadır bizdə o bəxt... Biz ilk növbədə bir Cırtdan yetişdirməliyik. Sonra böyüdü bəlkə Məlikməmməd oldu. Ancaq qorxuram Cırtdan böyüyüb Təpəgöz olsun. Axı biz böyüyənə qədər onun bir gözünü çıxardacağıq! Qəsdlə, pis mənada yox, elə-belə, maraq üçün.

Uzun sözün qısası, həmin "Gecəniz xeyrə qalsın, uşaqlar" verilişində təzəlikcə maraqlı bir hadisə olub: verilişə yeni qəhrəman, personaj daxil edilib. Bu personaj Mur adlı pələng balasından ibarətdir.

Deyə bilərsiniz burda maraqlı nə var, uşaq verilişinə pələng kuklası qatıblar, nə olsun? Demək siz Rusiyanı yaxşı tanımırsınız. İşin tragikomik tərəfi ondadır ki, həmin personajı verilişə... Putin soxuşdurub! Mədəni dillə yazsaq, verilişə yeni personaj daxil etmək üçün guya müsabiqə olub, namizədlər arasında canavar, meymun, zürafə-filan təklifləri varmış, ancaq telekanal rəhbərliyi Rusiya prezidentinin təklifini qəbul edibdir.

Bu da sənə dünyanın altıda biri, nüvə dövləti, nə bilim, BMT TŞ-nin üzvlüyü... Adam uşaq verilişinə qədər əl uzadır. Daha totalitarizmin buynuzu olmaz ki...

İndi sözümün canı odur ki, bizim çiçəklənən respublikamıza da bu cür uşaq verilişləri lazımdır. Qoy yetişməkdə olan gənc nəsil həmin verilişlərə baxsın, düz yolda olsun, xaricdən maliyyələşən qara qüvvələrin təsiri altına düşməsin.

Vallah!.. Nə var axı xarici maliyyədə!? Lazım gəlsə hökumətimiz prezidentin ehtiyat fondundan hər bir layihəni maliyyələşdirməyə hazırdır. İstər "Şirvan şəhərində YAP-a təzə qoşulanların sünnət mərasimlərinin təşkili" layihəsi olsun, istər "Qarabağın azad edilməsində mina təmizlənməsi üçün qaçqınlara kitab yardımının innovasiya və məşğulluq konsepsiyalarının daxili bazara təsiri üzərində monitorinqlərin təşkilində milli mentalitetin qorunması" proyekti olsun. Təki sən sözə bax, dikbaşlıq eləmə, əyil deyəndə əyil, uzan deməmiş uzan.

Veriliş açılandan sonra orda hansı heyvan qəhrəmanlar olsun, bax, bu yöndə təklifləri biz respublika rəhbərliyindən ümidlə gözləyirik.

# Arif Hacılı Qubad İbadoğlu ilə anlaşıb...

## Müsavat başqanlığına iddiaçı qurultay öncəsi rəqiblərinə və cəmiyyətə önəmli mesajlar verdi, başqan olacağı təqdirdə atacağı ilk addımları "Yeni Müsavat"a açıqladı



**Müsavat Partiyasının qurultayına sayılı günlər qalır. Sentyabrın 27-də keçiriləcək qurultayda Müsavata yeni başqanın seçiləcəyi faktı ali toplantıya ictimai marağı daha da artırıb. Başqanlıq uğrunda isə məlum olduğu kimi, 4 nəfər mübarizə aparır. Aktiv seçki kampaniyası aparan namizədlərdən Arif Hacılı "Yeni Müsavat"ın qonağı oldu və qurultay öncəsi suallarımızı cavablandırdı. Olduqca maraqlı açıqlamalarla zəngin müsahibənin birinci hissəsini təqdim edirik.**

***- Arif bəy, siyasi kəsimin, cəmiyyətin diqqəti Müsavat Partiyasının qurultayına cəlb olunub. Başqa heç bir təşkilatın, hətta hakimiyyətdə olan YAP-ın qurultayına bu qədər diqqət, maraq müşahidə edilmir. Bu anomaliyadır, yoxsa normal bir haldır? Müsavat Partiyasının qurucu üzvlərindən biri, başqanlığa iddiaçı kimi bunu necə izah edərdiniz? Cəmiyyət, hakimiyyət, media niyə Müsavata bu qədər diqqət göstərir?***

- Bu hal məni çox sevindirir. Doğrudan hazırda Azərbaycanın siyasi gündəmini Müsavat Partiyasının qurultayı tamamilə zəbt edib. İstər dostlar, istər opponentlər, hətta Müsavat Partiyasına düşmən mövqe sərgiləyənlər belə, Müsavatın qurultayı ilə maraqlanır. Bunu bir neçə səbəbi var. Əvvəla, Müsavat adi bir partiya deyil, Müsavat Partiyası hansısa ayrıca bir siyasi kampaniyanın həyata keçirilməsi, hansısa real siyasi konyukturaya uyğun yaranmış və fəaliyyət göstərən bir partiya da deyil. Müsavat Partiyası bütövlükdə Azərbaycan cəmiyyəti üçün bir dəyərdir. Eyni zamanda bu seçkilər Azərbaycanda bir ilkdir. Azərbaycan tarixində heç zaman hər hansı siyasi partiyada alternativ qaydada seçki kampaniyası aparılmaqla, başqan (sədr) seçkiləri keçirilməyib. Ona görə də bu amillər Müsavatın qurultayını diqqət mərkəzinə gətirir.

***- Cəmiyyətin bu cür nəzarəti altında gedən proses hazırda nə yerdədir? Bu, həm də Müsavat Partiyasının potensialını göstərən bir yarışdır. Sizin başqanlığa iddiaçı olacağınız ən azı, iki ildən bəri məlumdur. Bu qədər çox rəqibinizin olacağını gözləyirdinizmi?***

- Açığı, proses çox maraqlı gedir...

***- Kimin üçün maraqlıdır?***

- Mənim üçün maraqlıdır, Müsavat Partiyası üçün maraqlıdır...

***- Çətindirmi?***

- Əlbəttə ki, çətindir. Yəni bu seçki kampaniyası başqa seçki kampaniyalarından fərqlənir. Çünki digər seçki kampaniyalarındakı ilə müqayisədə bu seçki kampaniyasında vəziyyət fərqlidir. Ona görə ki, qurultaydan sonra biz bu gün opponentlik elədiyimiz şəxslərlə birlikdə Müsavat Partiyasının ideoloji-siyasi xəttinə uyğun olaraq, öz fəaliyyətimizi davam etdirməliyik. Ona görə də seçki kampaniyasını o şəkildə aparmaq lazımdır ki, 27 sentyabrdan sonra bu seçki kampaniyası hər hansı problemlər yaratmasın.

***- İndiyə qədər necə gedir?***

- Çox maraqlı bir proses gedir. Çoxdan idi ki, müxalifət partiyalarının nümayəndələri respublika ərazisində bu qədər görüşlər keçirmirdi. Hətta son prezident seçkilərində regionlarda keçirilən seçicilərlə görüşlərin sayından Müsavat Partiyasının daxili seçkilərində keçirilən görüşlərin sayı daha çoxdur. Mən respublikanın Naxçıvan istisna olmaqla, demək olar ki, bütün regionlarında olmuşam, seçicilərlə görüşmüşəm. Opponentlərim də belə görüşlər keçirir. Bu görüşlərdə müsavatçılar, bitərəflər, başqa şəxslər iştirak edir. Heç şübhəsiz ki, istənilən rayonda keçirdiyimiz hər bir görüş yerlərdə çox ciddi əks-səda doğurur. Bu baxımdan hesab edirəm ki, bu cür keçirilən görüşlər həm Müsavat Partiyasının maraqlarına uyğundur, həm də Azərbaycan cəmiyyətinin maraqlarına uyğundur.

***- Demokratiya nümunəsi verə bildimi Müsavat?***

- Mən qeyd etdim ki, bu, bir ilkdir. Doğrudan da bu bir demokratiya nümunəsidir. Cəmiyyətə, iqtidara demokratiya nümunəsi artıq indidən verildi. Ancaq prosesləri, hadisələri qabaqlamayaq. Sentyabrın 27-dən sonra biz bu istiqamətdə daha birmənalı fikir səsləndirə biləcəyik. Bu seçkilər həm də ona görə maraqlıdır ki, Müsavat Partiyası Azərbaycan cəmiyyəti üçün başqa bir ilkə də imza atır. İlk dəfədir ki, hər hansı bir partiyanın rəhbəri nizamnamənin tələbinə uyğun olaraq, yəni bir nəfərin iki dəfədən artıq seçilməsinə qoyulan qadağaya əsasən öz postundan imtina edir, başqanlığa namizədliyini irəli sürmür. Hesab edirəm ki, həm bu seçki kampaniyası - alternativli qaydada seçki kampaniyası keçirilməklə aparılan proses - , eyni zamanda İsa Qəmbərin yenidən Müsavat başqanlığına namizədliyini irəli sürməməsi də Azərbaycan cəmiyyətinə demokratik töhfədir.



**Arif Hacılı:** "Qeyri-müəyyənliklərə son qoyulacaq və düşünürəm ki, Müsavat Partiyası qurultaydan sonra parçalanmayacaq"

***- Həm də bu bir riskdir. Bu risk Müsavat Partiyasına baha başa gələ bilərmi? Mən say baxımından, bölünmə, parçalanma baxımından deyirəm. Belə təhlükələr varmı?***

- Mənim ən çox narahat olduğum dövr qurultayın ləngiməsi dövrü idi. Çünki partiya demək olar ki, 4 il ərzində seçkiqabağı vəziyyət şəraitində yaşayırdı. Qeyri-müəyyənliklər var idi - "İsa Qəmbər gedəcəkmi, qalacaqmı, yeni seçilən başqan necə davranacaq" və sair. İndi bu qeyri-müəyyənliklərə son qoyulacaq və düşünürəm ki, Müsavat Partiyası qurultaydan sonra parçalanmayacaq. Çünki Müsavat Partiyasından çox önəmli simaların çıxması halları baş verib, ancaq Müsavat Partiyasının parçalanacağı haqda verilən proqnozlar heç vaxt özünü doğrultmayıb. Müsavat bir ideoloji partiyadır, Müsavat Partiyasının üzvü partiyanı tərk edən dostu ilə Müsavat Partiyası arasında seçim etməli olanda Müsavat Partiyasını seçir. Ona görə də çox azsaylı adamların partiyadan çıxması ehtimallarını təbii ki, istisna etmirəm. Ancaq hər hansı ciddi parçalanmalar baş verməyəcək.

### "Mənim təşəbbüsümlə Qubad İbadoğlu ilə aramızda keçirilən bir saatdan artıq görüşdə biz bütün bu məsələləri ətraflı şəkildə müzakirə etmişik"

***- Digər iddiaçılarla birlikdə elə bir centlmen anlaşması varmı ki, kim qalib gəlsə, digərləri ilə birlikdə işləyir və heç kim partiyadan getmir? Yoxsa heç bir razılaşma yoxdur və ümid namizədlərin özünün Müsavata bağlılığınadır? Məsələn, konkret sizin nümunənizdə-seçilməsəniz partiyadan gedəcəksinizmi?***

- Mən bu məsələni öz platformamda qeyd etmişəm. Platformamın maddələrinin birində qeyd olunur ki, qurultayda seçkilərin nəticələrinin nə cür olmasından asılı olmayaraq mən Müsavat Partiyasında qalacağam. Keçirdiyim görüşlərdə bildirirəm ki, seçkilərdən sonra nəticələrdən asılı olmayaraq, bütün opponentlərimlə qucaqlaşmağa, nəinki onlarla birlikdə fəaliyyət göstərməyə, eyni zamanda onların komandasında olan, hətta bəzi hallarda etik qaydaları pozaraq müəyyən yolverilməz üsullardan istifadə edib mənə qarşı kampaniya aparan insanlarla da işləməyə hazır olduğumu bəyan edirəm. Bildirirəm ki, əgər o şəxslər desələr ki, bütün bunlar seçki kampaniyası kontekstində baş verən hadisələrdir, o kontekstdə ifadə edilən fikirlərdir, mən təbii ki, hər şeyi unutmağa və Müsavat Partiyasının hər üzvü ilə birlikdə fəaliyyət göstərməyə hazıram. Eyni zamanda bu mövzuda seçkilərdən əvvəl opponentlərimlə görüşüm olub. Konkret olaraq, Qubad İbadoğlu ilə, Tural Abbaslı ilə söhbət etmişəm. Mənim təşəbbüsümlə Qubad İbadoğlu ilə aramızda keçirilən bir saatdan artıq görüşdə biz bütün bu məsələləri ətraflı şəkildə müzakirə etmişik.

### "Seçkidən sonra nəticələrdən asılı olmayaraq, bütün opponentlərimlə qucaqlaşmağa, ...hətta mənə qarşı kampaniya aparan insanlarla da işləməyə hazır olduğumu bəyan edirəm"

***- Dediniz ki, bəzi hallarda etik normalardan uzaq hallar baş verib. Bunlar barədə Qurultaya Hazırlıq üzrə Təşkilat Komitəsinə şikayət etmisiniz?***

- Mən, ümumiyyətlə, şikayət etməyə meylli adam deyiləm...

***- Yəni məsələni rəsmiləşdirmisinizmi?***

- 25 ildir fəal siyasətlə məşğulam və Azərbaycanda ən çox tənqid olunan siyasətçilərdən biriyəm. Bir faktı deyim ki, mən heç vaxt hər hansı mətbuat orqanını və ya jurnalisti məhkəməyə verməmişəm. Təbii ki, Müsavatın ideoloji-siyasi xəttinə zidd olan faktlar ortalığa çıxanda biz bu faktları müzakirə edirik və aradan qaldırmağa çalışırıq.

***- Daha çox kimi ciddi rəqib hesab edirsiniz?***

- Mənə elə gəlir ki, rəqabətin kimlər arasında getdiyini Azərbaycan cəmiyyəti çox yaxşı bilir. Ancaq mən opponentlərimin öz aralarında olan rəqabətinə təsir etməmək üçün bu barədə fikir səsləndirmək istəmirəm.

***- Müsavatçıların nəzərində önəmli bir məsələ var: başqan seçilsəniz İsa Qəmbərin partiyadakı statusu nə olacaq? Başqan olaraq hansı otaqda oturacaqsınız? Məsələn, iddiaçıların biri bildirib ki, seçilsə, İsa Qəmbərin indi oturduğu otaqda oturacaq. Müzakirələrdə bu detallar da yer alırmı?***

- İsa Qəmbər Azərbaycan siyasətində mühüm rol oynayan siyasi xadimdir. Düşünürəm ki, siyasətçi üçün o, yaşının çox uğurlu bir dövrünü yaşayır və bəlkə də bundan sonra uzun illər Azərbaycan siyasətində həlledici rol oynayan fiqurlardan biri olaraq qalacaq. Biz bu məsələyə bu cür də yanaşırıq. Müsavat Partiyasının seçkili orqanlarına namizədlərin irəli sürülməsi prosesi başa çatdı. İsa bəy heç bir struktura öz namizədliyini vermədi. Təşkilat Komitəsinin toplantısında mən partiyanın nizamnaməsinə dəyişiklik edilməsi təklifini irəli sürdüm. Təklif etdim ki, "Müsavat Partiyasının keçmiş başqanları Müsavat Partiyası Məclisinin üzvüdür" maddəsi nizamnaməyə daxil edilsin. Təşkilat Komitəsində mənim bu təklifim yekdilliklə bəyənildi. İsa Qəmbər də bu təklifi qəbul etdi. İnanıram ki, qurultay da bu təklifi qəbul edəcək. Bundan başqa, qurultayda 2018-ci ildə-yəni Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyində keçiriləcək prezident seçkiləri ilə bağlı da məsələlər müzakirə olunacaq. Mən bu müzakirələr zamanı 2018-ci ildə Müsavat Partiyasından Azərbaycan Respublikasının prezidentliyinə İsa Qəmbərin namizədliyini irəli sürmək niyyətindəyəm...

***- Müsavat Partiyasının başqanı olaraq niyə öz namizədliyinizi irəli sürmək istəmirsiniz?***

- Mən hesab edirəm ki, bu günün reallıqları ilə yanaşsaq, İsa Qəmbər milli demokratik düşərgənin lideri kimi, Əbülfəz Elçibəydən sonra Azərbaycan demokratik düşərgəsinin, Rəsulzadə-Elçibəy yolu adlandırdığımız liberal-demokratik milli məfkurənin daşıyıcıları olan qüvvələrin əsas lideridir. Onun seçicilərdən səs almaq imkanları mənim seçicilərdən səs almaq imkanlarımdan çoxdur. Eyni zamanda onun həm siyasi , həm dövlətçilik təcrübəsi mənim bu sahədə olan təcrübəmdən daha üstündür. Otaq və digər məsələlər hesab edirəm ki, texniki məsələlərdir. Bu məsələləri mətbuatda müzakirə olunacaq səviyyədə olan məsələlər sırasına daxil etmirəm. Bircə onu qeyd etmək istəyirəm ki, mən otağa, kabinetə, yəni siyasətçilərə aid olan bir sıra bu tipli atributlara xüsusi meyl göstərən adam deyiləm.

***- Bu, "kabinet başqanı olmayacağam" mesajıdırmı?***

- Mən müxalifət liderlərini kabinetdə oturduqlarına görə qınamaq istəmirəm. Çünki əslində faktiki olaraq, ölkədə olan ictimai-siyasi vəziyyət və hərəkət imkanlarının məhdudlaşdırılması onların bu cür fəaliyyət göstərməsini diqtə edir. Eyni zamanda Müsavat kimi bir partiyanın başqanı həm də cəmiyyət üçün bir simvoldur. Mənim Müsavat Partiyasının simvolu olmaq iddiam yoxdur. Tarixi baxımdan Müsavat Partiyasının simvolu Məhəmməd Əmin Rəsulzadədir. Müasirlik baxımından isə Müsavat Partiyasının simvolu İsa Qəmbərdir və o, simvol olaraq da qalacaq. Bu hal mənim fəaliyyət imkanlarımı daha da asanlaşdıracaq, daha çevik, daha dinamik fəaliyyət göstərməyimə imkan yaradacaq. Bundan əvvəl fəaliyyət göstərdiyim kimi, yenə də Müsavat Partiyası üzvləri ilə birlikdə seçki kampaniyalarında, kütləvi aksiyalarda onlarla birlikdə iştirak edəcəyəm. Müsavat Partiyasının simvolu olmaq zərurəti üzərimdə olmadığı üçün daha asan fəaliyyət göstərmək niyyətindəyəm.

***- Arif bəy, hər zaman ən kritik nöqtələrdə olmusunuz, hətta bəzən sizi dostlar belə suçlayıblar ki, yaşının bu vaxtında düzgün deyil, riskə gedir, mitinqlərə gənclər getməlidir, lakin Arif Hacılı gedib başını dəyənəyin altına verir. Müsavat başqanı olsanız, bu davranışlar dəyişəcəkmi?***

- Mən heç vaxt başqalarına rəva gördüyüm işi özümə eyib bilməmişəm, əskiklik bilməmişəm. Müsavat Partiyasının başqanı olduqdan sonra da mənim siyasi imicimdə həlledici dəyişikliklər baş verməyəcək. Mən Müsavat Partiyasının hər bir siyasi üzvünün etdiyi səviyyədə də risk etməyə hazır olacağam.

***- Başqan seçilsəniz, hakimiyyətə münasibətdə, müxalif düşərgə daxilinə yönəlik siyasi kurs necə olacaq? Sizin opponentlər, sizinlə bağlı təhlil verənlər iddia edirlər ki, Arif Hacılı Müsavat Partiyasının başqanı olsa, hakimiyyətə münasibətdə sərt kurs daha da sərtləşəcək, bu vəziyyət partiyanın fəaliyyətini daha da məhdudlaşdıracaq, həbslər, repressiyalar olacaq və sair. Bu iddialara münasibətiniz necədir?***

-...

*(davamı növbəti sayımızda)*

❑ Hazırladı: Etibar SEYİDAĞA



### "Qurultayda seçkilərin nəticələrinin nə cür olmasından asılı olmayaraq mən Müsavat Partiyasında qalacağam"

# Müsavatın 36 funksioneri Qubad İbadoğluna dəstək bəyanatı yaydı

## Onlar iqtisadçı-alimi dəstəklədilər və partiyadaşlarını onu başqan seçməyə çağırdılar



Qubad İbadoğlu

**Müsavat Partiyasının 40-a yaxın funksioneri sentyabrın 23-də bəyanat yayaraq başqanlığa namizədlərdən Qubad İbadoğlunu dəstəklədiklərini açıqlayıblar.**

Musavat.com-a göndərilən bəyanatda bildirilir ki, Müsavat Partiyasının qurultayı təkcə Müsavat Partiyası üzvlərinin deyil, bütün Azərbaycan cəmiyyətinin diqqət mərkəzindədir: "Bu qurultay həm də alternativ qaydada seçiləcək yeni partiya başqanı seçkiləri ilə əlamətdardır. Partiya başqanlığına seçkilərdə iştirak etmək üçün bu günə qədər dörd nəfərin namizədliyi qeydə alınıb. Hər bir namizəd bu post uğrunda mübarizəni haqq etmiş insandır. Seçki bir yarış olduğundan, həmin namizədlərin hər birinin partiya daxilində və cəmiyyətdə öz tərəfdarları və dəstəkçiləri var. Biz də Müsavat Partiyasının Azərbaycanda bərpa işlərinə rəhbərlik etmiş, bərpa müddətindən bu yana partiyanın tək başqanı olmuş İsa Qəmbərdən sonra partiyanı uğurla idarə edə biləcək namizəd olaraq Qubad İbadoğlunu görürük",- deyə bəyanatda vurğulanır.

**Səbəb kimi isə onun Azərbaycan cəmiyyətində və onun hüdudlarından kənarda yüksək səviyyəli iqtisadçı, bir çox dəyərli araşdırmaların müəllifi olan bir alim kimi tanınması, siyasi intiriqa və konfliktlərdən uzaq olması, fərqli fikrə dözümlü yanaşması göstərilir:** "Cəmiyyətdə belə bir müsbət imicə məxsus olan bir şəxsin Müsavat Partiyasının başqanı seçilməsi cəmiyyətimizdə partiyanın nüfuzunun və tərəfdarlarının daha da artmasına səbəb olacaq. Müsavat Partiyasını Azərbaycanda olan digər mövcud siyasi partiyalardan fərqləndirən mühüm cəhətlərdən biri də onun ölkəmizin ən ciddi problemlərindən çıxış yolları, ölkənin müxtəlif sahələrinin idarə edilməsi ilə bağlı proqram və konsepsiyalara malik olmasıdır. Bu proqram və konsepsiyaların böyük əksəriyyəti Qubad İbadoğlunun rəhbərliyi ilə hazırlanıb. Hesab edirik ki, Qubad bəy partiya başqanı seçildikdən sonra istər partiya daxilində olan, istərsə də bitərəf, siyasi proseslərdən uzaq durmağa çalışan mütəxəssisləri yeni proqram və konsepsiyaların hazırlanması işinə daha yaxından cəlb edəcək".

**Bəyanatda həmçinin Q.İbadoğlunun təşkilatçılıq və idarəetmə bacarığının Müsavat Partiyasını təşkilati baxımdan daha da gücləndirmək işinə yeni töhfələr verəcəyinə inam ifadə olunub:** "Qubad bəy yaş və təcrübə baxımından elə bir səviyyədədir ki, o, həm partiyanın, həm cəmiyyətimizin ən gənc nəsli ilə yaşlı nəsli arasında körpü rolunu oynaya biləcək, hər iki nəslə mənsub insanları müsavatçılıq ideyaları ətrafında toplaya biləcək bir insandır. Yeni perspektivli və intellektual gənclərin təşkilata axınını təmin etməklə təcrübəli, illər ərzində siyasi meydanda yetkinləşmiş partiya üzvlərinin gənc nəsillə birgə, koordinasiya olunmuş mübarizəsini təşkil edə biləcək".

**Bəyanat müəllifləri Q.İbadoğlunu indiki başqanın layiqli siyasi varisi hesab etdiklərini də vurğulayıblar:** "Qubad İbadoğlu yetkin bir şəxsiyyət, siyasi lider olaraq səbrli, təmkinli, dözümlüdür, hər bir insana, partiya yoldaşlarına qarşı diqqətcil və qayğıkeşdir. Bu mənada o, Müsavat və Azərbaycan siyasi mühitinin lideri İsa Qəmbərin layiqli siyasi varisi hesab oluna bilər". Bəyanatı imzalayanlar müsavatçıları seçkidə Q.İbadoğluna səs verməyə çağırıblar. Qeyd edək ki, bəyanatı 36 müsavatçı imzalayıb. Onlar əsasən başqanın müavinləri, müşavirləri, həmçinin Müsavat Divanının üzvləridir.

**Siyahını təqdim edirik:**

Tofiq Yaqublu, Müsavat başqanının müavini, siyasi məhbus
Mehman Cavadoğlu, Müsavat başqanının müavini
Məryəm Oruclu, Müsavat başqanının müavini
Vurğun Əyyub, Divan üzvü
Hökümə İbrahimli, Divan üzvü
İbrahim İbrahimli, MNTK sədri
Hikmət Hacızadə, Müsavat Məclisin (MM) üzvü
Fəxrəddin Bağırlı, keçmiş Divan üzvü
Cəlal Allahverdiyev, akademik
Adil Qeybulla, tibb elmləri doktoru, professor
Yusif Qəmbərov, Elmlər doktoru
Arifə Hüseynli, MM katibi
Əhliman Abbaslı, GT sədri
Ellada Məmmədli, QT sədri
Məzahir Məmmədli, MNTK üzvü
Etibar Bayramlı, MNTK üzvü
Əlövsət Talışxanlı, MNTK üzvü
Rüfət Sultan, MNTK üzvü
Səmayə Hüseynova, MNTK üzvü
Nizaməddin Quliyev, Müsavat başqanının müşaviri
Dünyaxanım Cərullayeva, Müsavat başqanının müşaviri
Mərdan Mehdili, Müsavat başqanının müşaviri
Asif Məmmədli, MM üzvü
Aypara Rüstəmova, MM üzvü
Bəhruz Əsədbəyli, MM üzvü
Böyükkişi Heydərli, MM üzvü
Elxan Mehdiyev, MM üzvü
Seyidəli Məmmədli, MM üzvü
Elşad Paşasoy, MM üzvü
Hamlet Səfixanlı, MM üzvü
Qalabəy Ağalarlı, MM üzvü, Komissiya sədri
Məlahət Mürşüdlü, MM üzvü
Nəsibə Şuşalı, MM üzvü
Nigar Yaqublu, MM üzvü
Füzuli Cərullayev, Regional koordinator

❑ Röya RƏFİYEVA

YENİ MÜSAVAT
N 238 (5947) 24 sentyabr 2014

# Mülkünü AXCP-yə vermiş şəxs Əli Kərimlini ittiham etdi

**Azər Əsgərov:** "Əli Kərimlinin ayaqqabısının bir tayı götürülsəydi, dünyanı dağıdardı", "Çox şey öyrənmişəm, açıqlayanda AXCP çalxalanacaq"; "Onlara görə mülküm əlimdən çıxıb, amma dəstək yoxdur, artıq Almaniya səfirliyinə sığınacam"


Azər Əsgərov

**AXCP-nin qərargah kimi istifadə etdiyi, bir neçə ay əvvəl partlayış baş verdikdən sonra sökülən mülkün sahibi Azər Əsgərov "Yeni Müsavat"a müsahibə verib. Mülk sahibi məhkəmə çəkişməsi, vətəndaşlıqdan imtina və müdafiəsi istiqamətində gedən işlərdən danışıb.**

***- Azər bəy, mülklə bağlı məsələ nə yerdədir?***

- Artıq yeddi ay geridə qalıb və heç nə dəyişməyib. İcra hakimiyyəti Fövqəladə Hallar Nazirliyinə, o da icranın üstünə göndərir. Bu işdə "köhnə hamam, köhnə tas"dır, yenilik yoxdur. Nə mənə təzminat, nə də mülk verilir. Artıq Azərbaycan prezidentinə məktub yazmışam, ölkə vətəndaşlığından imtina ilə bağlı ərizəmi qəbul etməsini xahiş etmişəm.

## "Ötən şənbə günü yazını "Azadlıq" qəzetinə qoydular, bazar günü saytdan çıxarıldı"

Bu hökumətin idarəçiliyi altında Azərbaycanda yaşamaq mümkün deyil. Bir vətəndaş kimi mülkiyyət hüquqlarım qorunmursa, hansı ədalətdən söhbət gedə bilər? Sonuncu məhkəmə prosesi iyulun 1-də olub. Nərimanov Rayon Məhkəməsi o vaxtdan bəri növbəti prosesi təyin etməyib. Ona görə də vətəndaşlıqdan çıxıb, Almaniya səfirliyinə sığınacam. Belə ölkədə yaşamaq olmaz.

***- Bəs mətbuat, partiyalar sizin müdafiənizlə məşğul olurmu, dəstək verirmi?***

- Bu yeddi ay ərzində mənə güclü dəstək verilməyib. "Azadlıq" qəzeti müsahibələrimin, mətbuat konfransında çıxışlarımın yarısını çap edir. Partiyada Gözəl Bayramlıdan başqa maraqlanan olmayıb. Bununla bağlı Həsən Kərimliyə və Gözəl Bayramlıya gileyimi çatdırdım. Ötən şənbə günü yazı qoydular, bazar günü saytdan çıxarıldı.

Mənim nə qəzetə, nə AXCP-yə etibarım qalıb. Əli Kərimli martın 4-də çıxışında mülkün partladılmasını partiyaya qarşı dövlət terroru adlandırıb, vəssalam. Mənim onlara, müxalifətə görə mülküm əlimdən çıxıb, bu günə kimi ciddi şəkildə dəstək görməmişəm. Ondan sonra Əli Kərimli facebookda partiyanın qərargahsız qaldığını yazıb, mənə aid hissəyə toxunmayıb. Bu da müxalifət liderinin çıxışı... Belə görünür ki, ortada başqa məsələlər dönür.

***- Nə məsələlər dönür ki?***

- Mən Türkiyədə yaşamışam, siz isə jurnalistsiniz. Hansı işlər döndüyünü məndən yaxşı bilməlisiniz. AXCP bu qədər vaxtda vətəndaşa ziyan dəydiyini deməyib, elə 7 aydır dişimə vura-vura gəlirəm. Yəqin yuxarıdan göstəriş verilib. Mən çox şey öyrənmişəm və açıqlayanda AXCP çalxalanacaq, zəlzələ olacaq. Hələlik gözləyirəm. Çünki istəmirəm ki, hakimiyyət müxalifətə qalib gəlsin. Gəminin kapitanı ya hamı ilə birlikdə batar, ya da axırda sərnişinlərdən sonra göyərtəni tərk edər. Burda əksinə olub. Əli Kərimli hadisə olan günü qərargaha gəlmədi. Məndə olan məlumata görə, partiyanın Bakı şöbələrindən maşınlarla dolu adamlar gəlmək istəyib, partiya rəhbərliyi geri qaytarmağı tapşırıb. Yenə deyirəm ki, o gündən bəri mənimlə Gözəl Bayramlı maraqlanıb. Partiya bu işi məhkəməyə daşıyacağını söyləyib, Kəmalə Bənəniyarlı ilə mülk məsələsinin Avropa Məhkəməsinə göndəriləcəyi deyilib. Ancaq heç bir addım atılmayıb. Əli Kərimlinin ayaqqabısının bir tayı götürülsəydi, dünyanı dağıdardı. Bir hərəkətlərinə baxsın. Mən pis iş görüb onlara qərargah vermişəm? Budur yaxşılığım? Deməli, ortada başqa işlər var. Gileyimlə bağlı arabir facebook səhifəmdə atmacalar yazıram. Cəbhəçilər də deyirlər ki, yazma, belə etmə. Axı mən də insanam, mülküm dağıdılıb, kompensasiya verilməyib?!

***- Deyirsiniz ki, partiya arxanızda durmayıb, ölkədən də getmək istəyirsiniz, o halda həbs olunmaq təhlükəsi hiss edirsinizmi?***

- Hər an məni şərləyib həbs edə bilərlər. Bu vaxta qədər üç dəfə polis tərəfindən saxlanmışam. Nərimanov məhkəməsində üzümə durdular ki, mən polisi və dövləti təhqir etmişəm. Hakimdən tələb etdim ki, bunu sübut etmək üçün kamera gətirilsin, videoyazısına baxaq, görək harada kimi təhqir etmişəm. Yəni məni hər saniyə şərləyib tutmaq imkanları var. Müxalifət bu vəziyyətdədirsə, iqtidar istədiyini edəcək. Ona görə də vətəndaşlıqdan imtina edirəm, sığınacaq alıb Avropa Məhkəməsinə üz tutacağam.

❑ E.SALAMOĞLU

# Dələduzluqda suçlanan hakimin cinayət işində şok isimlər

## "1 milyona icra başçısı" işində dövlət məmuruna aid ifadələr yoxa çıxıb; vəkil İradə Cavadova ilginc faktlar açıqladı

**Bakı Ağır Cinayətlər Məhkəməsinin keçmiş hakimi Həsən Əliyevin işi ilə bağlı yeni ilginc məlumatlar üzə çıxıb. Həsən Əliyev Cinayət Məcəlləsinin 178.3.2-ci (külli miqdarda ziyan vurmaqla dələduzluq) və 312.2-ci (vəzifəli şəxs tərəfindən bilə-bilə qanunsuz hərəkətlər (hərəkətsizlik) etməyə görə ona rüşvət vermə) maddələri ilə ittiham olunur. Lakin keçmiş hakim həbs olunmayıb. Onun barəsində başqa yerə getməmək haqqında iltizam-qətimkan tədbiri seçilib.**


Həsən Əliyev

Həsən Əliyevə verilən ittihama görə, o, Ramazan Səlimov adlı şəxsə vəzifədə olan tanışları vasitəsilə onu icra başçısı təyin etdirəcəyi barədə vəd verib. Bu təyinat üçün Ramazan Səlimovdan 1 milyon dollar istənilib. Pulun böyük hissəsi əvvəlcədən verilib. Yəni Həsən Əliyev 2011 və 2012-ci illərdə hər dəfə 300 min olmaqla, ondan iki dəfəyə ümumilikdə 600 min manat pul alıb. Bildirilib ki, qalan 200 min manat da sərəncam imzalanandan sonra verilməlidir. Lakin Həsən Əliyev vədini yerinə yetirməyib. Ramazan Səlimov aldadıldığını başa düşüb və hüquq-mühafizə orqanlarına üz tutub. Qeyd edək ki, bu cinayət işi üzrə başqa təqsirləndirilən şəxslər də var. Bunlar Elman Məmmədov və Taleh Süleymanovdur. Həsən Əliyevdən fərqli olaraq onlar barəsində həbs-qətimkan tədbiri seçilib.

"Azadlıq" yazır ki, bu iş mahiyyət etibarilə "Gülər Əhmədova qalmaqalı"na bənzəyir. Gülər Əhmədova qalmaqalında olduğu kimi bu cinayət işində də yüksək rütbəli məmurların adı keçir. Ramazan Səlimovun ifadələrindən aydın olur ki, Həsən Əliyev onu bir çox məmurlarla görüşdürüb. Bu sıraya komitə sədri Qərib Məmmədov, "Azərsu" və "Azəriqaz"ın rəhbərliyinə daxil olan şəxslər və başqa səlahiyyətli şəxslər də daxildir. Redaksiyamıza daxil olan məlumatlarda həmin məmurların adları da var. Lakin hələlik bəzi dəqiqləşdirmələr apardığımızdan açıqlamırıq. Bildirilir ki, hakimiyyət məhz bu səbəbdən cinayət işinin səs-küysüz qapanmasına çalışır. Bu işə Bakı Ağır Cinayətlər Məhkəməsində baxılmalı idi. Lakin qəribə də olsa hakimlər Həsən Əliyevin keçmiş iş yoldaşları olduğunu əsas gətirib öz-özlərinə etiraz edərək bu işə çıxmaqdan imtina etdilər. Lakin Azərbaycan reallığına bələd olanlara məlumdur ki, məhkəmələr sifariş nəticəsində hətta ən yaxın adamlarına belə cəza kəsə bilərlər. Bundan sonra işə Gəncə Ağır Cinayətlər Məhkəməsində baxılacağı aydın oldu. İddialara görə, bütün bunlar sadəcə kifayət qədər ciddi və rezonansa səbəb ola biləcək bu məsələni gözdən uzaq yerdə həll edilməsi üçün atılan addımdır. Yeri gəlmişkən, bu cinayət işi Gəncə Ağır Cinayətlər Məhkəməsinin hakimi Mübariz Məmmədovun icraatına verilib. Mübariz Məmmədovun isə Həsən Əliyevlə dost olduğu bildirilir. Başqa bir maraqlı məqam isə iş materiallarından bəzi ifadələrin yoxa çıxmasıdır. Bu faktı vəkil İradə Cavadova bildirib. Görünür, bu ifadələrdə iri məmurların adı hallanırmış. Bu baxımdan da ifadələri "yox"a çıxarmaq zərurəti yaranıb.

Azpolitika.info baş prokuror Zakir Qaralovun işdən qovduğu Nərimanov rayon prokuroru Fikrət Mahmudovun Ağır Cinayətlər Məhkəməsinin hakimi Həsən Əliyevdən şikayətini ört-basdır etmək üçün hədə yolu ilə külli miqdarda rüşvət alması haqda məlumat yayıb. Məlumata görə, F.Mahmudov Ramazan Səlimov Həsən Əliyevdən şikayət etdikdən sonra onu görüşə çağırıb. Həsən Əliyevin xaraktercə qorxaq insan olduğunu müəyyən edən prokuror mütəmadi olaraq ondan müəyyən məbləğlər tələb edib. Üst-üstə 200 min manatdan artıq pul verdikdən sonra, prokurorun yenə də ondan əl çəkmədiyini görən hakim Fikrət Mahmudovun səsini yazmaq qərarına gəlib. Növbəti görüşdə prokurorun səsini yazan Həsən Əliyev, işin üstü açıldıqdan, Ramazan Səlimovun şikayəti "yuxarılara" çatdıqdan sonra onu şantaj edən prokurordan Milli Təhlükəsizlik Nazirliyinə şikayət edib. Bundan sonra Baş Prokurorluq araşdırma aparıb və güclü himayəçisinin olmasına baxmayaraq, baş prokuror Fikrət Mahmudovu və onun müavinini vəzifəsindən azad edib.

Mənbənin daha bir sensasiyalı məlumatı ondan ibarətdir ki, MTN-ə şikayət etdikdən və gizli səs yazısı ilə bu şikayətini sübut etdikdən sonra Həsən Əliyevə qarşı yeni ittiham - rüşvətvermə ittihamı da irəli sürülüb. Rüşvət verən varsa, deməli, rüşvəti alan da olmalıdır. Lakin Nərimanovun keçmiş prokuroruna qarşı rəsmi ittihamın irəli sürülüb-sürülməmədiyi məlum deyil.

**Məsələ ilə bağlı Fikrət Mahmudovun mövqeyini dərc etməyə hazırıq.**

**Xatırladaq ki, bir neçə gün əvvəl Zakir Qaralov F.Mahmudov və onun müavini Cavid Quliyevin vəzifəsindən azad olunması haqda əmr imzalayıb.**

❑ E.MƏMMƏDƏLİYEV

# Sabiq rəisin öldürdüyü iddia olunan qadın "Qurd qapı"sında basdırılıb

## Arzu Zeynalovanın dəfninə Rza Hacıyevin 8 min manat xərclədiyi xəbəri var

**Sabunçu və Neftçala rayonlarının keçmiş polis rəisi Rza Hacıyevin öldürdüyü iddia olunan 24 yaşlı Arzu Zeynalova Bakıdakı "Qurd qapı"sı deyilən ərazidə yerləşən qəbiristanlıqda dəfn olunub. Aldığımız məlumata görə, A.Zeynalovanın dəfni üçün qəbir yerinin alınmasına polis rəisi 8 min manat xərcləyib. Qaynağımız bildirib ki, A.Zeynalova polis rəisi ilə illər əvvəldən tanış olublar və Türkiyəyə istirahətə birgə gediblər. Oradan A.Zeynalovanın meyiti gətirilib.**


Rza Hacıyev

Məlumat üçün deyək ki, bir neçə gün əvvəl R.Hacıyevin Türkiyədə bir qadını öldürməsi haqda məlumat yayılmışdı. Həmin vaxt musavat.com-a etibarlı mənbədən daxil olan məlumatda bildirilirdi ki, Telman İsmayılovun (AST Telman-E.H.) Antalyadakı "Mardan Palase" hotelində Rza Hacıyevin tanışı olduğu bildirilən qadının meyiti aşkarlanıb. 24 yaşlı Arzu Zeynalovanın bədənində zorakılıq əlamətləri olub. Məlumata görə, polis rəisi qadına həmin xəsarətləri yetirməkdə şübhəli bilinir.

Qaynağımız iddia edir ki, R.Hacıyev qadını döyərək öldürüb. Polis polkovniki olan R.Hacıyev bu ilin fevralında Neftçala Rayon Polis Şöbəsinin rəisi vəzifəsindən yaş həddi ilə bağlı azad olunaraq təqaüdə göndərilib. O, sonuncu iş yeri olan Neftçala RPŞ-yə Bakının Sabunçu Rayon Polis İdarəsinin rəisi vəzifəsindən çıxarılandan aylar sonra, 2009-cu ildə təyin olunmuşdu. 2008-ci ildə R.Hacıyevi Sabunçu RPİ-nin rəisi vəzifəsindən evində baş verən müdhiş oğurluğa görə çıxarmışdılar. Həmin vaxt R.Hacıyevin sürücüsü polis rəisinin ailə üzvlərindən biri ilə evdən qızıl-zinət və xeyli pul götürərək Rusiyaya qaçmışdı. Sonradan R.Hacıyevin ümumilikdə 1 milyon manatlıq mal-pulunun oğurlandığı bildirildi. Bu hadisənin sorağı ölkə rəhbərliyinə çatandan sonra ən yuxarı səviyyədə R.Hacıyevin tutduğu vəzifədən azad edilməsi istənilmişdi. Arqument kimi isə "öz evini qoruya bilməyən rəis rayonu necə qoruya bilər" fikri səsləndirilmişdi.

R.Hacıyev bu xəbərlə bağlı APA-ya açıqlamasında deyilənləri təkzib etmişdi. O, Türkiyədə sonuncu dəfə bu ilin yazında olduğunu demişdi. Sabiq rəis hazırda Bakıda istirahət etdiyini söyləmişdi.

❑ E.HÜSEYNOV

YENİ MÜSAVAT
N 238 (5947) 24 sentyabr 2014

# "Səba" toyuqlarını 40-dan artıq ölkəyə ixrac edə bilər

**"Səba" bütöv və parça toyuq məhsulları 40-dan artıq ölkədə tanınan beynəlxalq halal sertifikatına layiq görülüb. Dünyanın 20-dən çox nüfuzlu halal qida qurumunun, o cümlədən müsəlman əhalisinin sayı ilə öndə olan Malayziya və İndoneziya kimi ölkələrin ali dini qurumlarının təsdiqlədiyi GİMDES "Halal və Tayyib sertifikatı" "Səba"nın bu məhsullarının tələb olunan bütün qaydalara cavab verdiyini bildirir.**




Bu Halal sertifikatı "Səba"ya toyuq məhsullarını yüksək halal standartlarına malik Malayziya, İndoneziya, Sinqapur, Tailand, Cənubi Afrika, Malavi, Yaponiya, Çin, Hindistan, Böyük Britaniya, Avropa Birliyi ölkələri, Kanada, Filippin, Yeni Zelandiya, Tayvan, Amerika Birləşmiş Ştatları, Avstraliya kimi 40-dan artıq ölkəyə ixrac etmək imkanı verir.

Halal sertifikatı "Səba"nın 2 illik standartlaşma fəaliyyətinin nəticəsidir. Belə ki, GİMDES təşkilatının Halal sertifikatına layiq görülmək üçün təkcə kəsimin qaydalara uyğunluğu kifayət deyil.

Tələblərə görə, qurumun mütəxəssisləri "Səba" qəssabxanasında kameralar quraşdıraraq, kəsimin qaydalara cavab verdiyini birbaşa öz ofislərində izləyirlər. Bu müşahidələr sertifikat qüvvədə olduğu müddətdə, o cümlədən hazırda da davam edir. "Səba"nın bütün qəssabları (5 nəfər) kəsimə verilən tələblər üzrə treninq keçərək sertifikat alıblar. Qəssabların hər birinin ibadətkar-dindar müsəlman olması da sertifikatlaşmanın əsas tələblərindəndir. Əgər yeni qəssab işə alınarsa, şirkət onun da eyni treninqi keçəcəyinə cavabdehdir. Qəssablar üçün ibadət otağının ayrılması da "Səba"nın öhdəliklərindəndir.

Kəsim qaydalarına riayətdən başqa, toyuqlara verilən qidanın tərkibi də sertifikatı verən qurum tərəfindən yoxlanılıb. "Səba" yemində biotexnoloji üsulla əldə edilmiş, yəni geni modifikasiya olunmuş, eləcə də insan orqanizminə zərərli, islam dini ilə qadağan maddələrin olmadığı təsdiqlənib.

Halal sertifikatı toyuqların bəslənməsi, məhsulun qablaşdırılması zamanı da təmizliyə və halal qaydalarına riayət edilməsinə zəmanət verir.

Qeyd edək ki, "Səba" toyuqlarının kəsimi zamanı tələb olunan halal qaydalarına riayət etməsini Qafqaz Müsəlmanları Ruhani İdarəsi də təsdiq edib.



شهادة الحلال الطيب
Halalen Tayyiben Certificate
Helal ve Tayyib Sertifika

هذه الشهادة تفيد بأن قائمة المنتجات المذكورة أدناه قد استوفت شروط الحلال الطيب وفقاً للإسلام

GIMDES Halalen Tayyiben Products Research Institute of Turkey Hereby certifies that the products listed below have met the Halal requirements in accordance with Islam

GIMDES telah menyetujui dan mengessohkan bahwa produk - produk yang tertera di bawah ini telah memenuhi persyaratan Halal menurut hokum Islam

Bu belge ile aşağıda belirtilen ürünlerin İslam dinine göre Helel ve Tayyib şartları sağladığı GİMDES tarafından onaylanmaktadır.

التاريخ/Date /Tarih: 02 SEP. 2014

تاريخ انتهاء الصلاحية: 02 SEP. 2015
Valid Until
Son Geçerlilik Tarihi

رقم الشهادة/Certificate No /Sertifika No
200-677-01-14

اسم وعنوان الشركة: "SƏBA" ASC,
Company Name & Adress AZ 0100, Azərbaycan, Xırdalan şəh.,H.Aliyev, 1
Firma Ünvanı & Adresi

## Vaşinqton-Ankara-Bakı üçbucağında ilginc gəlişmə

# Amerikanın təhlükəli Qarabağ ssenarisi

### ABŞ son vaxtlar xeyli dərəcədə "sözəbaxmaz və müstəqil" olan Türkiyəyə yerini göstərməyin, eyni zamanda Ermənistanı Rusiya orbitindən çıxarmağın yollarını arayır, bəs Azərbaycan?...

**Türkiyə-ABŞ münasibətləri öz tarixində ən soyuq bir dönəmi yaşayır. İndi bunu təkcə Amerika mətbuatında son zamanlar Türkiyə və onun prezidenti Rəcəb Tayyib Ərdoğan barədə gedən neqativ yazılardan yox, dövlət katibi Con Kerrinin bəzi açıqlamalarından da sezmək olar.**



Vaşinqton Ankaradan inciklidir - burası dəqiqdir. Bu incikliyi Türkiyənin anti-İŞİD koalisiyasına qoşulmaması daha gücləndirib. Kerrinin münasibətləri qaydaya salmaq üçün ötən həftə Ankaraya etdiyi səfər də bu yöndə faydalı olmadı, Türkiyə öz mövqeyində qaldı. Belə görünür, 49 türk diplomatının girovluqdan azad olunmasından sonra da Ərdoğan iqtidarı İŞİD-lə mübarizədə Ağ Evin yanında yer almağa hazırlaşmır. İndi o da aydın olur ki, NATO-nun Uels sammiti çərçivəsində Obama ilə Ərdoğan arasında saat yarımlıq görüşün əsas mövzusu nə olub?

Dünənədək mühüm strateji tərəfdaşlar olmuş iki ölkə arasında soyuqluğun bu həddə çatması təbii ki, bir günün işi deyil. Başlıca amil 12 ildir hakimiyyətdə olan Ərdoğan iqtidarının ildən-ilə Amerikadan, Qərbdən, o cümlədən min bəhanə ilə Türkiyənin Avropa Birliyinə üzvlüyünü əngəlləyən Avropadan daha müstəqil siyasət yürütməsi ilə bağlıdır.

Belə müstəqil siyasətin tarixçəsi Qərbin İraqa müdaxiləsi zamanı Türkiyənin tutduğu mövqeyə, ardınca - 2010-cu ildə imzalanmış "Sürix protokolları"nın Ankaranın hesabına fiasko olmasına gedib çıxır - o zaman Türkiyə sərhədlərin açılmasını Qarabağ və işğal məsələsində ciddi irəliləyiş şərti ilə əlaqələndirərək Obama hökumətinin "Böyük Güney Qafqaz" projesinin reallaşmasına əngəl olmuşdu, ABŞ isə Ermənistan-Türkiyə sərhədlərinin qeyd-şərtsiz açılmasını, bununla da işğalçı ölkəni Rusiyanın ağuşundan qoparılmasına ümid edirdi. Sonrakı illər isə ərəb-İsrail münaqişəsində, Misir məsələsində Ankaranın açıq-aşkar anti-Qərb, anti-ABŞ mövqe sərgiləməsi ilə yadda qaldı. İndi İŞİD məsələsi.

Başqa bir versiyaya görə, son illər ərzində Türkiyə iqtisadiyyatının əhəmiyyətli şəkildə qabağa getməsi nəticəsində özünün müasir hərbi texnika və silahlar istehsalına başlaması, bu silahların Ermənistanla müharibə vəziyyətində olan Azərbaycana da verməyə başlaması okeanın o tayında qıcıq yaradır. Nəhayət, ilk dəfə olaraq Azərbaycanla Türkiyənin həmin silahlardan istifadə olunmaqla geniş miqyaslı birgə hərbi təlimlər keçirməsi (hələ başa çatmayıb) də Rusiya ilə yanaşı, bölgədə böyük energetik maraqları olan Qərb dairələrini də narahat edə bilərdi. Fakt budur ki, heç vaxt olmadığı qədər artıq güclü bir Türkiyə-Azərbaycan siyasi-hərbi tandemi yaranıb. Ankaranın müstəqilliyini birə-iki artıran, gücünə güc qatan bu faktor belə görünür, heç də Qərbin ürəyincə deyil.

Maraqlı situasiyadır, deyilmi? Belə çıxır ki, Ankaranın daha da güclənərək bölgədə müstəqil siyasət yürüməsini arzulamayan tək Moskva deyilmiş. Bəzi analitiklərə görə, Türkiyənin regionda "ifrat müstəqil siyasət yürütməsi" və özünü daha sərbəst regional oyunçu kimi aparmasını ABŞ uzun müddət həzm edə bilməyəcək və Ankaraya qarşı müəyyən kontur-planlar cızacaq. Bu, PKK, kürd məsələsi də ola bilər, erməni və ya Qarabağ məsələsi də. Yəni Vaşinqtonun Ankaranın məhz "ən zəif yerləri"ndən basacağı ehtimal edilir...

*****

Bu xüsusda Rusiyadakı Strateji Təhqiqatlar İnstitutunun direktoru Andrey İvanov vesti.az-a açıqlaması da maraq doğurur. Qərbin Dağlıq Qarabağ nizamlanmasında fəallaşmasından yaxşı heç nə gözləmədiyini deyən politoloq hesab edir ki, Vaşinqtonu Qarabağ məsələsinin ədalətli həlli heç vaxt düşündürməyib. Onun qənaətincə, Qarabağ fəallaşması sırf Amerika maraqları ilə bağlı olacaq.

"Amerikaya sərfəli olan mümkün ssenarilərdən biri isə budur: Türkiyəyə anlatmağın zamanı çatıb ki, o, yalnız Amerikanın orbitində ola bilər. Son zamanlar isə Ərdoğan kifayət qədər müstəqil siyasət aparır, halbuki Türkiyənin öncəki bütün rəhbərləri Qərb standartlarına sadiqliklərini sübut eləmək üçün az qala ABŞ qarşısında oynamağa belə hazır idilər. Bundan ötrü ən əlverişlisi, Ermənistanla Türkiyəni bir-birinə qarşı qaldırmaq və bu yolla həm Türkiyəni, həm də Rusiyanın KTMT üzrə müttəfiqini zəiflətməkdir. Dağlıq Qarabağ bu halda Azərbaycan və Ermənistan üçün hansısa "aldadıcı yem" olacaq. Yəni ki, kömək edəcəyik, müstəqilliyi tanıyacağıq və s. Ancaq belə "kömək"dən yaxşı heç nə gözləməyə dəymir. Onun yeganə nəticəsi qanlı müharibə olacaq..."

*****

Bu, əlbəttə ki, rus analitikin subyektiv fikirləridir. Ancaq onu mövcud reallıqlar fonunda tam iqnor eləmək də mümkün deyil. Yeri gəlmişkən, avqustun sonlarında Qarabağ münaqişəsi zonasında qəfildən atəşkəsin genişmiqyaslı pozulmasında Amerikanın da "əl izi" olduğu bildirilirdi. İddia edilirdi ki, bununla Ağ Ev həm də Ermənistanda daxili məxməri inqilaba rəvac verib qərbyönlü qüvvələrin hakimiyyətə gəlişini təmin eləmək, yekun etibarilə bu ölkəni Rusiyanın orbitindən çıxarmaq istəyir.

❑ **Siyasət şöbəsi**



# Yazıçı Ələviyyə Babayeva vəfat etdi

### Onunla vida mərasimi keçirilməməsi kimin günahıdır?

**Sentyabrın 23-də yazıçı Ələviyyə Babayeva dünyasını dəyişib. Yazıçının ailəsindən verilən məlumata görə, dünən səhər saatlarında vəfat edən Ələviyyə xanım Yasamal qəbiristanlığında, həyat yoldaşının yanında dəfn olunması vəsiyyət edib.**

Uzun illər Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuş Ələviyyə Babayeva ilə vida mərasiminin keçirilməməsi sosial şəbəkələrdə bir çox qələm sahiblərinin etirazına səbəb olub. Bir çox sadə insanlar isə Ələviyyə Babayevanın bu günə kimi yaşadığını onun ölüm xəbəri ilə öyrəndiklərini yazıblar.

Yazıçıya qarşı olan bu biganəliyə münasibət bildirən yazar **Aysel Əlizadə** facebook sosial şəbəkəsində yazdığı statusda Ələviyyə Babayevanın bu cür səssiz şəkildə dəfn olunmasından məyus olduğunu qeyd edib.

**"Yeni Müsavat"a açıqlama verən xanım yazar bildirib ki, Ələviyyə xanım tək-tük qadın yazarlarımızdan biri idi:** "Qadın yazıçı deyəndə fəxrlə Əzizə Cəfərzadəni, onu, onların ardınca gələn Afaq Məsudu, İradə Tuncayı örnək vermişik. Bütün yazıçı qadınları ruh qohumum sayıram. Adlarını çəkdiklərimi də, Vircinia Vulfu da, Jorj Sandı da. Elə bilirəm, mən ölmüşəm.

Ələviyyə xanım uzun illər "Gənclik" nəşriyyatının direktoru olub. Gözəl insan idi, istedadlı idi. Ağrıları, zərbələri olub. Bunu yazmadıq, araşdırmadıq. O cür qadına elə səssizcə ölmək yaraşırdımı? O bəlkə də düzgün öldü, amma biz cəmiyyət olaraq düzgün yaşamırıq.

Yazıçılar Birliyi onun dəfnini təşkil etməli idi. Hər halda, sıradan biri kimi ölüb getməli deyildi.

Onun haqqında son illər heç nə bilmirəm, etiraf edirəm ki, bu mənim günahımdır. Ancaq AYB-dən heç olmasa kimsə olmalıydı orada. Mən yasların, dəfn ziyafətlərinin əleyhinəyəm. Amma cəmiyyətin belə bir adəti, törəni varsa, o cəmiyyətin yazıçısının ölümü adi bir hal kimi ötüşdürülməli deyildi, ən azı ziyalıların ölümü".

**Ələviyyə Babayevanın vida mərasiminin təşkil olunmasına münasibət bildirən Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidmətinin rəhbəri Zöhrə Əliyeva bildirdi ki, yazıçılarla bağlı vida mərasimlərinin təşkilini Azərbaycan Yazıçılar Birliyi həyata keçirir:** "Rəhmətə gedən yazıçının dəfn mərasimini təşkil etmək nazirliyin vəzifəsi deyil. Ələviyyə Babayeva Yazıçılar Birliyinin üzvü olub və onlar bunu təşkil etməli idilər".

Zöhrə Əliyevanın sözlərinə görə, Ələviyyə Babayevanın ailəsi də onun səssiz şəkildə, yalnız ailəsinin, qohumlarının iştirakı dəfn olunmasını istəyib".

**Yazıçılar Birliyinin katibi Rəşad Məcid isə qeyd etdi ki, dünyadan köçmüş yazıçı ilə vida mərasiminin keçirilməsi bir protokol qaydasıdır və ancaq "Xalq yazıçısı" adını almış və rəsmi tituları olan şəxslər üçün keçirilir:** "Ələviyyə Babayevanın bu kimi titulları olmadığına görə o, vida mərasimi keçirilmədən, sakit şəkildə dəfn olundu. Ancaq AYB üzvləri onun yasında iştirak edəcəklər. AYB onun vəfatı ilə əlaqədar ailəsinə başsağlığı göndərib və bu, mətbuatda da dərc olunacaq".

**AYB-nin mətbuat xidmətinin rəhbəri Xəyal Rza isə bildirdi ki, Yazıçılar Birliyinin dəfn, vida mərasimlərinin təşkili ilə bağlı heç bir öhdəliyi yoxdur:** "Bu barədə dövlət qurumları tərəfindən qərar verilir və AYB də onu həyata keçirir. Bu məsələdə Azərbaycan Yazıçılar Birliyinin adını yanlış olaraq hallandırırlar. AYB xatirə günü, anım mərasimi, yaradıcılıq gecəsi keçirə bilər, ancaq dəfn mərasimінə müdaxilə etmir. Dövlətin özünün siyasəti var ki, kim hansı statusdadır, harada dəfn olunmalıdır, harada vida mərasimi keçirilməlidir. Yazıçılar Birliyi isə bu günə qədər heç zaman bu məsələlərə qarışmayıb. Bunu Mədəniyyət və Turizm Nazirliyindən soruşa bilərsiniz. Yazıçılar Birliyi dəfndə iştirak edib başsağlığı verir, hətta maddi yardıma ehtiyac olarsa onu da edir. Hazırda AYB-nin əksər üzvləri dəfndə iştirak edir".

Qeyd edək ki, Ələviyyə Babayeva 1921-ci il avqustun 12-də Bakıda anadan olub. Orta məktəbi bitirdikdən sonra ADU-nun filologiya fakültəsində təhsil alıb. Ədəbi fəaliyyətə 1936-cı ildə "Ədəbiyyat qəzeti"ndə dərc olunmuş "İki həyat" adlı hekayəsi ilə başlayıb.

O, hekayə, povest və romanlar yazmaqla yanaşı, müasir rus ədəbiyyatından tərcümələr edib.

"Azərbaycan qadını" jurnalında məsul katib (1951-1973), "Gənclik" nəşriyyatında müasir ədəbiyyat şöbəsinin müdiri (1973-1976), sonra baş redaktor (1976-1985) olub.

Azərbaycan Yazıçılar Birliyinin qəbul komissiyasının üzvü, tərcümə seksiyasının rəhbəri çalışıb.

Ə.Babayeva "Adamlar və talelər", "Səni axtarıram", "Əlvida", "Rəngbərəng yuxular" və s. kitabların müəllifidir.

"Yeni Müsavat" qəzeti olaraq, mərhum yazıçımıza Allahdan rəhmət, yaxınlarına səbir diləyirik.

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 238 (5947) 24 sentyabr 2014



# Çətin seçim ili

Azər RƏŞİDOĞLU

**2015-ci il Azərbaycan üçün həlledici olacaq. Gələn ildən balanslaşdırılmış xarici siyasət kursunu həyata keçirmək perspektivi olduqca qəliz görünür.**

İlk baxışdan yaranan təəssürat ondan ibarətdir ki, rəsmi Bakı artıq Rusiyaya doğru seçim edib. Lakin Cənubi Qafqaz və o cümlədən Azərbaycan Qərb üçün son dərəcə önəmli bölgədir. Bu baxımdan, ölkəmizin Rusiyanın təsir dairəsinə belə asanlıqla veriləcəyini ehtimal etmək də yanlış olardı.

Məsələ ondadır ki, Vaşinqton strateji bölgə olan Azərbaycana nəzarəti ələ keçirmək planına çoxdan malikdir. 2015-ci ilə qədər Qərb buna nail olmaq istəyəcək. İranla ciddi problemlər, habelə Əfqanıstana qoşunların göndərilməsi baxımından Azərbaycan kimi platsdarma Vaşinqtonun ehtiyacı var.

İstər Rusiya ilə bağlı deyilənlər, istərsə də dini ekstremizmin guya artdığını iddia etmək əslində Azərbaycanda dünyəvi dövlət quruluşunun təhlükədə olması barədə ictimai rəyin formalaşdırılması Qərb insanının fikirlərini manipulyasiya etməyə yönəlib.

Bu baxımdan Azərbaycanda islam təməlçiliyinin baş alıb getməsi barədə ictimai rəyin formalaşdırılması prosesi artıq uzun müddətdir getməkdədir. Bunun fonunda bəzi marginal dini icmaların özünü cəmiyyətə şəriət dövləti tərəfdarları kimi təqdim etmək cəhdləri, dindarların kütləvi həbsləri Azərbaycanda islam təməlçiliyinin baş alıb getməsi fikrini formalaşdırmağa xidmət edirdi.

Azərbaycanda guya şəriət dövlətinin qurulması barədə deyilənlər də məhz ABŞ qoşunlarının Azərbaycana gəlişinə şərait yaradılması üçün ortaya atılan siyasi texnologiyalardan xəbər verirdi.

Onu da unutmaq olmaz ki, ABŞ Azərbaycana çoxmilyonlu yatırımlar qoyub, ölkə Vaşinqtonun enerji layihələrində iştirak edir, geosiyasi amillərlə yanaşı bu iqtisadi faktor da təhlükəsizliyin zəmanətçisi kimi ABŞ qoşunlarının Azərbaycanda mövcudluğunu zəruri edən amillər sırasındadır.

Yaxın Şərqdəki son proseslər, İran, Əfqanıstan, İraq problemləri, Rusiyanın Azərbaycan və Gürcüstana hərbi müdaxilə təhdidləri də ABŞ qoşunlarının ölkəmizə gəlişini xeyli dərəcədə aktual edir.

Lakin bu məsələdə rəsmi Bakının razılığının alınması problematik görünür. Azərbaycan hakimiyyəti belə bir qərara razılıq verməsi, Tehran və Moskvanın qəzəbinə səbəb ola bilər, odur ki, Bakıya Vaşinqton tərəfindən kompensasiya ödənməlidir.

Bəzi təhlilçilərin fikrincə, belə bir kompensasiya 2015-ci il parlament seçkilərində mövcud iqtidarın dəstəklənməsi ola bilər. Görünür, son zamanlar Azərbaycan hakimiyyətinə qarşı artan təzyiqlər də məhz bu amillə bağlıdır. Bəzi məlumatlara görə, rəsmi Bakı buna razılıq verərsə, ölkə rəhbərliyinin ABŞ səfəri təşkil oluna bilər və yüksək səviyyələrdə keçiriləcək bu görüşlərdə rəsmi Bakı Amerika qoşunlarına "yaşıl işıq" yandıra və əvəzində hakimiyyət üçün hava və su kimi zəruri olan siyasi dəstək qazana bilər...

Bunun işartıları artıq görünməyə başlayıb. ABŞ-ın vitse-prezidenti C.Kerrinin "Əsrin kontraktı"nın 20 illiyi ilə bağlı Azərbaycan prezidenti İlham Əliyevə göndərdiyi məktubda xeyli isti mesajlar var. Kerrinin İ.Əliyevə məktubu "biz Sizinlə və sizin hökumətlə işləməyə davam edəcəyik" cümləsi ilə bitir...

# Cənub Qaz Dəhlizi Azərbaycan hakimiyyətinin əhəmiyyətini artırır

## Demokratiya indi də qazda boğulacaq?; Natiq Miri: "Qərb Azərbaycandan bütün almalı olduqlarını artıq alıb"




**Ötən həftənin sonunda Bakıda "Cənub Qaz Dəhlizi"nin genişləndirilməsi layihəsinin təməli qoyuldu. Bu layihə "Şah-Dəniz" qazının "Səngəçal" terminalından Türkiyəyə, oradan isə Avropaya nəqlini nəzərdə tutur. ARDNŞ prezidenti Rövnəq Abdullayev kəmər vasitəsilə Şahdəniz yatağından hasil olan qazın 2019-cu ildə Avropaya çatdırılacağını bildirib.**

Yeni ixrac kəməri Bakı-Tibilisi-Ərzurum kəmərinə paralel çəkilərək Gürcüstandakı qaz infrastrukturuna bağlanılacaq. Daha sonra isə qaz Türkiyədə tikiləcək TANAP kəməri ilə Qərbə ötürülməlidir.

Bu layihənin Azərbaycan üçün faydasının böyük olduğu şübhəsizdir. Sözügedən layihənin Azərbaycana Avropa üçün bu regionda ən əhəmiyyətli ölkə statusunu qazandırdığını söyləmək olar. Layihə çərçivəsində reallaşdırılacaq kəmər qaz resurslarımızı dünya bazarına çıxarmağa imkan verəcək. Bu layihə ilə tranzit ölkələrə yeni imkan yaranır, istehlakçı ölkələr yeni mənbə əldə edir.

Bir sıra siyasətçilər və ekspertlər iddia edir ki, belə bir layihənin reallaşması Azərbaycanın əhəmiyyətini artırdığı üçün paralel olaraq onun hakimiyyətinin də Avropa üçün əhəmiyyətini artırır. Ona görə də bundan sonrakı mərhələdə hakimiyyətə demokratiya və insan haqları kimi məsələlərlə bağlı heç bir irad, təzyiq olmayacaq.

Bu mövzuda söhbət etdiyimi **politoloq Natiq Miri** də hesab edir ki, Avropaya Azərbaycandan qaz nəqlini nəzərdə tutan Cənub Qaz Dəhlizi layihəsinin təməlinin qoyulması ilə Azərbaycanın Avropanın enerji təhlükəsizliyində iştirakçı olacaq. Bu, çox ciddi hadisədir və Azərbaycanın Avropa üçün əhəmiyyətini artırır: "Azərbaycan dövləti Qərb dünyası üçün bundan sonra daha da əhəmiyyətli, lazımlı ölkə statusunu qazanmış olur. Azərbaycan bu gün Qərb üçün mühüm geostrateji ölkədir. Azərbaycanın Xəzər hövzəsi ölkəsi olması, İran və Rusiya ilə həmsərhəd olması onun geostrateji önəmini daha da artırır".

**Bununla belə, N.Mirinin fikrincə, Azərbaycanın əhəmiyyətinin artmasının bundan sonra Qərbin demokratiya və insan haqları sahəsindəki problemlərlə bağlı heç bir reaksiya verməməsinə, hakimiyyətə bu məsələlərlə bağlı heç bir təsir göstərməməsinə səbəb olacağı gözlənilmir:** "Çünki Qərb dünyası Azərbaycandan bütün almalı olduqlarını alıb. Yəni neft və qaz məsələlərində Azərbaycandan nəyi almaq onlara lazım idisə, məlum layihələri reallaşdırmaqla ala biliblər. İqtisadi sahədə bütün istəklər həyata keçirilmiş sayıla bilər. Qərbin Azərbaycanla bağlı hələ reallaşdıra bilmədiyi məsələ Azərbaycanın Avropa Birliyinə inteqrasiyası, ölkənin lazımi səviyyədə demokratikləşməsidir. İqtisadi hədəflərə artıq demək olar ki, çatdıqları üçün bundan sonrakı mərhələdə məhz bu iki məsələnin reallaşması istiqamətində addımlar atılması müşahidə olunacaq. Ukrayna-Rusiya qarşıdurmasından sonra artıq dünyada yeni bir vəziyyət yaranıb. Bu vəziyyət bilavasitə Rusiya ilə bağlıdır. Söhbət ondan gedir ki, bu gün ABŞ Ukrayna bataqlığında Rusiyanı zəiflətməyə çox ciddi mənada çalışır və tədricən buna nail olur. Bu proses davamlı olduqca Rusiya daha da zəifləyəcək. ABŞ Rusiyanı bütün cəbhələrdə zəiflədir və ikinci dərəcəli oyunçu vəziyyətinə salır. Rusiya ilə bağlı plan lazımi həddə reallaşdırıldıqdan sonra isə bütün regional münaqişələr həll olunacaq. Postsovet məkanındakı ölkələrin iqtidarlarına Avropa Birliyi məkanına ciddi inteqrasiya etmələri üçün asanlıqla təsir ediləcək. Postsovet məkanındakı ölkələr, o cümlədən Qərb üçün əhəmiyyəti böyük olan Azərbaycan demokratikləşəcək".

Politoloq vurğuladı ki, əgər bu gün kimlərsə gözləyirsə ki, qaza görə bundan sonra Avropadan-Qərbdən insan haqları və demokratiya ilə bağlı heç bir reaksiya olmayacaq, bu, yanlış təsəvvürdür. Demokratiya və insan haqları məsələsi bundan sonra tədricən birinci dərəcəli məsələyə çevriləcək. Avropa Parlamentinin son qətnaməsi ilə Qərb əslində xəbərdarlıq mesajı verib.

❑ E.SEYİDAĞA

# "Xodorkovski Putinə ciddi rəqib ola bilər"

## Elxan Şahinoğlu: "Əgər o, verdiyi bəyanatlardan sonra Moskvaya qayıtmasa, Rəsul Quliyevin taleyini yaşayacaq"

**"Əgər böhran olarsa və şərait tələb edərsə, Rusiyanın prezidenti olmağa hazıram". Bu sözləri Parisdə "Mond" qəzetinin 70 illiyi ilə bağlı tədbirlərdə "YUKOS" neft şirkətinin rəhbəri olmuş, keçmiş "vicdan məhbusu" Mixail Xodorkovski deyib.**

Putinin əzəli rəqibi olan Xodorkovski çıxışında sərt ifadələr işlədib: "Rusiyada hakimiyyət bölgüsü yenidən keçirilməlidir. Prezidentin səlahiyyətləri məhkəmənin, parlamentin və ictimai təşkilatların xeyrinə azaldılmalıdır".

Xodorkovski bildirib ki, onun rəhbərlik etdiyi "Otkrıtaya Rossiya" hərəkatı Avropada yaşayan rusların internet üzərindən ilk tədbirini keçirib, Putinə qarşı mübarizəyə hazırlaşırlar. O bəyan edib ki, Putin məyus olacaq.

**Amma "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi şərhçi Elxan Şahinoğlu** Xodorkovskinin ölkəsinə qayıdacağını güman etmir. Politoloqun fikrincə, Rusiyada müxalifət pərən-pərən salınıb. Bu şəraitdə siyasi ekspert hesab edir ki, Xodorkovski Putinə qarşı olan qüvvələri öz ətrafını toplaya bilsə, Kreml iqtidarı üçün ciddi başağrısına çevrilə bilər.

"Xodorkovski ağıllı insandır. SSRİ dağılandan sonra özəlləşdirmədə böyük imkan sahibi oldu, biznes qurdu. Putin iqtidara gələndən sonra Xodorkovski liberal dəyişikliklərə tərəfdar çıxdı və müxalif qüvvələrə dəstək verdi. Amma onu saxta ittihamlarla həbs etdilər. Rusiya isə bu həbsə görə Qərbin ciddi təzyiqi ilə üzləşdi. Müasir Rusiya tarixində belə hal olmayıb ki, Rusiya Qərbin qarşısında geri çəkilsin, onu əfv edib




buraxsın. Üstəlik, pasport verib ölkədən getməsinə şərait yaratdılar. Çünki Putin və ətrafı onun fəaliyyətindən qorxurdu".

**E.Şahinoğlu Xodorkovskinin çıxışını Putinə mesaj kimi qiymətləndirir:** "Həbsdən çıxanda müflis olmuşdu, "YUKOS" şirkəti əlindən alınmışdı Amma xarici banklarda səhmləri, hesabları qalırdı. Xodorkovskinin çıxışı o deməkdir ki, Putin özünü bu qədər rahat apara bilməz. O, Putinə ciddi rəqib ola bilər. Hazırda Rusiyada müxalifət fəallaşmağa çalışsa da, gerçək lider yoxdur. Mən onun Moskvaya qayıdacağını proqnozlaşdırmıram. Amma qayıtsa, ciddi problem yarada bilər".

**Politoloqun mülahizələrinə görə, Xodorkovski ölkəsinə qayıtmaq qərarı verməsə, Rəsul Quliyevin taleyini yaşayacaq:** "Rəsul Quliyevin 10 il əvvəlki reytinqinə baxın və indini müqayisə edin. O zaman iqtidarı sərt tənqid edirdi, Amerikadan çıxışlar edirdi, xalqa gələcəyini vəd verirdi. Amma gəlmədi və nüfuzu düşdü. Xodorkovski də verdiyi bəyanatın arxasından Moskvaya qayıtmasa, oxşar siyasi aqibətlə üzləşəcək".

Qeyd edək ki, 1997-2004-cü illərdə "YUKOS" neft şirkətinin əsas sahibi və rəhbəri olmuş Xodorkovskiy 2005-ci ildə məhkəmə tərəfindən dələduzluq və başqa cinayətlərin törədilməsində təqdirli bilinərək 11 il azadlıqdan məhrum edilmişdi.

Putinin sifarişi ilə "YUKOS" şirkəti müflis elan edilmişdi. Yalnız beynəlxalq yəhudi lobbisinin davamlı təzyiqi nəticəsində prezident Putin 20 dekabr 2013-cü il tarixli sərəncamı ilə Xodorkovskini əfv etdi.

❑ E.SALAMOĞLU

YENİ MÜSAVAT
N 238 (5947) 24 sentyabr 2014

# Deputatla icra başçısının adı müdhiş ev fırıldağında

## Eldar Əzizovla Hacı Madərin himayəsində olduğu iddia edilən dələduz tikinti şirkəti yüzlərlə vətəndaşa eyni mənzili sataraq milyonlar mənimsəyib, "Dağlar" MTK rəhbərliyinə cinayət işi açılıb



**Bakıda mənzil-tikinti kooperativlərinin (MTK) ardı-arası kəsilməyən fırıldaqçılıq və dələduzluq əməllərindən daha biri üzə çıxıb. "Dağlar" MTK tərəfindən aldadılmış zərərçəkənlərin bir qrupu virtualaz.org-a müraciət ediblər. Onlar bu ilin yayında nağd pul ödəyərək "Dağlar" MTK-nın Bakının Nərimanov rayonu, Təbriz küçəsi, 63 ünvanında inşa etdiyi binadan mənzillər alıblar. Çox keçmədən məlum olub ki, həmin mənzillər əslində daha əvvəl, bəzi hallarda isə onlara satılandan sonra başqalarına satılıb.**

Təkcə həmin binada "Dağlar" MTK rəhbərlərinin dələduzluq əməllərindən zərər çəkənlərin sayı 25-ə yaxındır. MTK rəhbərliyi onların 1,5 milyon manata yaxın vəsaitini mənzil satmaq adı altında mənimsəyib.

Ədliyyə Nazirliyinin qeydiyyat sənədlərində "Dağlar" MTK-nın təsisçisi və sahibi kimi Çingiz Rzayevin adı yer alır. Şirkətin icraçı direktoru isə onun qohumu Şahin Əliyevdir. Təsisçilər arasında həmçinin Çingiz Rzayevin qardaşı Gündüz Rzayevin və daha üç nəfərin adı var.

Zərərçəkənlərdən biri Etibar Əliyev deyib ki, o, "Dağlar" MTK-nın inşa etdiyi binadan ötən ilin avqustunda üçotaqlı mənzil alıb və 122 min manatı nağd şəkildə şirkətin icraçı direktoru Şahin Əliyevə ödəyib.

Mənzil alqı-satqısı haqda MTK ilə vətəndaş arasında bağlanmış müqavilə notariusda təsdiqlənib.

E.Əliyev aldığı mənzili təmir etdirib və bu işə daha 40 min manata yaxın xərc çəkib. Ancaq bir neçə ay əvvəl məlum olub ki, mənzil başqasına satılıb. Zərərçəkən deyir ki, mənzilinin başqasına satılmasından ora köçməyə hazırlaşarkən xəbər tutub.

Məlum olub ki, mənzilin yeni sahibi qapının qıfılını dəyişdirib. Zərərçəkən bildirir ki, hazırda o, qıfılı sındırmaqla mənzilə daxil ola bilib və orada yaşayır. Ancaq sənədlərdə mənzilin iki sahibi var.

Digər zərərçəkən Məmmədov Sadiq Hüseyn oğlu da eyni sxemlə aldadılıb. Eyni problemlə üzləşən şikayətçi Çingiz Hüseynov "Dağlar" MTK-ya 180 min dollar ödəyib.

Zərərçəkənlərin bildirdiyinə görə, eyni mənzilin ayrı-ayrı vaxtlarda nəinki iki, hətta 5-6 adama satılması halları mövcuddur. Vətəndaşların dediyinə görə, DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi şikayət əsasında "Dağlar" MTK-nın icraçı direktoru Şahin



Eldar Əzizov



Hacı Madər

Əliyevi saxlayıb, ancaq faktla bağlı cinayət işi qaldırılmayıb və onu vətəndaşların pullarını geri qaytarmaq şərti ilə buraxıblar. Lakin Ş.Əliyev pulları qaytarmayıb.

Nəhayət, bir neçə gün əvvəl Nərimanov Rayon Polis İdarəsi tərəfindən "Dağlar" MTK-nın rəhbərlərinə qarşı Cinayət Məcəlləsinin 178-ci maddəsi *(dələduzluq əməli)* ilə cinayət işi qaldırılıb. Buna baxmayaraq, zərərçəkənlər deyir ki, polis dələduzların saxlanması üçün əməli addımlar atmır.

Bəzi iddialara görə, Ç.Rzayev Sumqayıtın icra başçısı Eldar Əzizovun adından istifadə edir. Həmçinin Ç.Rzayevin Binəqədidən deputat olan Hacı Madərin himayəsində olduğu haqda iddialar səslənir.

Qeyd edək ki, Azərbaycanda mənzil tikintisi adı ilə vətəndaşların milyonlarla pulunu mənimsəyən tikinti şirkətlərinin sayı durmadan artır. Buna qədər "GEN" MMC-nin rəhbəri Elbrus Əliyev siyahıda birinci yeri tuturdu. 300-dən çox vətəndaşın 8 milyon manatını mənimsəyən Elbrus Əliyevə Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmədə 14 il həbs cəzası verilib.

Ardınca "Şakir" MMC tikinti şirkətinin rəhbəri Şakir Hüseynov və şirkətin əməkdaşları 2008-ci ildə həbs ediliblər. Vətəndaşların şikayətçi olduqları "Mur -Ay", "AZİK", "KAPİTAL-QRUP" MMC var. İlkin hesablamalara görə, belə adamların sayı 5 mini ötüb.

"Birlik inşaat", "Şaiq", "Safari-N", "Olimpus", "Orxan" və "Kamran- B.Ə." MMC tərəfindən minlərlə vətəndaş aldadılıb. Habelə, "Fuad LTD", "Xəzərə mənzərə" adlı MMC-lərin dələduzluğu ucbatından yüzlərlə ev qurbanı var.

Ekspertlərin sözlərinə görə, bu cür şirkətləri əvvəlcə yüksək çinli məmurlar himayə etsə də, sonra dələduzluğun əndazəni aşdığını görüb, arxasından çəkilirlər. Bu da hökumətlə vətəndaşları üz-üzə qoyur.

❑ E.SALAMOĞLU

# ABŞ kəşfiyyatının su qıtlığı proqnozuna azərbaycanlı ekspertlər nə deyir?

**Milli Ekoloji Proqnozlaşdırma Mərkəzinin rəhbəri Telman Zeynalov:** "Artezian quyuları qazılmalıdır, ehtiyat su anbarları tikilməlidir"
**Meliorasiya və Su Təsərrüfatı ASC-nin şöbə müdiri Məmməd Əsədov:** "Kür-Araz beynəlxalq su hövzəsinin mənsəbində yerləşmişik. Bizdə niyə su qıtlığı olmalıdır?"

**ABŞ kəşfiyyatı dünyanın üzləşdiyi qlobal problemlərin sırasına birini də əlavə edib. "Forreign Policy" jurnalının yazdığına görə, ABŞ kəşfiyyatı su resurslarının qıtlığına görə hətta yeni müharibələrin başlaya biləcəyini də iddia edir.**

ABŞ kəşfiyyatı bildirir ki, bu gün dünyanın 39 ölkəsi içməli suyun böyük hissəsini ölkə xaricindəki mənbələrdən alır. Bu ölkələrə Azərbaycan, Latviya, Slovakiya, Özbəkistan, Ukrayna və s. daxildir.

ABŞ kəşfiyyatının gəldiyi qənaətlərə onu da əlavə edək ki, Azərbaycanda quraqlıq artıq özünü göstərməkdədir. Belə ki, ölkənin əksər rayonlarında quraqlıq səbəbindən fermer təsərrüfatlarına ciddi şəkildə ziyan dəyib. İyun ayından etibarən yay ayları ərzində yağıntının olmaması, eləcə də içməli su qaynaqlarının quruması əhalini içməli suyu maşınlarla almağa vadar edib. Bölgə sakinlərindən redaksiyamıza daxil olan məlumatlara görə, bir çox rayonların mərkəzində belə insanlar içməli suyu pulla almalı olurlar, əkin sahələrinin suvarılmasından isə söhbət belə getmir, fermer təsərrüfatları yağacaq yağışların ümidinə qalıb. Bu tendensiyanın növbəti il ərzaq bazarında nə dərəcədə qıtlığa və bahalaşmaya səbəb olacağı yəqin ki, heç kimə sirr deyil.

**"Mövcud durumdan çıxış yolu nədir" sualını cavablandıran Milli Ekoloji Proqnozlaşdırma Mərkəzinin rəhbəri Telman Zeynalov baş verənləri qlobal iqlim dəyişikliyi ilə əlaqələndirir:** "Son dövrlər Sakit okeanda ellinyo cərəyanının axını başlayıb. Ellinyo isti çay axını deməkdir, bu təbiət hadisəsi nəticəsində cənuba yağıntıların miqdarı azalır və quraqlıq başlayır. Yağıntılar isə ancaq şimala doğru yönəlir. Bu səbəbdən Şərqi Avropada yağıntıların miqdarı artır, şəhərlər suyun altında qalır. Rusiyanın şimalında yağıntılar artıq qar, dolu şəklini alıb, axşamlar havada şaxta artır və bu, Azərbaycanda da hiss olunur. Yəni sərt qış dövranı yaxınlaşır".



**Rayonlarda su qıtlığının yaşanması səbəbinə gəlincə, ekspert bunu havaların quraqlıq keçməsi ilə əlaqələndirir:** "Ancaq su qıtlığının aradan qaldırılması üçün dövlətin müvafiq strukturları yaz və payız aylarında yağan yağıntıları anbarlaşdırmalıdır ki, yayda baş verən quraqlıq zamanı əkin sahələrini suvarmaq üçün istifadə edə bilsinlər. Sovet dövründə bu tədbirlər həyata keçirilirdi. Ancaq indi həmin su anbarları bu və ya digər şəxslər tərəfindən özəlləşdirilib və orada balıq yetişdirilməsi və sair məqsədlər üçün istifadə olunur. Digər tərəfdən isə fermerlər su qıtlığından əziyyət çəkirlər. Yaxşı olar ki, yeni ehtiyat su anbarları yaradılsın və yerli bələdiyyə və ya icra hakimiyyəti tərəfindən onlara nəzarət olunsun, kimlərsə tərəfindən istismarına icazə verilməsin. Bu tədbirlər görülərsə, quraqlıq yaranan zaman kənd təsərrüfatı ciddi ziyan görməz. Su anbarlarının tikilməsi üçün Fövqəladə Hallar Nazirliyinin razılığı olmalıdır. Dövlətin sərəncamı və dünya bankının sərmayəsi ilə investisiya layihələri həyata keçirilə bilər və quraqlıq yaranan rayonlarda su qıtlığının qarşısını almaq üçün istifadə edilə bilər".

**Müsahibimizin sözlərinə görə, yaxşı olar ki, artezian quyuları qazmaqla içməli su və suvarma sularını oradan əldə etsinlər və su qıtlığının kənd təsərrüfatına vuracağı ziyanın qarşısı alınsın:** "Çünki quraqlıq ərzaq məhsullarının istehsalının minimuma endirilməsi və qiymətlərin qalxması deməkdir. Bu isə əhalinin sosial problemlərinin artmasına səbəb olacaq. Yaz və payız aylarında suların anbarlara yığılması, artezian quyularının qazılması bu problemin çıxış yoludur. Su qıtlığı hər zaman müşahidə olunub və buna qarşı tədbirlər görmək vacibdir. Bu isə birbaşa dövlətin məsuliyyət daşıdığı bir məsələdir".

**"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin elm, tikinti, layihə və xarici əlaqələr şöbəsinin müdiri Məmməd Əsədov isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, problemin həlli kimi yeni su anbarlarının tikilməsi ilə bağlı hökumətə təkliflər verib:** "Biz Taxtakörpü və Şəmkirçay su anbarını tikmişik. Şəmkirçay su anbarı Samux, Goranboy, Şəmkir rayonlarının həm su təminatının yaxşılaşmasına, həm də yeni suvarılan torpaq sahələrinin istifadəsinə imkan yaradacaq".

**Ekspertin sözlərinə görə, Azərbaycanın su ehtiyatlarının 30 faizi daxildə formalaşır, 70 faizi isə xarici mənbələrdən, qonşu ölkələrdən gəlir:** "Təsəvvür edin ki, Kür-Araz beynəlxalq su hövzəsinin mənsəbində yerləşmişik. Bizdə niyə su qıtlığı olmalıdır? Biz heç olmasa daxili su ehtiyatlarımızdan istifadə etməliyik. Çaylar üzərində su anbarları tikməliyik. Payız və yaz aylarında çayların şirin suyu axıb Xəzərə gedir, yay gələndə isə su qıtlığı yaranır. Ona görə də bunun nizamlanması, anbarlaşdırılması lazımdır. Onu da deyim ki, bizim çaylarımız ərazi üzrə qeyri-bərabər paylanıb. Bunun qarşısını almaq üçün yeni su anbarları tikilməlidir. Biz hökumətə bununla bağlı təkliflər vermişik. Tülyançay, Girdimançay, Əlicançay üzərində su anbarlarını tikilməsi üçün layihələr təqdim etmişik. Bir çox yerlər, əsasən də cənub bölgəsi üçün bu cür təkliflər var. Su anbarları il boyu su ehtiyatlarının bərabər miqdarda bölünməsini təmin edir. Bu il bütün dünyada su qıtlığı müşahidə olunur, yağıntı az olduğu üçün quraqlıq baş verib".

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 238 (5947) 24 sentyabr 2014


Rəşad Mirələmov

# Deputatın qardaşının qatil oğluna ömürlük cəza verdilər

**Bakı Ağır Cinayətlər Məhkəməsində qətl törətməkdə təqsirləndirilən Rəşad Mirələmovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb. APA-nın məlumatına görə, prosesdə hökm oxunub. Hökmə əsasən, R.Mirələmov ömürlük azadlıqdan məhrum edilib.**

Qeyd edək ki, Baş Prokurorluğun mətbuat xidmətinin hadisə ilə bağlı yaydığı məlumata görə, 17 iyul 2012-ci il tarixdə paytaxtın Səbayel rayonu ərazisində fəaliyyət göstərən "1001 gecə" istirahət mərkəzində ölümlə nəticələnən insident baş verib. İstintaq zamanı Rəşad Mirələmovun "Makarov" markalı tapança ilə Ramal Bayramovu qəsdən öldürməsi, Səməd Mənsimov, Elmar Süleymanov və qeyrilərini qəsdən öldürməyə cəhd etməsi müəyyən olunub. O, Cinayət Məcəlləsinin 120.2.4, 120.2.5, 120.2.10, 120.2.11, 29, 120.2.7 (qəsdən adam öldürmə), 182.2.3, 182.2.4, 182.3.2, 182.3.3 (hədə-qorxu ilə tələb etmə) və 228.1-ci (qanunsuz olaraq silah əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə) maddələri ilə ittiham edilib.

R.Mirələmov deputat Hüseynbala Mirələmovun qardaşı oğludur.


## Elan

**Hacıqabulda İpək Yolunun yanında 47 hektar torpaq sahəsi, çobanlar üçün 2 ədəd 2 otaqlı , 1 ədəd 4 otaqlı qonaq evi, 3 hektar meyvə bagı, 200 ədəd mal-qara saxlamaq ücün daşdan tikilmiş tövlələr, 10 min ot bagı üçün yem anbarı, 2 ədəd balıq gölü, daimi işıgı, suyu. Qaz çəkdirmək üçün sənədlər ( texniki-şərt), 0,5 hektar torpaq sahəsi olan restoran, 30 metr üzüm talvarı olan ferma satılır. Ətrafında əlavə 100-150 hektar torpaq sahəsi var.**

**Əlaqə nömrəsi : (050)-214-40-53**

## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**




# Biləsuvar sakini borcunu geri ala bilmir

## "Şikayət edən kimi ya dəlixanadan, ya da polis bölməsindən gəlib bizi zorla maşına qoyub aparırlar"

**Biləsuvar şəhəri, Baloğlan Abbasov küçəsi, ev 23 ünvanda yaşayan Şəhla Məmmədova üzləşdiyi çətinlikləri ictimailəşdirməyimiz üçün redaksiyamıza üz tutub. 2005-ci ildən bu yana başına gələn haqsızlıqları, işgəncələri danışan Ş.Məmmədova illərdir ki, problemlərinin həlli üçün hər ay Bakıya gəldiyini dedi.**

Vaxtilə Biləsuvardakı "Ruslan" ticarət mərkəzində dükan alaraq ticarətlə məşğul olan şikayətçi deyir ki, həmyerlisi Seyran Mirzəyev 2005-ci ildə Pərvanə Səmədovanın zamin durması ilə onun dükanından 1400 manatlıq nisyə mal götürüb. Bir il keçməsinə rəğmən bu məbləği geri qaytarmayan S.Mirzəyevi məhkəməyə verib. Biləsuvar Rayon Məhkəməsi müraciətə müsbət cavab verərək, borclu tərəfin məbləği geri qaytarmalı olması ilə bağlı qərar verib. Bundan sonra ciddi təzyiqlərlə üzləşdiyini deyən Ş.Məmmədova dəfələrlə döyüldüyünü söylədi:

"Atam rəhmətə gedib. Anam, xəstə bacım və mən bir yerdə yaşayırıq. Əvvəl pis-yaxşı dolanırdıq. Amma bu hadisədən sonra başımıza gəlməyən qalmadı. Seyranla Pərvanə bazar müdiri Mikayıl Heydərovun yaxın adamlarıdır. 12 metr uzunu, 6 metr eni olan dükanımı satdılar, taladılar. Heç nəyim yoxdur. Evdə olanları da satmışıq. Dəfələrlə döyülüb, böhtan-şərə məruz qalmışam. İllərdir də Prezident Administrasiyasına şikayətə gəlirəm ki, bəlkə dərdimə əlac ola, bəlkə dinləyən tapıla. Olmur ki, olmur. Burdan da qovuluram. Hər ayın əvvəli qəbuldur. Pulum da olmur. Məscidlərdə yatıram. Gəlirəm qəbula, nə qədər gözləyirik, bizi qəbul edən olmur. Deyirik, nə qədər lazımdır gözləyək. Onda da ya dəlixanadan, ya da polis bölməsindən adamlar gəlib bizi zorla maşına qoyub aparırlar. Prezident Administrasiyasından da qovulandan sorna bilmirəm hara gedək, başımıza haranın daşını tökək?!"

Yazıda adıçəkilən şəxslərin də mövqeyini çap etməyə hazırıq.

**Fərìdə ABDIYEVA**


ORİJİNAL AKSESUARLAR
Ucuz qiymətlərə, gözəl, keyfiyyətli hədiyyələr və ev üçün bəzək əşyaları



ünvan
"SƏDƏRƏK" TİCARƏT MƏRKƏZİ
*3-cü zona, 15-ci sıra, 40 nömrəli mağaza*

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**
Tel: (055) 776-70-34




# Bakıda silahlı şəxs həbs olundu

**Bakının Xətai rayonu ərazisində polis xüsusi əməliyyat keçirib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən ANS PRESS-ə verilən məlumata görə, əməliyyat Xətai Rayon Polis İdarəsi 37-ci polis bölməsinin əməkdaşları tərəfindən keçirilib.**

Keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində əvvəllər də 8 dəfə məhkum olunmaqla 20 il həbsdə yatmış Bakı şəhər sakini, 43 yaşlı Çingiz Hacıyev şübhəli şəxs qismində saxlanılıb.

Onun üstünə baxış zamanı sandıqçasında 3 ədəd güllə olan "Makarov" markalı tapança aşkarlanaraq maddi sübut kimi götürülüb. Təxminən 2 ay əvvəl azadlığa çıxan Çingiz Hacıyev ilkin ifadəsində bildirib ki, silahı guya bir neçə gün bundan qabaq tapıb. Elə həmin vaxtdan da üstündə gəzdirməyə başlayıb.

Saxlanılan şəxs onu da bildirib ki, tapançanı satmaq niyyətində olub. Bunun üçün müştəri də axtarıb. Lakin polis əməkdaşları onu yaxaladığından istəyinə çata bilməyib.

Silahdan hər hansı cinayətdə istifadə edilib edilmədiyini kriminalistik ekspertiza araşdırır.

Faktla bağlı cinayət işi başlanıb. İstintaq saxlanılan şəxsin soyğunçuluq və oğurluq cinayətləri törətdiyini də ehtimal etdiyindən bu istiqamətdə araşdırmalar davam etdirilir.

Fotoda gördüyünüz bu şəxsin cinayət əməllərindən zərərçəkmiş vətəndaşlardan Xətai Rayon Polis İdarəsinə müraciət etmələri xahiş olunur.



# Evdən qaçan məktəbli qıza kütləvi şəkildə təcavüz etdilər

**Azərbaycanda 14 yaşlı qızın cinsi zorakılığa məruz qalması barədə hüquq-mühafizə orqanlarına məlumat daxil olub. Lent.az-ın məlumatına görə, bir neçə gün əvvəl Zərdab rayonunda Ağdaş rayon sakini olan yeniyetmə qız zorlanıb.**

Bildirilir ki, Ağdaş şəhərində yaşayan 14 yaşlı S.M və onunla qonşuluqda yaşayan 15 yaşlı A.H bir neçə gün əvvəl analarına acıq edərək evdən qaçıblar. Onlar əvvəlcədən internetdən tanış olduqları və sosial şəbəkədə Vüqar adı ilə qeydiyyatdan keçmiş Zərdab şəhər sakininin dəvəti ilə həmin rayona gediblər. Lakin burada həmin şəxs qızları qarşılamayıb və onları evdə yerləşdirməyib. Qızlar axşam saatlarında Zərdabda çaş-baş vəziyyətdə var-gəl ediblər, qalmağa yer-hotel axtarıblar. Bu zaman rayondakı bir qrup oğlan qızların arxasınca düşüb və onlara seksual xarakterli təkliflər ediblər.

Polisə daxil olan müraciətdə qeyd olur ki, 14 yaşlı S.M bir neçə oğlan tərəfindən zorla cinsi əlaqəyə məcbur edilib. Səhər saatlarında hər iki qız polis tərəfindən aşkar edilərək şöbəyə gətirilib və daha sonra ailələrinə təhvil verilib.

Qeyd edək ki, ilkin araşdırmalar nəticəsində yeniyetmə qızlarla internetdə tanış olaraq onları Zərdaba dəvət edən şəxsin adının Vüqar olmadığı üzə çıxıb. Həmin şəxsin ifadəsi alınıb. Onu da qeyd edək ki, evdən qaçaraq başqa rayona gedən hər iki qız məktəblidir.

Hazırda faktla bağlı araşdırmalar davam etdirilir.


*Əyləncəli, sürətli, asan!*



Speak English

*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

- İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!
- Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!
- Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!
- Əla tələffüz və güvənlə danışmaq
- Real ingiliscə söhbətlər

BONUS
english EXPLOSION
*dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!*

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*

**Dünyanı idarə edən şəxslərin həyatı hər zaman maraq kəsb edib. Xüsusən də onlar nə geyinir, bürcləri nədir, uşaqlıqları necə keçib... Lenta.ru saytı dünən prezidentlərin menyusu ilə bağlı maraqlı bir məqalə yayıb. "Yeni Müsavat" həmin yazını oxucularına təqdim edib.**

# Prezidentlərin ürəyinə gedən yol... mədəsindən keçir

## Dünyanı idarə edənlərin mətbəx sirləri "Yeni Müsavat"da...





### Hansı prezident nə yeyir, nə içir?

**Pendir dəlisi kim Çen İn**

Siyahıya Şimali Koreya prezidenti Kim Çen İnin menyusu rəhbərlik edir. Ötən həftə məlum olub ki, Kim Çen İn "Emmental" pendirinə görə xeyli kökəlib. Prezident sevimli pendirinə o qədər aludə olub ki, bu, onun sağlamlığına təsir edib. İn ailəsinin eks baş aşpazı Kenci Fucimoto deyib ki, Kim Çen İn köpək balığı üzgəcindən hazırlanmış yeməkləri bəyənir. Hətta o, keçmiş aşpazını 2012-ci ildə ölkəyə səfəri zamanı akula steykinə qonaq edib. Şimali Koreyadan Yaponiyaya qaçmış Kenci Fucimotonun sözlərinə görə, Kim Çen İn hələ 2001-ci ildə, yəni 14 yaşı olandan araq içir və bütün butulkanı başına çəkə bilirdi. Onların sonuncu görüşündə prezident sake içibmiş.

**Barak Obama klassik amerikan fast fooduna üstünlük verir**

ABŞ prezidenti Barak Obama isə gerçək demokrat kimi sadə yeməyə - fast fooda önəm verir. 2010-cu ildə Dmitriy Medvedyevlə görüşəndə də o, həmkarını Rays Hell Burger adlı restorana dəvət etmişdi. Bundan başqa, Obama pivə içməyi də sevir. 2012-ci ildə Obama Ağ Evin içində pivə istehsalına icazə vermişdi. Bundan başqa, onun həyat yoldaşı Mişel Obama da Ağ Evə köçəndən sonra o ərazidə bostan düzəldib. Sonradan məlum oldu ki, xanım Obama bu bostandan 700 kiloqram tərəvəz yığıb.

2008-ci ildə Obama İllinoys ştatında senator olanda "The New York Times" qəzeti onun ən çox sevdiyi və sevmədiyi yeməklərin siyahısını dərc etmişdi. Həmin siyahıdan məlum olmuşdu ki, Obama qovrulmuş badam, fıstıq, fındıq, südlü şokolad və tərəvəzləri sevir. Mayonez, cipsi, qulançarı ağzına belə almır. Limonad və spirtsiz içkiləri içmir, çaya və suya üstünlük verir.

**Putin balığa üstünlük verir**

Rusiya prezidenti Vladimir Putinin yemək zövqü barədə məlumat bir qədər azdır. Bir dəfə özü müsahibəsində bildirmişdi ki, yemək məsələsində ciddi kaprizləri yoxdur. **"Əgər ət və balıq arasında seçim varsa, balığa üstünlük verirəm. Ətlərdən isə qoyun ətini seçirəm. Şirniyyata qarşı ümumiyyətlə, laqeydəm, təbii ki, dondurmanı nəzərə almasaq. Nə vaxtsa harasa səfər edirəmsə, böyük məmnuniyyətlə yerli mətbəxin dadına baxıram. Çoxdan bəri yaşıl çaya öyrəşmişəm".** Bunu da özü müsahibəsində deyib.

2012-ci ildə Putin NTV jurnalistləri ilə səhər yeməyi yeyəndə məlum olmuşdu ki, Rusiya prezidenti səhərlər kəsmiklə bal yeyir, bildirçin yumurtası içir. Bundan başqa, Putin xüsusi reseptlə hazırlanmış kokteyl içir.

2010-cu ildə Kremlin baş aşpazı Anatoli Qalkin Putinin içkilərdən şərab və pivəyə üstünlük verdiyini deyib. Bundan başqa, Qalkin rəsmi tədbirlərdə təqdim edilən kokteylin reseptini də açıqlayıb. Onun tərkibində buz, limon suyu, sirop və 50 qram şampan olub. Aşpazın sözlərinə görə, belə içki "istini inanılmaz dərəcədə azaldır".

**Boris Yeltsin ekzotik yeməklərə "yox" deyib**

Rusiyanın birinci mərhum prezidenti Boris Yeltsin də öz kulinar seçimlərini heç vaxt gizlətməyib. O, əti, xüsusən də quş ətini, vəhşi qaban və maral ətini sevirmiş. Anatoliy Qalkin xatırladır ki, qara kürüdən olan pelmen onun çox xoşuna gəlirdi. Bundan başqa, Boris Nikolayeviç fıstıqlı kolbasanın dəlisi imiş. Maraqlıdır ki, Putindən fərqli olaraq, o, xaricdəki səfərləri zamanı ekzotik yeməklərdən dadmaqdan imtina edib. İçkilərdən isə hər zaman araq və keyfiyyətli konyaka üstünlük verib.

**Qayınanası Lukaşenkonu nələrə qonaq edir?**

Keçək Belarus prezidenti Aleksandr Lukaşenkoya. Onu da sadə mətbəx həvəskarı adlandırmaq olar. Belə ki, ətlərdən balıq ətinə, qara çörəyə üstünlük verir. Bundan başqa, menyusunda mütləq meyvə və meyvə şirəsi olur. O, şirniyyat və dondurmanı yox deyə bilmir. Amma bununla yanaşı, çəkisinə də önəm verir. Bir pirojna yeyəndən sonra 3-4 kilometr rolik və xizək sürməyi tərcih edir.

Prezidentin qayınanası Yelena Jelneroviç deyir ki, səfər vaxtı kürəkəni üçün blinçik, süd şorbası, yumurta verir. Y.Jelneroviç iddia edir ki, kürəkəni necə illərdir menyusunda xüsusi dəyişiklik etmir.

**Kartof həvəskarı kraliça**

2014-cü il iyul ayının sonunda Londonda bütün şef-aşpazları özündə birləşdirən Club-desChefs təşkilatının tədbiri oldu. Tədbir zamanı Böyük Britaniya kraliçasının yemək zövqü də üzə çıxıb. Bəlli olub ki, o, krivetka və dəniz məhsullarını sevmir. Amma ənənəvi Britaniya mətbəxinə münasibəti yaxşıdır. Xüsusilə günə başladığı yulaf yarmasına. Keçmiş kral aşpazı Mark Flanaqan kraliçanın kartofu çox sevdiyini deyir.

Bundan başqa, yuxudan öncə İngiltərə kraliçası bir stəkan Dyubonne *(şərab içkisi)* içir. Sərt içkilərdən isə cini tərcih edir.

**Ollandla Sarkozini bir-birindən ayıran mətbəx...**

Yemək deyib, Fransa mətbəxindən yan keçmək olmaz. Təbii ki, Fransa prezidentini də unutmamaq şərtilə. Fransua Ollanda Nikola Sarkozidən fərqli olaraq, ənginarı sevmir. Xatırladaq ki, Sarkozinin sevimli yeməkləri makaron və ənginar, qara trüfel idi. Sarkozi yeməklə çaxır içməyi xoşlayırdı. O, şimali koreyalı həmkarından fərqli olaraq pendiri heç sevmir. Hakimiyyəti dönəmində Sarkozi Yelisey Sarayının yaxınlığında yerləşən Le Bristol adlı restoranda yemək yeyirdi. Həmin vaxt onun sevimli yeməyinin qiyməti 82 avro idi. Amma Sarkozi Kim Çen İndən fərqli olaraq, pendirə nifrət edir.

Ən fərqli yemək zövqü olan Fransanın keçmiş prezidenti Fransua Mitterandır. O, delikatesə üstünlük verib, mətbəxində yeni dadların kəşfini tələb edirmiş.

Fransa prezidentlərinin baş aşpazı olan Bernard Vossion Yelisey Sarayında başına gələnlərdən danışıb.

40 ildir fransız prezidentləri yedizdirən aşbaz "Le Parisien" qəzetinə onların yemək menyularından danışıb.

Bu ayın sonunda təqaüdə çıxacaq Vossion verdiyi açıqlamasında keçmiş prezident Fransua Mitteranın dəniz menyusunu sevdiyini deyib: **"Jak Şirak ilbiz və kələm turşusunu sevirdi. Bunları da pivəsiz yeməzdi. Nikola Sarkozi isə pendiri menyudan çıxarmışdı, amma şokoladı sevirdi".**

Baş aşpaz son vaxtlar ölkənin iqtisadi vəziyyəti ilə bağlı tənqid olunan indiki prezident Fransua Ollandın isə xüsusi yemək menyusunun olmadığını deyib: **"Heç bir yeməyi ayırmır. Toyuq, dana əti, göyərti, pendir və s. nə gəldi yeyir".**

**Angela Merkelin kələmli donuz kolbasası**

Almaniya kansleri Angela Merkeldən danışanda isə yemək xüsusi olaraq dəyər qazanır. Çünki o, yemək zövqü barədə danışmağı çox sevir. Bundan başqa, boş vaxtlarında özü də yemək bişirir. Onun ən yaxşı bacardığı yeməklər arasında kartof şorbası, balıq yeməkləri və şnisel *(kotletə oxşar xörək)* yer alır. Milad bayramında isə kartof salatı hazırlayıb, qaz qızardır.

Kanslerin sevimli məhsullarını siyahısında kələmli donuz kolbasası da var. Merkelin şəxsi aşpazının sözlərinə görə, o, pendiri çox sevir və siyasətçilərin çoxu kimi çaxır içir.

❑ **Hazırladı Sevinc TELMANQIZI**

# Quş qripi yenidən qayıdır



## Yolçu Xanvəli: "Azərbaycana bu xəstəliyin kənd təsərrüfatı malları vasitəsilə gəlmə ehtimalı yoxdur"

## Adil Qeybulla: "Quş qripi köçəri quşlarla yayılır və hər an ölkəmizə gəlmə təhlükəsi var"

**Cənub-Şərqi Asiyada "quş qripi"nin yeni növü aşkarlanıb. Bu barədə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) məlumat yayıb. Məlumata görə, H5N6 virusuna bu ilin aprelində Çində, daha sonra Laos və Vyetnamda rast gəlinib. Bu günə kimi virusa insanlarda rast gəlinməsə də, regionda iqtisadiyyat və heyvandarlıq üçün təhlükəli haldır.**

Qeyd edək ki, FAO Cənub-Şərqi və Şərqi Asiya ölkələrinin hökumətlərini "quş qripi" virusunun aşkarlanması səylərini artırmağa və onun insana keçib-keçməməsinin monitorinqini aparmağa çağırıb.

Xatırladaq ki, bir neçə il əvvəl də quş qripi təhlükəsi əksəriyyət ölkələrdə, o cümlədən də Azərbaycanda təşvişə səbəb olmuşdu. İndi də insanları bu sual maraqlandırır ki, quş qripinin yeni yayılmış bu növü Azərbaycana da gəlib çıxa bilərmi?

**Dövlət Baytarlıq Xidmətinin mətbuat mərkəzinin rəhbəri Yolçu Xanvəli quş qripinə görə ölkədə daim monitorinqlər aparıldığını bildirdi:** "Quş qripinə görə həmişə ölkədə monitorinqlər aparılır. Bu il də yaz miqrasiyası dövründə monitorinqlərimizi aparmışıq. Biz quş qripinə və digər xəstəliklərə görə vəziyyəti sabit olan ölkələrdən məhsullar idxal edirik. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının yaydığı məlumatdan biz də xəbərdarıq. Bilirsiniz ki, quş qripinin 18 tipi var. Yəqin ki, onlardan yeni bir tip daha müəyyən edilib. Çox güman ki, yaxınlarda bu tipin hansı qrupa aid olduğu barədə məlumat veriləcək. Cənubi və Şərqi Asiyada, xüsusilə də Çin, Vyetnam və Tayvan zonasında bu xəstəliklərin daima qeydə alındığı bizə də bəlli idi. Biz bu bölgələrdən heç bir məhsul almırıq. Bu ölkələrdən quş əti və quş əti məhsulları almadığımıza görə Azərbaycana bu xəstəliyin kənd təsərrüfatı malları vasitəsilə gəlmə ehtimalı sıfıra bərabərdir. Amma növbəti monitorinqlərə də payız miqrasiyası dövründə start vermək istəyirik. Bu da quşların miqrasiyası dövrünə, noyabrın ortaları - dekabrın əvvəlinə təsadüf edir. Bu gün üçün isə deyə bilərik ki, ölkəmizdə quş qripi hər hansısa bir formada müşahidə edilmir. Bu xəstəliyə də xüsusi nəzarət olunur. Ayrı-ayrı quşçuluq fabriklərindən, broyler təsərrüfatlarından qan nümunələri Respublika Baytarlıq Laboratoriyasına gətirilir və nümunələr burada müayinə olunur. Tam əminliklə deyə bilərik ki, ölkəmizdə quş qripinin hər hansı növünə təsadüf olunmur".

**Tibb elmləri doktoru, professor Adil Qeybulla quş qripinin köçəri quşlarla yayıldığını və hər an ölkəmizə gəlmə təhlükəsinin ola biləcəyini dedi:** "Quş qripi köçəri quşlar vasitəsilə yayılır və bu quşlar da sərhəd tanımır. Bilirsiniz ki, bu köçəri quşlar fəsildən-fəslə ayrı-ayrı yerlərdə olurlar. Buna görə də çox asanlıqla bu virusu yaya bilərlər. Quş qripi virusunu da elmdə lokallaşdırmaq lazımdır. Keçən il eyni hal baş verəndə Ümumdünya Səhiyyə Təşkilatı bütün gününü səfərbər etdi və onu yerindəcə lokallaşdırdı və bunun yayılmasının bir növ qarşısını aldı. Yəqin ki, indi də belə tədbirlər görüləcək. Düzdür, hələ ki quş qripinin yeni yayılmış bu növü haqqında tam məlumat yoxdur. Amma quş qripinin əvvəlki forması qanla keçirdi. Bir ara Azərbaycanda toyuq və quş ətinin qadağan olunması da həmin bu xəstəliklə bağlı idi. Hesab edirəm ki, hər ehtimala qarşı diqqətli olmaq lazımdır. Bir müddət köçəri quşların ətinin satışını məhdudlaşdırmaq və ya nəzarəti artırmaq olar. Yəni müəyyən profilaktik tədbirlər görmək lazımdır ki, bu qrip Azərbaycanda yayılmasın".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT

Son səhifə

N 238 (5947) 24 sentyabr 2014



## Oğurluq edən gəncin cəzası... anasına kömək etmək olacaq

Böyük Britaniya məhkəməsi 18 yaşlı bir oğlanı həbsə göndərmək əvəzinə qəribə cəza verib. O, bundan sonra anasına ev işlərində kömək etməyə təhkim olunub. Belə ki, Jeymi Frum adlı gənc gündəlik olaraq yatağı yığışdıracaq, evdə səliqə-sahman yaradacaq, paltarları yuyacaq. Oğlanın günahı isə oğurluq olub. Onun anası məhkəmədə bildirib ki, bu qərardan olduqca razıdır. Çünki Frumun türmədə yatmasındansa evdə ona köməklik etməsi yaxşıdır. Gənc özü isə bu qərarı sərt adlandırıb. Onun dediyinə görə, bu hadisədən əvvəl də anasına ev işlərində kömək edirmiş. Oğru qeyd edib ki, əslində hakim onu dəmir barmaqlıqlar arasına göndərməli idi.

Parlament üzvü, deputatı David Davis isə qərarı tənqid edərək bunu rüsvayçılıq adlandırıb: "Bu quldur həbsxanada olmalıdır".

"The Sun" qəzeti isə yazıb ki, məhkəmə ancaq bir halda bu gənci həbsxanaya göndərə bilər. Anası onun ev işlərinə kömək etmədiyini dediyi halda, 18 yaşlı oğlanı həbsxana divarları "salamlayacaq".

## Ən çox siqareti indoneziyalılar çəkir

Ümumdünya Səhiyyə Təşkilatının araşdırmasına görə, kişilərin ən çox siqaret çəkdiyi ölkə İndoneziyadır. Bu ölkədə kişilərin üçdə ikisi siqaret çəkir. Daha dəqiq desək, 15 yaşdan yuxarı 90 milyon kişinin 67 faizi siqaret çəkir. Siqaret araşdırması İndoneziyadan başqa Türkiyə, Rusiya, Banqladeş, Braziliya, Çin, Misir, Hindistan, Meksika, Filippin, Rusiya, Tailand, Ukrayna, Vyetnam kimi 14 ölkədə keçirilib. Adıçəkilən 14 ölkədə dünya miqyasındakı siqaretin 95 faizi istifadə edilir. Səhiyyə Nazirliyinin sənədlərinə görə 2012-ci ildə 15 yaşdan yuxarı siqaret çəkənlərin sayı 14 milyon 678 min 500 nəfərdir.



## Qonşusuna açıqca göndərdi, həbs olundu



Minnesota ştatı məhkəməsi Şaron Lavon Russo adlı qadını qonşusuna açıqca göndərdiyi üçün həbs edib. İki günlük həbs cəzasının səbəbi isə qadının daha öncə ona edilən xəbərdarlığa əhəmiyyət verməməsi olub. Məhkəmə onun qonşularına qarşı hər hansı hərəkət etməsini yasaqlamışdı. Sözügedən yasaq qərarı bir neçə il öncə verilib. Həmin vaxt qonşuları ilə tez-tez dalaşan qadın barədə məhkəmə ilginc qərar çıxarmışdı: qonşularla hər hansı ünsiyyət həbslə nəticələnəcək.

Aralarında soyuq münasibətlər olmasına baxmayaraq, Şaron Lavon qonşusuna açıqca göndərdiyi üçün məhkəmə qarşısına çıxıb. Qonşusu iddia edib ki, düşmən münasibətlərdə olduğu Şarondan təbrik açıqcası almaq onu qorxudub. Müstəntiq Şaronun 90 gün müddətinə həbsini istəyib. Hakim Qalen Vaa isə insanlar arasındakı sadə olmayan münasibətləri də nəzərə alaraq, bu həbsin 2 günə qədər azaldılması barədə qərar verib.

## Səhər yeməyindən imtina edənlər... daha sürətlə kökəlir



Səhər yeməyi vərdişi bir çox insanlarda yoxdur. Çox adam günə bir fincan qəhvə ilə start verməyə çalışır. Halbuki sadəcə qəhvə içmək yuxunu açsa da, vücuda enerji və qidanı təmin etmir. Üstəlik, qəhvə daha sonra qəbul edilən bəzi qidaların vücudda istifadə olunmasına mane olur. Beləliklə, insan bir müddətdən sonra özünü yorğun hiss etməyə başlayır. Bundan başqa qəhvə riyazi və məntiqi qabiliyyətlərə də mənfi təsir edir. Gərgin bir günə başlayarkən: pendir, süd, yumurta kimi tərkibində protein olan qidalardan ibarət bir səhər yeməyi, şirin çay və küncütlü kömbədən ibarət səhər yeməyi ilə müqayisədə daha yaxşı nəticə alınmasını təmin edir.



## Ayı turisti yedi

Amerikanın milli parkı olan Apşavada ayı 22 yaşlı turisti yeyib. "Frans-Press" agentliyinin xəbərinə görə, hadisə Nyu-Yorkdan 65 kilometr aralıda yerləşən parkda, 21 sentyabrda baş verib. 5 nəfərdən ibarət turist qrupu ayını görən kimi panikaya düşərək qaçıb. Aradan bir müddət keçəndən sonra 4 nəfər yenidən bir araya gələrək, polis çağırıb. Çünki aralarındakı bir nəfəri tapa bilməyiblər. İtən şəxs Rutqers Universitetinin tələbəsi Darşa Patela olub. 2 saatlıq axtarışdan sonra polis itkin düşmüş kişini tapıb. Hüquq-mühafizə orqanlarından bildiriblər ki, hadisə yerində aparılan axtarış kişinin ayı tərəfindən yeyildiyini sübut edib. 135 kiloqram ağırlığındakı ayı turistə qəfil hücum edərək, onu yeyib.

Qeyd olunur ki, qara ayılar Nyu-Cersi həndəvərində tez-tez görülür. Yerli polislərin bildirdiyinə görə, hər həftə ayı hücumları ilə bağlı onlara 12-yə yaxın zəng gəlir.




**QOÇ** - Planetlərin bürcünüzdəki müsbət düzümü bu təqvimi romantik tərzdə başa vuracağınıza dəlalət edir. Ən azı iki istiqamətdən sevindirici xəbər ala bilərsiniz. Saat 19-21 aralığında isə ehtiyatlı olun.

**BUĞA** - Yalnız maliyyə məsələlərinin həllində uğur qazana bilərsiniz. Hansısa riskli hərəkət və ya yeni işə başlamaqsa uğursuzdur. Ailə üzvlərinizlə, dostlarınızla mübahisəyə yol verməyin.

**ƏKİZLƏR** - Uğurlu gün hesab etmək olar. Ötən on gündə yığdığınız gərginlik xeyli səngiyəcək. Günün ikinci yarısında maraqlı görüş və qonaqlıqlarda iştirakınız da gözlənilir. Məğrur olun.

**XƏRÇƏNG** - Sağlamlığınızla bağlı əmələ gəlmiş problemləriniz azalacaq. Amma günün birinci yarısında daha çox istirahət etməlisiniz. Nahardan sonra isə varlanma ehtimalınız mümkündür.

**ŞİR** - Ulduzlar ayın ən uğurlu günlərindən birini yaşayacağınızı bəyan edir. Bir tərəfdən şəxsi işlərinizdə müsbət dönüş baş verəcək, digər tərəfdənsə perspektivli təklif alacaqsınız.

**QIZ** - Səbəbsiz narahatçılığınızı dəf etmək üçün yeni mühitdə, yeni insanlar arasında olmağınız məsləhətdir. Bu səbəbdən qonaq getməyə hazırlaşın. Səhhətinizə də fikir verin.

**TƏRƏZİ** - Bu gün bürcünüzün "hakimiyyət kürsüsündə" əyləşməsi qarşınızda ciddi seçim qoyacaq. İndi konkret addım atmaq yox, yalnız götür-qoy etmək lazımdır. Yeni əlaqələrə isə can atmayın.

**ƏQRƏB** - Yaxşı olar ki, əsas vaxtınızı istirahətə həsr edəsiniz. Yeni əməkdaşlıq haqqındakı planlarınızı müvəffəqiyyətlə başa vurmaq istəyirsinizsə, yaxşı-yaxşı götür-qoy edin. Səfərə çıxmaq daha maraqlıdır.

**OXATAN** - Təxminən saat 14-ə qədər istirahət etməyiniz məsləhətdir. Onsuz da həmin ərəfədə hansısa ciddi bir iş görməyiniz çətindir. Sonrakı müddətdə isə əksinə, aktivliyinizi artırmalısınız.

**OĞLAQ** - Qarşınızda sürpriz dolu bir təqvim dayanıb. Odur ki, passivlik göstərməməli, bütün enerjinizi nəzərdə tutduğunuz planların həlli istiqamətinə yönəltməlisiniz. Axşam mübahisədən çəkinin.

**SUTÖKƏN** - Ruhunuzu bürüyən gərginliklə mübarizədə daxili rahatlığınızı bərpa edə biləcəksiniz. Bunun üçün maraqlı ünvanlarda olmağınız da vacibdir. Qlobal məsələləri məhz bu gün planlaşdırın.

**BALIQLAR** - Ətrafınızdakıların sizi lazımınca başa düşməməsi səbəbindən ovqatınız aşağı ola bilər. Amma reallığa obyektiv qiymət verməklə çıxış yolu tapa bilərsiniz. Həmkarlarınızla mülayim davranın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## İnsan gəncliyini 46 yaşdan sonra başa vurur



İnsan həyatının gənclik mərhələsi ilə bağlı müxtəlif fikirlər var. Hər kəs gənclik və orta yaş dövrünün başlaması ilə əlaqədar fərqli yaş dövrünü göstərir. Bu gün də bu rəqəm mentalitet, ölkə, yaşayış tərzindən asılı olaraq dəyişir. Məsələn, yaxın Şərqdə 14 yaşdan etibarən uşaqlar yetkinlik yaşına çatmış hesab olunurlar. Qərbdə isə 18-21 yaş yeniyetməlik hesab edilir. Britaniyalı mütəxəssislərin araşdırmasına görə, bu gün ingilislərin çoxu orta yaş mərhələsinin 55 yaşdan sonra başladığını müəyyənləşdirib. Onların fikrincə, 46 yaşdan sonra insan gəncliyini başa vurur, isveçlilərdə bu rəqəm 34, yunanlarda isə 52-dir.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.600

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.